*İmam Əmirəlmöminin Əli (ə)*
*adına İslam Araşdırmalar Mərkəzi*

# İMAM MEHDİ
## (Allah onun zühurunu tezləşdirsin)
## CAHANŞÜMUL HAKİMİYYƏT

بسم الله الرحمن الرحيم

**BİSMİLLAHİR RƏHMANİR RƏHİM**

***Kitabın adı: İmam Mehdinin (ə) cahanşümul hakimiyyəti***
***Müəllif: İmam Əmirəlmöminin Əli (ə) adına İslam Araşdırmalar Mərkəzi***
***Tərcümə edən: Rza Şükürlü***
***Redaktor: Elmar Rəhimli və Mərdan Zalov***

*Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi DK 411/B saylı 23 avqust 2013-cü il tarixli məktubu ilə kitabın çap olunmasına razılıq verilmişdir.*

***Kitabın çap hüquqları qorunur***

# AYDIN GƏLƏCƏK



## *İCTİMAİ-TARİXİ TƏKAMÜL*

Şübhəsiz, ilk baxışda keşməkeşli bu həyat dünyanın "faciə"yə doğru irəlilədiyini göstərir, rəhmsizlik, varlı və yoxsul təbəqələr arasında kəskin fasilə, böyük-kiçik dövlətlərarası qarşıdurma və ixtilaflar, artan cinayətlər, əxlaqi, ruhi və psixoloji sarsıntılar, maşınlı həyatın pis nəticələri və s. onu günbəgün daha da artırır. Mövcud vəziyyətin yaxın keçmişlə müqayisəsi bu həqiqətə tam aydınlıq gətirir, nikbin insanlarda gələcəyə bədbinliyi artırır.

Beynəlxalq statistikalara əsasən, yer kürəsinin bütün abadlıqlarını (bir dəfə yox, yeddi dəfə) məhv etmək üçün yalnız bir neçə dövlətin ixtiyarında olan hazırkı atom bombaları kifayətdir. İnsanın ağlına sığmayan böyük xərclərin sayəsində hasil olan bu silahlar oyun-oyuncaq deyil və bu qədər coğrafi sərhəd və maraqların qarşıdurması ilə üzləşən çağdaş dünyamızda hər an dəhşətli atom müharibəsinə zəmin yaratmağa qadirdir. Bir çox dövlətlərdə müşahidə olunan hədsiz qüdrət və hegemonluq hissi artıq ağlagəlməz müharibələri vücuda gətirir. Buna əsasən, yaxın gələcəkdə dünyanın "böyük faciə" ilə üzləşəcəyi, yaxud böyük atom müharibəsi, yaxud dünya mülkədarlarının yaratdıqları inhisardan doğan yoxsulluq və yaxud enerji mənbələrinin tükənməsi

nəticəsində bəşəriyyətin həyatına son qoyulacağını demək olar.

Lakin bu qədər bədbinliyə aydın üfüq bəxş edən nikbin bir görüş və həqiqət də vardır:

Bu qədər qaranlığın və tükürpərdici vəhşətin sonu var!

Bu zülmətdən sonra aydın səhər var!

Bu qədər cəhalət, nadanlıq, zorakılıq, zülmkarlıq və fitnə-fəsaddan sonra çiçəkli ədalət baharı var!

Nəhayət, bu öldürücü qəm-qüssə sona yetəcək, üfüqlərdə nicat sahilləri aydın görünəcəkdir!

İnsan özünü tanıdığı gündən daxili stimullarından ilham almaqla daim inkişafdadır. O, bir zaman mağaralarda yaşayırdısa, bu gün bir qəsəbənin əhalisinə göydələnlərdə yer verir! Bir zaman özünü ağac yarpaqları ilə örtürdüsə, bu gün min cür model libas geyinir. Bir zaman çox sadə azuqə ilə qidalanırdısa, bu gün çeşidli yeməklərdən bəhrələnir. Bir zaman miniyi yalnız ayağı idisə, bu gün kosmik gəmilərlə göyləri fəth, kürələri seyr edir. Bir zaman onun bütün məlumatları bir kağız səhifəsində yerləşirdisə, bu gün minlərlə sahələrdə elmi nailiyyətləri vardır. Bir zaman xəncər adlı silah onun böyük ixtirası sayılırdısa, bu gün ağır sənaye və heyrətli cihazlar hamını mat qoyur, mütərəqqi elektronika onu röyalar aləminə aparır. Maraqlıdır ki, insan bununla qane olmur və yeni nailiyyətlər əldə etmək üçün yorulmadan çalışır, zəhmətə qatlaşır. Bir sözlə, təkamülə eşq insanın daxilində alovlanan əbədi və sönməz bir şölədir. Həqiqətdə, insanı heyvandan və digər canlılardan fərqləndirən ən böyük səciyyə də məhz budur!

Buradan belə qənaətə gəlirik ki, bu sönməz şölə

daim insanı təkamülə doğru aparır, hər zaman həyatın çətinliklərinə qələbə çalmaq üçün əzmini səfərbər edir, maddi meyarları aşaraq mənəvi təkamülə, sülh və ədalətlə yoğrulmuş ideal həyata doğru can atır.

### *XİLQƏTDƏ NİZAM VƏ UYĞUNLUQ*

Bildiyimiz kimi, varlıq aləminə son dərəcə dəqiq nizam-intizam hakimdir və onda təsadüf və uyğunsuzluq qeyri-mümkündür. Bu nizam və qanunauyğunluq onun əsasını təşkil edir. Böyük aləmdən kiçik aləmlərə, məxsusən, canlılar aləminə gəldikdə, nizam-intizam daha da dərinləşir. Məsələn, insan beyni, gözü, qan-damar sistemi və sairdə olan ölçü və qanunauyğunluqlar düşünən beyinləri mat qoyur. Aləmdə bu hüdudları zülm və haqsızlıqla aşan yalnız insandır!

### *FİTRƏT, SÜLH VƏ DÜNYAMİQYASLI ƏDALƏT*

Bəzən qarşıya gələn məsələni iki baxımdan araşdırmaq mümkün olur: əql və fitrətlə.

Fitri idrak dəlil-sübuta ehtiyacı olmayan batini agahlıqdır və bu qavrayışda insan şəkk-şübhəyə düşmür. Çox vaxt batini hisslərin verdiyi məlumatlar əqli çıxar və hökmlərdən daha dəqiq və sərrast olur və bu hiss heyvanlarda "qərizə" (instinkt) adlanır. Heyvanların qərizəvi və instinktiv hissləri biz insanlara nisbətən çox genişdir. Onlarda olan bir çox qəribəliklərlə hətta müasir texnologiya ilə də ayaqlaşmaq olmur. Məsələn, bəzi heyvanlar və həşəratlardakı hava proqnozu ilə bağlı hisslər o qədər güclüdür ki, bəziləri gözlənilən hadisəni bir gün, bəziləri altı ay, bəziləri də bir il öncədən proqnozlaşdıra bilir. Halbuki mütərəqqi cihazlara sahib

olan sinoptik və meteoroloqların bir neçə saat öncə hava haqqında verdikləri məlumatları ehtimallardan kənar qalmır... Lakin insanın fitri hisslərindəki məhdudiyyətləri aradan qaldıran əql qüvvəsi vardır! Hər halda, insan fitri ilhamlardan məhrum deyil və bəzən bir çıraq tək onun qaranlıq yollarını işıqlandırır.

* * *

Burada belə bir sual qarşıya çıxır: Bəşəriyyətin ən böyük arzusu olan sülh və ədalətin bərpasında fitri ilhamlar bizə kömək göstərə bilərmi? Bəli, cavab müsbətdir. Çünki burada diqqəti cəlb edən iki əlamət bizi ona doğru sövq edir:

**1. Sülh və ədalət eşqi:** Sülh və ədalət sevgisi hər bir insanın istəyidir. İrq və milliyyətindən asılı olmayaraq hamı sülh və ədalətdən ləzzət alır, onun arzusu ilə yaşayır. Bu fitri hiss bütün xalqlarda müşahidə olunur. Bununla belə, görəsən, bu hiss xam bir xəyaldır, yoxsa batində həqiqi bir ehtiyac, heç vaxt sönməyən bir tələbdir?

Deməliyik ki, fitri hisslərdə səhvin mənası yoxdur. Amma belə bir röya və arzunun gerçəkliyini bizə yalnız gələcək göstərəcək.

**2. Böyük xilaskar arzusu:** Bu barədə tədqiqat aparanların yekdil nəzərinə əsasən, dünya böyük bir islahatçı və xilaskarın intizarındadır. Hər xalq və millət ona müxtəlif ad versə də, onun ümumi səciyyələri və islahat proqramlarında həmfikirdirlər. Deməli, bəşəriyyətin dözülməz yaralarına məlhəm qoyan böyük xilaskarın zühuruna iman yalnız müsəlmanlara və ya şərqə mənsub deyil.

# QƏDİM ETİQAD VƏ AYİNLƏRDƏ BÖYÜK XİLASKAR



*ZƏRDÜŞTLƏRDƏ BÖYÜK XİLASKAR*

1. Məşhur "Zənd" kitabında izədlərin əhrimənlərlə mübarizəsindən söz düşdükdən sonra belə qeyd edilir: "...O zaman izədlər qələbə çalacaq və əhrimənlərin nəsli kəsiləcək. Qələbədən sonra varlıq aləmi səadət üzünü görəcək və Adəm övladı xoşbəxtlik taxtında əyləşəcək!"

2. Camasib "Camasibnamə" kitabında Zərdüştün belə dediyini nəql edir: "Tazyan diyarından bir şəxs zühur edəcək... Onun başı, bədəni və qolu böyük olacaq, öz cəddinin dini uğrunda böyük bir ordu ilə İrana doğru üz tutacaq və yer üzünü ədalətlə dolduracaq."

*HİNDULAR VƏ BRAHMANLARDA BÖYÜK XİLASKAR*

1. Hinduların "Vişən Cuk" adlı kitabında belə yazılır: "Nəhayət, dünyanı Allahı sevən və Onun xas bəndələrindən biri ixtiyarına alacaq..."

2. "Didə" adlı başqa bir kitabda belə yazılır: "Dünyanı fəsad bürüdükdən sonra axirəz-zamanda "Mənsur" adlı bir padşah məxluqatın rəhbəri olaraq bütün dünyanı ələ alıb, hamını öz dininə tabe edəcəkdir."

3. Brahmanların müqəddəs "Dedatək" adlı kitabında belə yazılır: "...Haqq əl gələcək, Mumtatanın son canişini zühur edib dünyanın şərq və qərbini tutacaq və məxluqatı

doğru yola yönəldəcək."

4. Hinduların "Patikal" adlı kitabında belə yazılır: "Günün vaxtı sona çatdıqdan və köhnə dünya yeniləşib dirçəldikdən sonra ona "Hidayətçi" adlı bir şəxs sahib çıxacaq, haqq üzrə padşahlıq edərək çoxlu möcüzə göstərəcək."

5. Hinduların "Basek" adlı kitabında isə belə yazılır: "Dünya sona çatdıqda, axirəz-zamanda mələklərə, pərilərə və insanlara ədalətli bir şəxs padşahlıq edəcək. Haqq onunla olacaq, dənizlərdə, yerin altında və dağlarda gizli olanları üzə çıxaracaq, yer və göydən xəbər verəcək və dünya ondan böyük bir şəxsi görməyəcək!"

*ƏHDİ-QƏDİMDƏ (TÖVRAT) BÖYÜK XİLASKAR*

1. "Davudun məzamiri" kitabının 37-ci bölümündə belə deyilir: "...Çünki şər insanlar aradan qaldırılacaq, Allaha təvəkkül edənlər isə yer üzünə varis olacaqlar. Agah olun, az müddətdən sonra şər insanlardan əsər-əlamət qalmayacaq və onları yaşadığı yerdə görməyəcəksən. Hikmət sahibləri (salehlər) yer üzünün varisi olacaqlar!"

2. 37-ci bölümün 22-ci cümləsində belə deyilir: "Allahın lənətinə tuş gəlmişlərin kökü kəsildiyi zaman Onun bərəkətli bəndələri yer üzünə varis olacaqlar."

3. 29-cu bölümdə belə deyilir: "Düzdanışanlar yer üzünə sahib və orada əbədi sakin olacaqlar."

4. Həbquq peyğəmbərin kitabının 7-ci fəslində deyilir: "...Zühuru geciksə də, intizarında ol! Sözsüz ki, o gələcək və bütün ümmətləri öz ətrafına toplayacaq."

5. Əşiya peyğəmbərin kitabının 11-ci fəslində ("təşbeh" fəsli) deyilir: "Yəsi[1] kökündən bir nəfər gələcək və onun

*1. Qüvvətli mənasını daşıyır və həzrət Davudun (ə) atasının adıdır. ("Müqəddəs Qamus" kitabından nəqlən)*

budaqlarından biri baş qaldıracaq... İnsanlar arasında ədalətlə hökm sürəcək və yer üzünün yoxsullarını ayıldacaq... Onun dövründə qurd qoyunla birgə yaşayacaq... Zərər və fəsada son qoyulacaq. Çünki dəniz su ilə dolduğu kimi, yer üzü də ilahi elmlə dolacaq."

### *ƏHDİ-CƏDİDDƏ (İNCİL) BÖYÜK XİLASKAR*

1. "Mətta incili"nin 24-cü fəslində deyilir: "Günəş şərqdən doğub qərbdə batdığı kimi, insan övladının gəlişi də belə olacaq... Səma buludları arxasından çıxan insan övladının qüdrət və əzəmətlə gəlişini görəcəklər! O, öz mələklərini (dostlarını) ucasəsli surla göndərəcək və onlar da seçilmişləri bir yerə yığacaqlar."

2. "Luka incili"nin 12-ci fəslində deyilir: "Belinizi bağlayıb, çıraqlarınızı yandırın. Siz öz sərvərinin intizarını çəkən insanlar kimi olun və o, hər zaman gəlib qapınızı döysə, dərhal açın!"

### *ÇİN, MİSİR VƏ DİGƏR XALQLARDA BÖYÜK XİLASKAR*

"Əlaimuz-zühur" kitabının 47-ci səhifəsində belə yazılır: "...Zühur və onun əlamətləri dünyanın bütün məzhəblərində xüsusi əhəmiyyət daşıyır... Bu arzunun əsasını təşkil edən etiqad və inama ürək bəsləyənlər hər yerdən ümidləri üzüldükdə və bəşəriyyətin qəflətdə olduğunu, günü-gündən fitnə-fəsada doğru yönəlib Allahdan uzaqlaşdığını və Onun əmrlərindən boyun qaçırdığını gördükdə, böyük Allahın dərgahına üz tutaraq, Ondan zülm və fəsadın aradan qalxacağını istəyəcəklər! Hər zaman böyük islahatçı və xilaskar arzusu allahpərəstlərin qəlblərindədir. Bu arzu və istək

zərdüşt, yəhudi, məsihi və İslam kimi yalnız böyük dinlərin ardıcılları arasında deyil, qədim Çin, hindu, Skandinaviya və hətta qədim misirlilər və meksikalıların əqidələrində xüsusi yer tutur!"

*QƏRB DÜNYASINDA BÖYÜK XİLASKAR*

Qeyd etdiyimiz kimi, böyük xilaskarın zühuruna etiqad ümumbəşəri xarakter daşıyır və qərbdə də şərqdəki kimi, böyük xilaskarın zühuru, insanlar arasından zülm və haqsızlığın aradan qalxması və ədalətli hakimiyyətin bərpasına etiqad vardır. Hətta İngiltərədə bu adla qiyama qalxanların da adları tarixdə qeyd edilir: Ceymz Naylor, Yuhna Suskat, Riçard Bradrez, Can Nikolz Tam və Henri Ceymz Prins. Amerikalı sosioloq Bernar Barberin "Xilaskar hərəkatı" adlı kitabında bu etiqadın hətta qırmızıdərili amerikalılar arasında da yaşandığını nəql edərək yazır: "Amerikada qırmızıdərili qəbilələr arasındakı əqidəyə görə aralarından bir nəfər zühur edib, onları yer üzünün behiştinə doğru aparacaq. 1980-ci ilə qədər Amerika tarixində iyirmiyə yaxın bu sayaq hərəkatın baş qaldırdığı qeydə alınıb." "Əlaimuz-zühur" kitabından nəql etdiyimiz kimi, bu etiqad Meksika və Skandinaviya xalqları arasında da mövcuddur.

İntizar hissi hamıda əhval-ruhiyyəni yüksəldir, fikirləri ayıldır, hazırlıq yaradır, inqilablar törədir, eşqləri alovlandırır və ideal cəmiyyətə doğru yolu hamarlaşdırır.

# CAHANŞÜMUL İNQİLAB



## *İNQİLAB, YAXUD TƏDRİCİ İSLAHAT*

Öncə qeyd etdiyimiz kimi, insan övladı fitri ilhama əsasən, gələcəyi qara buludlarsız, aydın görür. Burada belə bir sual yaranır ki, bu fərq və dəyişiklik tədrici islahatın, yoxsa böyük inqilabın sayəsində baş verəcək?

Ümumiyyətlə, alimlər arasında ictimai islahatın hansı yollarla həlli barədə yekdil nəzər yoxdur. Bəziləri reformasiyanı tədrici islahatda, bəziləri də inqilabda görür. Çünki inqilabsız bəşəriyyətə hakim durumun əsaslı dəyişilməsi qeyri-mümkündür.

**İzah:** Belə nəzərə çarpır ki, bu proses cəmiyyətdə mövcud olan fitnə-fəsadın dərəcəsindən asılıdır. Haqsızlıq və fitnə-fəsad ictimai forma almayınca, tədrici islahat proqramlarına önəm verilir, hər yeri və yaxud əksəriyyəti bürüdükdə isə, inqilabi hərəkatsız onun aradan qaldırılması mümkünsüz olur. Bu eynilə bir binanın tədrici təmiri və ya sökülməsinə bənzəyir. Məlumdur ki, içindən çürüyən hər bir şey yenisilə əvəz deyilir.

Aşağıdakı şahidlər bu nəzərə üstünlük verir:

1. Tədrici islahatlar davamsız dayaqlar üzərində təmir edilən binanı xatırlayır. Başqa sözlə, reformasiyada keçmiş struktur dəyişilmir və qüvvəsində qalır. Yararsızı isə yerində saxlamaq əbəs işdir.

2. Tədrici islahatlar, adətən, əmin-amanlıq şəraitində

və qanun çərçivəsində həyata keçir. Bu isə cəmiyyətin fikri-ideoloji hazırlığı olduğu zaman faydalıdır. Lakin elə hazırlıq yaranmadıqda, güc və zor tətbiqi zərurəti meydana çıxır. Əlbəttə, "inqilabi dəyişikliklər"də də proqram və plan rol oynasa da, son zərbəni inqilabçı qüvvələr endirir.

Fitnə-fəsad içində çapalayan cəmiyyətdə dinc islahatlar zaman keçdikcə azğın qüvvələrə fürsət verir və islahatçılara qarşı çıxıb, onların planlarını dəf edən vasitələrə əl ataraq öz işlərini davam etdirə bilirlər. Belə zərərli mikroblar yalnız güclü dərmanlar vasitəsilə aradan qaldırıla bilər!

3. Fəsad və qanunsuzluq hökm sürən cəmiyyətdə islahat proqramlarına qarşı çıxan ilk qüvvələr elə dövlət orqanlarının daxilindən olur və hər bir işi ləngidə və ya onun qarşısını ala bilirlər. Onları yalnız mütəşəkkil formaya çevrilmədikləri zaman inqilabla devirmək mümkündür!

4. İslahatçı və inqilaba qalxan qüvvələri uzun müddət hazır vəziyyətdə saxlamaq olmur. Onların fəaliyyətsiz saxladıqda, iradələri süstləşir, fəallıqlarını itirir və nəhayət, təsir altına düşürlər.

5. Tarix göstərir ki, böyük dəyişikliklər tədrici islahatlarla deyil, yalnız inqilablarla mümkün olub. Peyğəmbərlər və böyük mübariz insanlar belə hallarda yalnız inqilabi hərəkata önəm vermişlər. Nuh, İbrahim, Musa, İsa, məxsusən, İslam Peyğəmbəri (Allahın salamı onlara olsun) inqilabsız tarixin çöhrəsini dəyişə bilməzdilər.

* * *

Dünyanın bütövlükdə islahı, zülm, haqsızlıq və ayrı-

seçkilik üzərində qurulan mövcud durumun ədalətli hakimiyyətlə əvəz edilməsi isə zəruri və hamının arzusudur. Burada tədrici islahat yox, böyük bir inqilabi hərəkat lazımdır; mədəni, ideoloji, əxlaqi, iqtisadi, siyasi və hüquqi sahələri əhatə edən qlobal bir inqilab!

# DÜNYAMİQYASLI HAKİMİYYƏT ÜÇÜN LAZIMİ HAZIRLIQLAR



## *ÜMUMİ HAZIRLIQLAR*

Belə böyük məram üçün yalnız ümidvar olmaq kafi deyil. Bütün insanlar bir bayraq altına toplaşmayınca, viranedici silahlar məhv edilməyincə, imperializmə son qoyulmayınca, onların qorxulu siyasi-hərbi oyun və çəkişmələri yaddaşlardan həmişəlik silinməyincə, xalqların milli sərvət və iqtisadiyyatı inhisardan yaxa qurtarmayınca, yerini tutan ümumi həmkarlıq və əməkdaşlığa və dünyamiqyaslı hakimiyyətin bərpasına hələ tezdir və hazırlıq lazımdır. Son zamanların sürətlə baş verən dəyişikliklərini gördükdən sonra onun tarixini şirin yuxu tək elə də uzaq bilməməliyik. Lakin dünyanın belə bir hakimiyyəti qəbul etməsi üçün dörd cür hazırlıq lazımdır:

**1. Mədəni-ideoloji hazırlıq:** İnsanların təfəkkür tərzi o qədər yüksəlməlidir ki, onlar irq, millət, dil və məntəqəsindən asılı olmayaraq coğrafi sərhədləri aşıb, dünyanı vahid ölkə bilməlidirlər. İrqçilik, millətpərəstlik və s. aləmdə heç bir problemi həll etməyə qadir deyil. İmam Zamanın (ə) zühuru – bu böyük hədəf üçün mənəviyyata söykənən mədəni-ideoloji hazırlıq lazımdır. Yaxşı diqqət yetirdikdə, artıq dünyada agah və aydınfikirli insanlar arasında bu təfəkkür tərzinin təkamülə doğru irəlilədiyini, onu öz doğma vətəni düşünənlərin sayının günü-gündən

artığının şahidi oluruq. Hətta dünyaya vahid dilin hakim olması gündəmin məsələləri sırasındadır!

**2. İctimai hazırlıq:** İnsanlar dünyaya hakim zülm, haqsızlıq və mövcud rejimlərdən təngə gəlməli, sırf maddi həyatın acılığını hiss etməli və mövcud vəziyyət davam etdikcə, xoş gələcəkdən ümidlərini üzməlidirlər. Müasir dünyamızda elm və texnologiya sürətlə inkişaf etsə də, insanların sülh, rifah və əmin-amanlığı təmin olunmadığı kimi, maddi və mənəvi həyatın amansızlıqları da genişlənməkdədir. Dəbdəbəli qanunlar nəinki dünyadan zülm, haqsızlıq, ayrıseçkilik, ədalətsizlik və imperializmi aradan qaldırmır, əksinə daha böyük miqyas və formalarda aşkar olur. İnsanlara ümidsizlik hissini aşılayan dünyanın mövcud durumu yeni dəyərlərə söykənən hərtərəfli bir inqilaba hazırlığı təlqin edir.

**3. Elmi-texnoloji hazırlıq:** Bəziləri müasir texnologiyanı məhv etmədən ictimai təkamülü, sülh və ədalət dolu dövranı mümkünsüz təsəvvür edirlər. Amma mütərəqqi sənaye və texnologiya dünyamiqyaslı ədalətli hakimiyyətlə ziddiyyət təşkil etmir və onsuz belə bir məqsədə çatmaq, bəlkə də qeyri-mümkündür! Dünyamiqyaslı hakimiyyətin təşkili və idarəsi həddən artıq modern imkanlar tələb edir və bu da qısa müddət ərzində dünyanın hər bir nöqtəsilə əlaqə yaratmaq, tez bir zamanda hamını məlumatlandırmaq və ehtiyacları vaxtında təmin etmək üçün bir zərurət sayılır.

### *“İNTİZAR” MƏFHUMU*

“İntizar”, adətən, insanın mövcud vəziyyətdən narahat olaraq yaxşı vəziyyətin yaranması ümidilə gözlədiyi hala deyilir. Məsələn, sağalmaq intizarında olan xəstə mövcud vəziyyətdən, yaxud övladının səfərdən qayıtması

intizarını çəkən ana övladının ayrılığından narahatdır və hər ikisi bu vəziyyətin sona çatmasını gözləyir.

Demək, dünyanın böyük islahatçısının, imam Mehdinin (ə) haqq-ədalətli hökumətinin intizarı iki prinsip üzərində qurulmuşdur: "inkar" və "isbat" prinsipləri. "İnkar" dedikdə, mövcud vəziyyətdən narahatçılıq hissi, "isbat" dedikdə isə vəziyyətin yaxşılaşmasının intizarı nəzərdə tutulur. Bu iki prinsipin inkişafı iki mütənasib fikrin formalaşmasına səbəb olacaqdır: 1. zülm və haqsızlığa qarşı ikrah, hətta onlarla mübarizə hissi; 2. vahid ədalətli bir hökumətin təşkili üçün cismi və ruhi, maddi və mənəvi hazırlıq hissi. Göründüyü kimi, bu hisslərin hər ikisi müsbət xarakterlidir.

*İNTİZAR – FİTRİ HƏQİQƏT*

İntizar xam xəyallardan yox, insanın varlığının dərinliyindən qalxır. Daha aydın desək, böyük xilaskarın zühuruna iman "agahlığa eşq", "gözəlliyə eşq" və "yaxşılığa eşq"in tərkib hissəsidir. Bildiyimiz kimi, "təkamülə eşq" insan varlığını bürüyən əbədi bir şölədir. O, daha çox bilmək, gözəllikləri daha çox görmək, yaxşılıqlardan daha çox bəhrələnmək, bir sözlə, hər bir tərəqqiyə sahib olmaq istəyir. İnsanın təkamül və tərəqqiyə, elm və gözəlliyə, yaxşılıq və ədalətə bağlılığı həmişəyaşar duyğudur və böyük xilaskarın zühurunun intizarı da onun zirvəsidir!

Demək, həyatda məğlubiyyət və böhran bu hissdən ayrıldığımız zaman baş verir. Bədənin üzvləri birgə inkişaf etdiyi kimi, insanın ruhi-psixoloji xüsusiyyətləri də belədir və onların hər birinin təsiri inkaredilməzdir. Məsələn, hər bir insanda "təhlükəli amillərdən qorxu

hissi" onun təhlükələrdən qorunmasında qalxan rolunu oynayır və ya mənafeyini təhlükədə gördüyü zaman "qəzəb"lənməsi müdafiə mexanizmi üçün bir vasitədir. Odur ki, təkamül, sülh və ədalətə eşq-məhəbbət də bu böyük məqsəd uğrunda bir vasitə, insanın varlıq çarxlarını hərəkətə gətirən, onu sülh və ədalət dolu cahana çatdıran güclü motordur. Deməк, cisim və ruhda mövcud olan hiss və mexanizmlər varlıq aləminin məcmusu ilə uzlaşmalıdır. Çünki bütün varlıq aləmi bir-birinə bağlı vahid məcmuədir və bizim varlığımız da ondan ayrı deyil. İnsanların dünyanı haqq-ədalət, sülh və yaxşılıqla dolduran böyük xilaskarın intizarında olması ictimai təkamülün zirvəsinə doğru həqiqi təmayüldür.

Bütün ayinlərdə belə bir etiqadın varlığı bu həqiqətə bir nişanədir. Çünki yalnız fitri məsələlər bu qədər ümumi xarakter daşıya bilər. Nəhayət, dünya böyük xilaskarın sülh və ədalət bayrağı altına toplaşacaq.

*İNTİZARIN FƏLSƏFƏSİ*

Mövzu ilə bağlı aşağıdakı suallar hər bir şəxsi maraqlandıra bilər:

Bəşəriyyətin gələcəyindən danışmağın bugünkü günümüzə nə kimi faydası ola bilər? Bu gün minlərlə çətinlik və problemlər içərisində çapalayırıqsa, onların həlli üzərində düşünməliyik. Bizim sabahla nə işimiz var? Gələcək, axır kı, gələcək, istər yaxşı olsun, istərsə də pis! Həmin vaxta qədər yaşayanlar da onun nemətlərindən bəhrələnəcək və ölüb gedənlərə də Allah rəhmət etsin! Hər halda, bu məsələ hələ ki, "nisyə"dir və bizim bugünkü həyatımızda müsbət və qurucu təsiri yoxdur!

* * *

Qeyd etməliyik ki, bu sayaq sözləri hadisələri səthi baxışla izləyənlər, bu günü dünən və sabahdan ayrı və dünyanın ayrı-ayrı üzvlərdən mürəkkəb olduğunu təsəvvür edənlər dillərinə gətirirlər!

Lakin bu günün hadisələrinin keçmişin və gələcəyin də bu günün nəticələri olduğuna diqqət yetirdikdə, məlum olur ki, istər-istəməz keçmiş və gələcəyimiz bizə əhəmiyyətli olacaq. Halbuki bəziləri intizardakı müsbət yönləri düzgün anlamadıqlarından onları tənbəllik və süstlüklə səhv salırlar. Onların nəzərincə, aydın gələcəyə iman, adətən, yoxsul təbəqələrin arzularında məzhəbi formada özünü büruzə verən bir anlamdır. Lakin elə dardüşüncəlilər də var ki, "biz zühur intizarçılarıyıq" – adı ilə bütün məsuliyyətlərdən boyun qaçırır, hər bir vəzifəni intizarın üstünə atırlar.

Burada hər iki tərəfin yanlış düşüncələrini aradan qaldırmaq məqsədilə diqqətinizi bir neçə mövzuya cəlb edirik:

### *YANLIŞ MÜHAKİMƏLƏR*

Adətən, şərqşünaslar böyük xilaskarın varlığına imanı müsəlmanların tarixindəki qaranlıq dövranlarla əlaqələndirir və bunu təbii reaksiya bilirlər. Bəzi sadəlövh müsəlman və şərq tədqiqatçıları da onların təfəkkür tərzindən təsirlənərək yəhudi və məsihilərin etiqadlarından qaynaqlandığını təsəvvür edirlər. Bəzi materialist sosioloqlar isə "intizar" anlamını yoxsul təbəqələrdə sinfi ayrıseçkilik və imperializmə qarşı baş qaldıran kütləvi təbii-ictimai zərurət bilirlər.

Bütün bunlarla belə, zühurun intizarına etiqad fitri bir məsələ kimi, İslamın köklü əqidələrindən sayılır. Odur ki,

buna əks hər hansı fikir və nəzər, ya məhdud mütaliənin, ya da maddi təfəkkür tərzinin nəticəsidir. Məsələn, şərqşünas Margli Yut imam Mehdi (ə) ilə bağlı hədisləri inkar edərək yazı: "Hədislərin necə təfsir edilməsindən asılı olmayaraq əlimizdə Mühəmməd peyğəmbərindən İslamın gələcəyində rol oynaya biləcək Mehdi adlı bir şəxsin zühuruna dair qənaətbəxş bir dəlil yoxdur. Bunu biz onun vəfatından sonra yaranan daxili müharibələr və İslam aləmində baş qaldıran ixtilaf və təfriqələrə son qoymaq məqsədilə həzrət İsa Məsihin zühur və qayıdışının intizarında olan yəhudi və məsihilərdən iqtibas edilən bir anlam hesab etməliyik."

Deməliyik ki, Margli Yut kimilərinə minlərlə hədis və kitab da kifayət etməyəcək və onları qane etməyə də ehtiyac yoxdur. Amma "Tarixin müqəddiməsi" kitabında imam Mehdi (ə) ilə bağlı hədislərə şübhə ilə yanaşan İbn Xəldun və onun kimi bir neçə nəfər istisna olmaqla, müsəlman alim və tədqiqatçıları Peyğəmbərin (s) zühurla bağlı hədislərini yekdillə qəbul edir və yalnız cüzi məsələlərdə fikirayrılığı görünür.

### *İNTİZARIN MÜSBƏT TƏSİRLƏRİ*

Görəsən, imam Mehdinin (ə) zühuruna inamın (zülm və haqsızlığın köklərini məhv edən dünyamiqyaslı proqramları nəzərə almaqla) nə kimi müsbət və tərbiyəvi təsirləri vardır? Görəsən, bu inam insanı qafil və hər şey müqabilində təslim olmağa vadar etmirmi? Görəsən, bu əqidə müsbət mənada bir növ fərdi və ictimai qiyama dəvətdirmi? İnsanı tərəqqiyə doğru yönəldərək onda məsuliyyət hissi yaratmırmı? Bir sözlə, bu inam viranedicidir, yoxsa islahedici və qurucu?

Bu sualları araşdırmazdan öncə, müsbət fikir və ideyaların həmişə nadanların, yaxud mənfəətpərəstlərin əli ilə təhrifə məruz qalaraq əsl məqsəddən yayındırıldığını bilməliyik. Tarixdə belə nümunələr həddən artıq çoxdur və "intizar" da həmin təsirlərdən amanda qalmamışdır. Belə məsələlərdə təhrif və xətadan amanda qalmaq məqsədilə, necə deyərlər, suyu bulağın gözündən götürmək, eyni zamanda, "intizar"ı düzgün anlamaq üçün də İslamın təməl prinsiplərinə müraciət etmək və onu rəvayətlərin dili ilə araşdırmaq lazımdır.

Aşağıdakı rəvayətlər bu məsələyə aydınlıq gətirir:

1. Bir nəfər imam Sadiqdən (ə) soruşdu: "Haqq hökumətin intizarını çəkdiyi halda dünyadan gedən şəxs haqqında nəzəriniz nədir?"

İmam buyurdu: *"O, Qaimin xeyməsində (ordusunda) hazır olan şəxs kimidir.* (Həzrət bir az sükut etdikdən sonra buyurdu:) *O, İslam peyğəmbəri ilə birgə mübarizələrdə iştirak edən şəxs kimidir!"*[1] (Buna bənzər rəvayətlər çoxdur.)

2. Bəzi rəvayətlərdə deyilir: "O, Allah yolunda qılınc çəkən şəxs kimidir!"

3. *"O, Peyğəmbərin hüzurunda qılıncla düşmən başına zərbə endirən şəxs kimidir!"*

4. *"O, Qaimin bayrağı altında olan şəxs kimidir!"*

5. *"O, Peyğəmbərin hüzurunda cihad edən şəxs kimidir!"*

6. *"O, Peyğəmbərlə şəhid olan şəxs kimidir!"*

İmam Mehdinin (ə) zühurunun intizarı ilə əlaqədar bu təşbeh və bənzətmələr düşmənlə mübarizəyə və cihada daha artıq şövq yaradır.

7. Bir çox rəvayətlərdə isə belə bir hökumətin intizarını çəkmək ən böyük və ən fəzilətli ibadət sayılmışdır.

*1. "Məhasini-Bərqi", "Biharul-ənvar" kitabından nəqlən, qədim çapla 13-cü cild, səh. 136.*

Bunları biz həm Peyğəmbəri-Əkrəmdən (s), həm də imam Əlidən (ə) nəql olunan hədislərdə görə bilərik. Bir hədisdə Peyğəmbəri-Əkrəm (s) belə buyurmuşdur:

اَفْضَلُ الْاَعْمالِ اُمَّتی اِنْتِظارُ الْفَرَجِ مِنَ اللهِ عَزَّوَجَلَّ:

*"Mənim ümmətimin ən fəzilətli əməli Allahın vəd etdiyi zühurun intizarını çəkməkdir!"*[1]

O həzrət başqa bir hədisdə belə buyurmuşdur:

اَفْضَلُ العِبادَةِ اِنْتِظارُ الْفَرَجِ:

*"Ən fəzilətli əməl zühur intizarı çəkməkdir!"*[2]

Buradakı "intizar" sözü istər ümumi, istərsə də xüsusi mənada olsun, dünyanın böyük islahatçısının zühur intizarını bildirməklə yanaşı, onun böyük əhəmiyyət daşıdığını göstərir.

Qeyd olunanlar böyük bir cihadla yanaşıdır. Bunu nəzərə aldıqda, yekun nəticə üçün zəmin yaranır.

"İntizar"ın bu məfhumuna diqqət yetirməklə imam Mehdi (ə) qiyamının intizarını çəkənlərin böyük savaba nail olacağı məlum olur. Beləliklə, nə üçün rəvayətlərdə həqiqi intizar çəkənlərin imam Mehdinin (ə) xeyməsində və bayrağı altında olanlarla bir, yaxud Allah yolunda cihad edən və şəhid olanlar sırasında sayıldığını aydın şəkildə başa düşürük.

Görəsən, bunlar insanların hazırlıq, haqq-ədalət yolunda mübarizə və yüksək dərəcələrə dəvəti deyilmi? Məlumdur ki, Allah yolunda cihad edənlər fədakarlıq dərəcəsinə görə fərqləndiyi kimi, intizar hazırlığının da müxtəlif dərəcələri vardır. Bu baxımdan, onların biri digərinə bənzəyir, yəni hər ikisi cihad sayılır və hazırlıq

1. *"Biharul-ənvar", 13-cü cild, səh. 137.*
2. *Yenə orada, səh, 13-cü cild, səh. 136.*

tələb edir. Belə bir dövlətin bayrağı altda durmağa layiq olan şəxs məsələyə əhəmiyyətsiz yanaşa bilməz. Ora yalnız ləyaqətli şəxslərin yeridir. Eyni zamanda, əlinə silah götürüb bu inqilabın düşmənləri ilə mübarizə aparmaq istəyən şəxsin ruhi, cismani və ideoloji cəhətdən tam hazırlığı olmalıdır.

### *İNTİZAR – TAM HAZIRLIQ*

Əgər mən özümə zülm edirəmsə, zülmkarların əleyhinə qalxacaq bir rəhbərin intizarını necə çəkə bilərəm? Əgər mən özüm də günahkar olub, pak deyiləmsə, yer üzünü çirkin insanlardan təmizləmək məramında olan bir inqilabın intizarını çəkənlərdən necə ola bilərəm?

Böyük bir cihadın intizarını çəkən ordu hərbi hazırlığı və hərbiçilərin sayını artırmağa, onlarda inqilab ruhiyyəsi yaratmağa və bütün zəif nöqtələri islah etməyə cəhd göstərir.

İntizar, yəni bir müsafirin səfərdən qayıtmasını gözləmək.

İntizar, yəni əziz bir dostun gəlişini gözləmək.

İntizar, yəni meyvənin dərilmə və məhsulun yığım fəslini gözləmək. (Bu intizarların hər biri müəyyən hazırlıqla birgədir.)

Amma dünyanın böyük islahatçısının qiyamının intizarını çəkmək, həqiqətdə bəşər tarixində inqilabların ən böyük və genişinin, ümumbəşəri çevriliş və dəyişikliklərin intizarıdır. Bu inqilab digər inqilablardan fərqli olaraq, müəyyən bir məntəqəyə məxsus olmayıb cahanşümuldur, insanların bütün yaşayış yönlərinə – həm siyasi, həm mədəni, həm iqtisadi, həm də əxlaqi cəhətlərinə şamildir.

Əvvəldə qeyd etdiyimiz kimi, intizar həmişə iki prinsip üzərində qurulur: "inkar" və "isbat" prinsipləri. "İnkar" dedikdə, mövcud vəziyyətdən narahatçılıq hissi, "isbat" dedikdə isə vəziyyətin yaxşılaşmasının intizarı nəzərdə tutulur. Bu iki prinsipin inkişafı iki mütənasib fikrin formalaşmasına səbəb olacaqdır: 1) zülm və haqsızlığa qarşı ikrah, hətta onlarla mübarizə hissi; 2) vahid ədalətli bir hökumətin təşkili üçün cismi və ruhi, maddi və mənəvi hazırlıq hissi.

"İntizar"la "cahanşümul inqilab" məfhumlarının tərkibi qeyd etdiklərimizi tamamilə aydınlaşdırır. Yəni belə bir inqilabın intizarında olanlar öz iddialarında sadiqdirlərsə, mütləq onlarda aşağıdakı təsirlər aşkar olunmalıdır:

### *1. FƏRDİ İSLAHAT*

Cahanşümul hakimiyyət hər şeydən öncə insani dəyərlərə ehtiyac duyur ki, ümumdünyəvi islahatın ağır məsuliyyətini çəkə bilsin. Belə böyük bir proqramın icrasında həmkarlıq üçün mütləq elmi dərəcə, yüksək məlumat, ruhi və fikri hazırlıq tələb edir. Dardüşüncəlik, ümumiyyətlə, hər növ irtica həqiqi intizarla uyğun gəlmir. Əsas məsələ budur ki, həqiqi intizar çəkənlər belə bir mühüm proqramda heç vaxt tamaşaçı rolunu ifa edə bilməz və elə indidən inqilabçılar sırasına qoşulmalıdır.

Əgər mən özüm əyri işlərə əl atıramsa, necə düzgün bir nizamın intizarını çəkə bilərəm?!

Görəsən, bu intizarın özü ruhi, fikri və cismi çirkinliklərdən təmizlənib saflaşma üçün kifayət deyildirmi? Azadlıq uğrunda mübarizə intizarı çəkən ordu tam hazır vəziyyətdə olmalı, hərbiçilərin hazırlığı

və ruhiyyələrini gücləndirməli, fədakarlıq hissini dirçəltməlidir. Belə hazırlığa malik olmayan ordu heç vaxt intizardan danışa bilməz.

Dünyanı hidayət edəcək bir islahatçının intizarını çəkmək fikri, əxlaqi, maddi və mənəvi cəhətdən tam hazırlıq tələb edir ki, bu hazırlığın bir çox müsbət təsirləri vardır. Bütün yer üzünü islah etmək, zülm, təfriqə və ixtilafa son qoymaq isə asan və sadə bir iş deyil. Belə bir inqilabı həyata keçirmək üçün şücaətli, dərrakəli, ağıllı, dərin düşüncəli, tam hazırlıqlı, söz və əməlində doğru olan şəxsiyyətlər lazımdır. Belə böyük hədəf üçün insanın dərin əxlaqi, fikri və ictimai cəhətdən islahı lazımdır. Həqiqi intizarın mənası məhz budur və kimsə onun irtica olduğunu deyə bilməz!

### *2. İCTİMAİ HAZIRLIQ*

Həqiqi intizar fərdi islahat tələb etdiyi kimi, ictimai birliyi qorumağı, ümumi islahatı da qarşıya məqsəd qoyur. Çünki intizarı çəkilən o böyük hadisədə bütün inqilabi qüvvələr iştirak edəcək, hamı bir məqsəd üçün çalışacaq. Hamının əlbir olduğu mübarizə meydanında heç kim yoldaşının vəziyyətindən qafil ola bilməz. Hər kəs hər yerdə zəif bir nöqtə görsə, onu islah etməyə cəhd göstərməlidir. Mübarizlərin fəal iştirakı olmadan belə bir proqramın icrası qeyri-mümkündür. Demək, həqiqi intizar üçün fərdi islahla yanaşı ictimai islah və hazırlıq da zəruridir. Bu da böyük islahatçının qiyamı intizarının başqa bir müsbət təsiridir!

### *3. HƏQİQİ İNTİZARÇILAR ÇİRKİNLİKDƏN UZAQDIR!*

Fitnə-fəsad, çirkinliklər ictimai forma aldıqda, cəmiyyəti özünə doğru çəkir, bəzən pak insanları belə, ruhi sıxıntıya, ümidsizliyə düçar edir. Bəzən də elə fikirləşirlər ki, artıq iş-işdən keçmişdir. Əsla islahata ümid yeri yoxdur və özlərini də pak saxlamaq üçün çalışmaq faydasızdır. Bu ümidsizlik onları yavaş-yavaş fitnə-fəsada, çirkin mühitə doğru çəkə bilir və əksəriyyətə hakim kəsilən çirkin mühitin müqabilində azlıq təşkil edərək qorunmaq onlar üçün çətinləşir. Bəzən də camaatla həmrəng olmağa üstünlük verirlər.

Amma onlarda ümid və müqavimət hissini yaşada biləcək yeganə amil, mütləq vaqe olacaq islaha ümidvar olmaqdır. Onlar yalnız belə bir ümidlə özlərinin və başqalarının islahına ümidvar ola bilərlər.

İslam göstərişlərində ümidsizlik ən böyük günahlardandır. Bu məsələyə böyük əhəmiyyət verildiyini görürüksə, bunun səbəbi Allahın mərhəmətindən naümid olan günahkar şəxsin günahını yumaq, heç olmazsa, günahdan çəkinmək fikrinə düşməməsilə əlaqədardır. O fikirləşir ki, mən onsuz da cəhənnəmə gedəcəyəm. Bəs nə üçün dünyada qəm-qüssə çəkməliyəm?! İslanmışın yağışdan nə qorxusu!

Amma onun üzünə Allahın əfv və məğfirəti, ümid səhifələri açıldıqda, həyatı tamamilə dəyişir. Onda günahdan uzaqlaşmağa, paklıq və islaha doğru şövq yaranır. Buna görə də ümid hissi belə insanlar üçün həmişə psixoloji-tərbiyəvi əhəmiyyət daşıyır. Eləcə də,

çirkin mühitdə yaşayan saleh insanlar belə ümidsiz paklığı qoruya bilməzlər.

Hazırda dünya çirkinliyə, fitnə-fəsada doğru nə qədər sürətlə gedirsə, imam Mehdinin (ə) zühuruna ümid bir o qədər artır. Ona inananların fəsad və çirkinliyin tufanları qarşısında müqaviməti möhkəmlənir. Mühit nə qədər aludə olsa belə onlar naümid olmur, üstəlik hədəfə daha yaxın olduqlarını görür, fəsadla mübarizədə, yaxud paklıq üçün sonsuz eşq və şövqlə çalışırlar.

***

Ötən bəhslərdən belə nəticəyə gəldik ki, intizarın viranedici olması təsəvvürü yalnız onun məfhumunun təhrifi ilə yaranır. Necə ki, qədimdən təhrif əlləri ona doğru uzanmışdır. Onun həqiqi məfhum və mənası ictimai-fərdi islahatın, tərbiyə və təşviqin əsasını təşkil edir. Bu məsələyə əvvəldən obyektiv yanaşan Quranın özü olmuş və bu haqda “Nur” surəsinin 55-ci ayəsində buyurulmuşdur:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُم فِي الْأَرْضِ كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِن قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَى لَهُمْ وَلَيُبَدِّلَنَّهُم مِّن بَعْدِ خَوْفِهِمْ أَمْنًا يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا

***“Allah aranızdan iman gətirib saleh işlər görənlərə – yalnız Mənə ibadət edər və heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, möminlər üçün Özü bəyəndiyi dini möhkəmləndirəcəyini və onların qorxusunu əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini vəd etmişdir!”***

Böyük İslam rəhbərlərindən nəql olunan bir çox rəvayətlərə əsasən, bu ayədə işarə olunmuşlar imam

Mehdi (ə) və onun yaxınlarıdır.[1] Başqa bir hədisdə isə deyilir: "Bu ayə Mehdi (ə) haqqında nazil olmuşdur!"

Bu ayədə imam Mehdi (ə) və onun yaxınları "iman gətirən və saleh iş görənlər" kimi tanıtdırılmışdır. Beləliklə, cahanşümul bir inqilabın həyata keçməsi hər bir süstlük və nöqsandan uzaq olan möhkəm iman və dünyəvi islahı təmin edə biləcək saleh əməllər olmadan qeyri-mümkündür. Belə bir proqram üçün həm yetkin bilik, həm güclü iman, həm də saleh əməl lazımdır. Yalnız bu xüsusiyyətlərə malik olanlar özlərinə bəşəriyyətin xilaskarının islahatlarında iştirakla müjdələyə bilər. Zülm və haqsızlıq yolu seçib, iman və saleh əmələ biganə qalanlar, iman zəifliyinə görə hətta öz kölgələrindən qorxanlar, cəmiyyətdən uzaqlaşaraq əllərini əllərinin üstünə qoyub tamaşa edənlər və haqq uğrunda mübarizəyə qoşulmayanlar verilən həmin vəd və müjdələrdən məhrumdurlar!

Budur imam Mehdinin (ə) intizarının müsbət təsiri!

*1. "Biharul-ənvar", qədim çapla 13-cü cild, səh. 14.*

# İSLAM MƏNBƏLƏRİNDƏ DÜNYANIN BÖYÜK XİLASKARI



## *BÖYÜK XİLASKARIN XÜSUSİYYƏTLƏRİ*

Ötən fəsillərdə zülm və fəsadın kökünü kəsmək üçün zühur edən dünyamiqyaslı bir inqilab və onun reallığının məntiq və fitrətlə uzlaşması haqqında geniş söz açdıq. Bu zəmində əqli dəlillər ümumi xarakter daşısa da, onun təfərrüatı, xüsusən, böyük inqilab rəhbərinin kimliyinin araşdırılması bu yolla qeyri-mümkündür.

Bəşər tarixində baş verəcək ən böyük inqilab rəhbərinin aşağıdakı spesifik xüsusiyyətlərə malik olması zəruriyyətini bilmək kifayətdir:

1. Geniş və əhatəli məlumat;
2. İnsaniyyət aləminin genişliyi qədər misilsiz uzaqgörənlik;
3. İnqilabın bütün sahələri ilə ətraflı tanışlıq;
4. Hədsiz şücaət və iradə;
5. Hədəfinin əzəməti qədər təqva, sədaqət və paklıq;
6. Həyatın bütün sahələrini nəzərə almaq və yalnız maddi cəhətlə kifayətlənməmək;
7. Ayrı-seçkilik, şəxsi mənafe, düşmənçilik, mövcud adət-ənənə, məktəb və məsləklərin fövqündə duran geniş ruhiyyə.

Qeyd edilən xüsusiyyətlərə sahib olan rəhbərin ordusundakı inqilabçı əsgərlərinin də bu böyük islahatın gerçəkləşməsi üçün ali təhsil alması zəruridir.

Nadanlar, dardüşüncəli, qorxaq, iradəsiz və çirkinliklərə qurşananlar, həmçinin qeyri-inqilabi qüvvələr bu orduya yol tapa bilməyəcəklər!

Biz burada ümumi bəhsimizi sona yetirərək İslam mənbələrində dünyanın böyük xilaskarı kimi tanınan şəxsin zühuru ilə əlaqədar araşdırmalara başlayırıq. Onun zühuru ilə bağlı, təqribən, bütün dünya məzhəblərinin mənbələrində söz açılmasına baxmayaraq, İslamda ona və təfərrüatına verilən əhəmiyyət digər məzhəblərin heç birində gözə dəymir. Diqqəti cəlb edən məsələ bu zəmində İslam mənbələrində göstərilənlərin "məntiq və fitrət" vasitəsilə sübut olunanlarla tam üst-üstə düşməsidir və bu uyğunluğun iki təsiri vardır: bir tərəfdən, bizim əqli hökmlərə inancımızı artırır, digər tərəfdən də, bizi İslam təlimlərinin əsillik və doğruluğuna nikbin edir.

### *QURANİ-KƏRİMDƏ BÖYÜK XİLASKAR*

İslamın ən mühüm mənbəyi olan Qurani-Kərimin digər mövzular kimi bu mövzu ilə bağlı göstərişləri də ümumi xarakter daşıyır və onun təfərrüatından söz açılmır. Başqa sözlə, Quran ayələri eynilə əqli dəlillər və fitrətdə göstərilənləri izləyir və iman sayəsində dünyamiqyaslı ədalətli hakimiyyətin gerçəkləşəcəyindən söz açır. Biz burada həmin ayələrdən bir neçəsini nəzərdən keçiririk:

1. "Ənbiya" surəsinin 105-106-cı ayələrində buyurulur:

**وَلَقَدْ كَتَبْنَا فِي الزَّبُورِ مِن بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِيَ الصَّالِحُونَ إِنَّ فِي هَذَا لَبَلَاغًا لِّقَوْمٍ عَابِدِينَ**

***"Həqiqətən, biz Zikrdən (Tövratdan) sonra Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin sahib olacağını yazmışdıq. Həqiqətən, bu sözdə ibadət edən bir qövm üçün***

***moizə, öyüd-nəsihət var!"***

Ayədə qeyd olunan bir neçə ifadə diqqəti cəlb edir:

1. "Ərz" yer kürəsinə deyilir.

2. "İrs" lüğətdə ticarətsiz əldə olunan mal mənasını verir. Qurani-Kərimin bəzi ayələrində isə bu söz saleh qövmün günahkar qövmə qələbəsi və hakimliyi, onların malik olduqlarını ələ keçirməsi mənasında işlədilmişdir.

3. "Zəbur" əslində kitab və yazı mənasını daşısa da, adətən, Davud peyğəmbərin "Məzamir" adlı kitabına aid edilir. Bu kitabda o həzrətin münacatları, raz-niyaz və nəsihətlərindən söz açılır. Bir ehtimala əsasən, Qurani-Kərimdən əvvəl nazil olmuş bütün səmavi kitablar "Zəbur" adlanır.

4. "Zikr" əslində xatırlayan və yada salan hər bir şeyə deyilir. Amma uyğun ayədə "Zəbur"dan öncə qeyd olunduğu üçün, Musa peyğəmbərin səmavi kitabı – Tövrat nəzərdə tutulur. Digər təfsirə əsasən, "Zikr" Qurani-Kərimə işarədir. Çünki ayələrdə bu ad Qurani-Kərimin özünə verilir və buyurulur:

إِنْ هُوَ إِلَّا ذِكْرٌ لِّلْعَالَمِينَ

***"O, (Quran) aləmlər üçün ancaq bir öyüd-nəsihətdir."***[1]

Bu təfsirə əsasən, ayədə qeyd olunan "min bədiz-Zikr" ifadəsi "Zikrdən əlavə" mənasını daşıyacaqdır. (Həqiqətən, biz Zikrdən (Qurandan) əlavə, Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin sahib olacağını yazmışdıq.)

5. "Saleh" səlahiyyətli və ləyaqətli mənasını bildirir və mütləq şəkildə qeyd edildikdə, hər bir sahədə səlahiyyətli olmağa aid edilir; elmi səlahiyyət, əxlaqi səlahiyyət, iman, təqva, agahlıq, müdiriyyət və s.

*1. "Təkvir" surəsi, ayə 27.*

Nəticədə, ayənin mənası belədir: "Həqiqətən, biz Zikrdən (Tövratdan) sonra (və yaxud Qurani-Kərimdən əlavə,) Zəburda da yer üzünə yalnız Mənim saleh bəndələrimin sahib olacağını yazmışdıq. Həqiqətən, bu söz ibadət edən (Allah yolunda qədəm götürən) qövmün hədəflərinə çatması üçün kifayətdir!"

Bu məsələnin "Zəbur"da (yəni bütün keçmiş səmavi kitablarda) qeyd edilməsi onun bütün səmavi kitablarda sabit bir prinsip olduğunu aşılayır. "Zəbur" dedikdə, Davud peyğəmbərin kitabı nəzərdə tutulsa da, məqsəd o həzrətin hakimiyyətinin haqq-ədalət və insanların mənafeləri istiqamətinə yönəlməsidir. Onun hakimiyyəti bütün dünyanı əhatə etməsə də, Zəburda ona azadlıq, əmniyyət və ədalət əsasında qurulacaq cahanşümul hakimiyyət müjdəsi verilmişdi. Yəni bir zaman gələcək ki, Allahın saleh və səlahiyyətli bəndələri yer üzünün bütün miraslarına – həm maddi, həm də mənəvi hakimiyyətə – varis olacaqlar.

Bu ayənin təfsiri ilə bağlı nəql olunan bir sıra rəvayətlərdə daha aydın ifadələr də göz çarpır. O cümlədən, "Məcməül-bəyan" kitabında həmin ayənin təfsirilə bağlı imam Baqirdən (ə) belə nəql olunur:

هم اصحاب المهدى فى آخر الزّمان

*"Allahın saleh bəndələri axirəz-zamanda Mehdinin (ə) səhabələri olacaqlar."* Onlar bu böyük missiyaya layiq görüləcək və yer üzünün varisi olacaqlar.

Bu məsələ "Əhdi-Qədim" (Tövrat) kitabını bir hissəsini təşkil edən Davud peyğəmbərin "Məzamiri" kitabında fərqli ifadələrlə qeydə alınmışdır. Məsələn, "otuz yeddinci məzmur"da belə deyilir: "Şər insanların nəsli kəsiləcək və

Allaha təvəkkül edənlər yer üzünə sahib olacaqlar. Bilin ki, az müddətdən sonra şər insanlar olmayacaq və onları məkanlarında görməyəcəksən. Amma hikmət sahibləri yer üzünün varisinə çevriləcəklər."

"Otuz yeddinci məzmur"un digər bir yerində başqa ifadələrlə belə deyilir: "Allahın bərəkətli bəndələri yer üzünə sahib olacaqlar. Amma Onun lənətinə gələnlərin nəsli kəsiləcək. Doğruçular yer üzünün varisi olacaq və orada əbədi yaşayacaqlar."

Göründüyü kimi, Qurani-Kərimdə buyurulan "salihun" (saleh bəndələr) ifadəsi geniş məna daşıyır və hikmət sahibləri, doğruçular, Allaha təvəkkül edənlər və bərəkətli bəndələrə də şamildir.

Qeyd etdiyimiz kimi, إِنَّ فِي هَٰذَا لَبَلَاغًا لِّقَوْمٍ عَابِدِينَ *(Həqiqətən, bu söz ibadət edən bir qövmün hədəflərinə çatması üçün kifayətdir!)* – ifadəsindən anlaşılır ki, yer üzünə hökmranlıq saleh bəndələrin axırıncı hədəfi deyil, əksinə onların sonuncu hədəfə, yəni insanın hər bir sahədə təkamülə çatması üçün bir vasitədir. "Bəlağ" sözü də "insanı hədəfə çatdıran vasitə" mənasını bildirir.

### *ALLAHIN YER ÜZÜNDƏ NÜMAYƏNDƏSİ*

2. "Nur" surənin 55-ci ayəsində buyurulur:

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُم فِي الْأَرْضِ
كَمَا اسْتَخْلَفَ الَّذِينَ مِن قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَى لَهُمْ
وَلَيُبَدِّلَنَّهُم مِّن بَعْدِ خَوْفِهِمْ أَمْنًا يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا

***"Allah aranızdan iman gətirib saleh işlər görənlərə – yalnız Mənə ibadət edər və heç nəyi Mənə şərik qoşmazlar deyə – onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, möminlər üçün Özü bəyəndiyi dini***

***möhkəmləndirəcəyini və onların qorxusunu əmin-amanlıqla, arxayınçılıqla əvəz edəcəyini vəd etmişdir!"***

Bu ayədə açıq-aydın saleh və yaxşı iş görən möminlərə üç vədə verilir.

Bildiyimiz kimi, hər vəd üç ünsürdən ibarətdir: 1. Vəd edən – Allahdır. 2. Vəd alan – saleh möminlərdir. 3. Vədin maddələri – üç maddədən ibarətdir:

1. Allahın nümayəndəsi olaraq yer üzünə hakimlik, yəni ədalətli hakimiyyət;

2. Dinin möhkəmləndirilməsi, yəni ilahi qanunların hakimliyi.

3. Qorxunun əmin-amanlıqla əvəz edilməsi, yəni bütün qorxu amillərinin, hərc-mərcliyin aradan qaldırılması və yer üzünə asayişin hakim olması.

"Dinin möhkəmləndirilməsi" dedikdə, ilahi təlimlərin əsaslı şəkildə həyatın bütün sahələrinə nüfuzu nəzərdə tutulur. O zaman İslam dini hər tərəfə yayılacaq və Allahın bəndələri azad şəkildə ibadətlə məşğul olacaqlar. O zaman agahlıq və məsuliyyət hissi ümumbəşəri xarakter daşıyacaq, şəxsi mənafe düzgün qəzavətə mane olmayacaq. Təəssüflər olsun ki, günümüzdə insan hüquqlarından dəm vuranlar beynəlxalq təşkilatların tribunalarından elə həyəcanla danışırlar ki, ağızlar təəccübdən açıq qalır. Hətta insan hüquqları ilə bağlı qətnamələri (onların heç birinə əməl etmədikləri halda) naqis və qeyri-kafi hesab edir, insan hüquqları təşkilatlarının başçıları da onlara əl çalırlar. Çünki onlar bir-birilə dostdurlar və onlarsız mənafeləri təhlükədədir.

Bir sözlə, verilən üç ilahi vədin nəticəsində insan hərtərəfli təkamülə çatacaq, Allaha xalis bəndəçilik sayəsində bütlərə edilən bütün sitayişlərə son qoyulacaq

və **يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا** ***"Onlar Mənə ibadət edər, heç nəyi Mənə şərik qoşmazlar"*** – ayəsi həqiqi mənada öz əksini tapacaqdır.

Burada sözügedən ayənin nazilolma səbəbi ilə bağlı təfsirçilərin bir sıra qeydlərinə nəzər salmağımız yerinə düşərdi:

Bəzi təfsirçilərin qeydlərinə əsasən, bu ayə nazil olduğu zaman Peyğəmbərin (s) səhabələri Mədinəyə hicrət etmişdilər. Yeni bir hərəkat başlanmış, xurafat, zülm, haqsızlıq, cəhalət və ayrı-seçkiliklə dolu keçmiş cəmiyyət rəhbərlərinin canını qorxu bürümüşdü. Hər tərəfdən müxalifət bayraqlarının qalxmasına baxmayaraq, ilahi hərəkatın fədakar nümayəndələri yeni dinin parlaq təlimlərindən bəhrələnməklə insanları həmin dinə dəvət edirdilər. Haqq carçılarının səsi isə müxalif qüvvələrin səs-küyü arasında itib-batırdı. Peyğəmbər (s) və müsəlmanlar Mədinəyə hicrət etdikdən və "ənsar" zümrəsi onları gülərüzlə qarşıladıqdan sonra bütün ərəblər onların əleyhinə qalxdılar. Hətta müsəlmanlar məcburiyyət qarşısında qalaraq özləri ilə həmişə silah gəzdirir, gecəni silahla yatır və sübhü silahla açırdılar. Odur ki, bəziləri mövcud vəziyyətdən gileylənir və "Bu vəziyyət nə vaxta qədər davam edəcək? Elə bir vaxt gələcəkmi ki, gecəni rahat yataq, Allahdan başqa, heç kəsdən qorxmayaq?!" – deyə bir-birindən soruşurdular. Bu zaman həmin ayə nazil oldu və onları belə bir xəbərlə müjdələdi.

İslam tarixində göstərilir ki, Peyğəmbərin (s) bütün Ərəbistan yarımadasına tamamilə qələbə çalması ilə həmin gün gəlib çatdı.

Ayənin nazilolma səbəbi nəzərə tamamilə təbii çarpsa da, Quran ayələrinin daşıdığı geniş məfhumu onların

nazil olduğu müəyyən bir zamana aid etmək olmaz, əksinə nazilolma səbəbləri ayələrin xarici nümunələrinin bir hissəsini təşkil edir. İslam Peyğəmbərinin (s) ömrünün sonlarında bu ayənin geniş mənasının bir hissəsi gerçəkləşsə də, sonralar düşmənlərin caynaqları altına keçən İslam və müsəlmanları qorxu və dəhşət bürüdü. Bu dəhşət təkcə ərəb ölkələrini deyil, dünyanın əksər məntəqələrini əhatə etdi və düşmənlər bütün cəbhələrdə kəskin mövqe tutdular. Hələ də, bütün dünyada şirk və bütpərəstliyi tövhid, zülm və haqsızlığı təhlükəsizlik və əmin-amanlıqla əvəz edəcək cahanşümul İslam hakimiyyəti gerçəkləşməmişdir və mütləq onun intizarını çəkmək lazımdır. Bu böyük hadisə "mütəvatir" rəvayətlərə əsasən, imam Mehdinin (ə) zühur və inqilabı ilə həyata keçəcəkdir. Lakin bu ayə nisbi olaraq İslam Peyğəmbəri (s) zamanı və ona yaxın olan dövrlərə də şamil olur. Bu isə geniş miqyasda imam Mehdinin (ə) zühurundan sonra baş verəcəkdir. Burada əsla ziddiyyət yoxdur və bunlar ilahi vədlərin müxtəlif zamanlardakı təzahürləridir. Odur ki, rəvayətlərdə bu ayə imam Mehdinin (ə) qiyamı ilə bağlı izah edilir. Görkəmli təfsir alimi Təbərsinin "Məcməül-bəyan" kitabında imam Səccaddan (ə) belə nəql olunur:

**هم واللّه شيعتنا اهل البيت يفعل اللّه ذلك بهم على يدى رجل منّا و هو مهدى هذه الامّه؛**

*"Allaha and olsun! Onlar bizim şiələrimizdir. Allah-Taala bunu bizdən olan bir şəxsin vasitəsilə həyata keçirəcək. O, bu ümmətin Mehdisidir."*

Təbərsi bu rəvayətin məzmununu həm imam Baqir (ə), həm də imam Sadiqdən (ə) nəql etdikdən sonra belə yazır:

“Ayə mütləqdir və bütün yer üzünün xəlifəliyinə aiddir. Allahın vədi hələ real həyatda gerçəkləşmədiyindən, onun intizarında olmalıyıq.”

“Bürhan” kitabında imam Baqir (ə) və imam Sadiqdən (ə) ayənin imam Mehdinin (ə) qiyamına aid olması ilə bağlı müxtəlif rəvayətlər nəql edilmişdir.

Diqqətinizə çatdırırıq ki, ayədə qeyd olunan “minkum” (sizin aranızdan) ifadəsi cahanşümul inqilab üçün şərait yaradan imanlı və saleh insanların say azlığını aşılayır.

3. “Tövbə” surəsinin 33-cü ayəsində buyurulur:

هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ

***“Müşriklərin xoşuna gəlməsə də, bütün dinlər üzərində qələbə üçün Peyğəmbərini doğru yol və haqq dinlə göndərən Odur!”***

Bu ayənin mənasının anlaşılması üçün ondan əvvəlki ayənin mənasına diqqət yetirməliyik. Həmin ayədə buyurulur:

يُرِيدُونَ أَن يُطْفِؤُواْ نُورَ اللّهِ بِأَفْوَاهِهِمْ وَيَأْبَى اللّهُ إِلاَّ أَن يُتِمَّ نُورَهُ وَلَوْ كَرِهَ الْكَافِرُونَ

***“Onlar (düşmənlər) Allahın nurunu batil sözləri ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, yalnız Öz nurunu tamamlamaq istəyir.”***

Bu ayədə Allah-Taala İslam nurunun təkamülə çatacağı və onun digər dinlərə qalib gələcəyini vəd etmişdir. Onun həqiqi təkamülü isə dünyanı tamamilə işıqlandıracağı zamandır.

Allah-Taala bu ayədən sonra həqiqəti daha şəffaf çatdırmaq üçün buyurur: “Müşriklərin xoşuna gəlməsə

də, bütün dinlər üzərində qələbə üçün Peyğəmbərini doğru yol və haqq dinlə göndərən Odur!"

Bu vəd azacıq fərqlə "Fəth" surəsinin 28-ci ayəsində də təkrar olunur:

هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَكَفَى بِاللَّهِ شَهِيدًا

***"Onu bütün dinlərə qalib etmək üçün Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur! (Bu böyük vədə) şahidlik üçün Allah kifayətdir."***

Nəhayət, "Səff" surəsinin 9-cu ayəsində də ("Tövbə" surəsinin 33-cü ayəsində işlənən ifadələr kimi) bu böyük vədə bir daha işarə olunaraq buyurulur:

هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ

***"Müşriklərin xoşuna gəlməsə də, bütün dinlər üzərində qələbə üçün Peyğəmbərini doğru yol və haqq dinlə göndərən Odur!"***

Bu ayələrdən ilahi vədin böyük əhəmiyyət daşıdığı icmalən anlaşılır.

Burada mühüm məsələ ayədə qeyd olunan "li yuzhirəhu" (onu qalib etmək üçün) ifadəsinin mənasıdır.

Əvvəla, "li yuzhirəhu" ifadəsindəki şəxs əvəzliyi İslam Peyğəmbərinə qayıdır, yoxsa haqq dinə?

Birinci halda ayə İslam Peyğəmbərinin (s), ikinci halda isə İslamın bütün dinlərə qələbəsi mənasını daşıyacaq. Lakin "li yuzhirəhu" ifadəsinə "haqq din" ifadəsi yaxın olduğundan, ədəbi qaydalara əsasən, əvəzliyin ona aid edilməsi daha düzgün nəzərə çarpır. (Nəticə etibarilə isə elə bir fərq yoxdur.) Bununla yanaşı, "bir dinin digər

dinlərə qələbəsi" "bir şəxsin dinlərə qələbəsi" ifadəsindən daha münasib görünür.

İkincisi, "zühur" sözündə məqsəd nədir? Şübhəsiz, "zühur" sözü ayədə "aşkar olmaq" mənasını yox, "qələbə" mənasını daşıyır. Bu isə, həmin sözün məşhur mənalarından biridir. Məşhur lüğət mənbələrindən sayılan "Qamus", eləcə də, Rağibin "Müfrədat" kitabında "zühur" sözü elə həmin mənada işlədilmiş, həmçinin Qurani-Kərimin "Mumin", "Kəhf" və "Tövbə" surələrində də eyni mənada istifadə olunmuşdur. "Tövbə" surəsinin 8-ci ayəsində buyurulur:

كَيْفَ وَإِن يَظْهَرُوا عَلَيْكُمْ لاَ يَرْقُبُواْ فِيكُمْ إِلاًّ وَلاَ ذِمَّةً

***"Onların əhd-peymanının necə dəyəri olsun? Əgər onlar sizə qalib gəlsələr, nə sizinlə qohumluğu gözləyər, nə də bir əhdə əməl edərlər."***

"Mumin" surəsinin 29-cu ayəsində buyurulur:

يَا قَوْمِ لَكُمُ الْمُلْكُ الْيَوْمَ ظَاهِرِينَ فِي الْأَرْضِ...

***"Ey qövm! Bu gün hakimiyyət sizindir. Yer üzündə qalib olanlar da sizsiniz..."***

"Kəhf" surəsinin 20-ci ayəsində buyurulur:

إِنَّهُمْ إِن يَظْهَرُوا عَلَيْكُمْ يَرْجُمُوكُمْ...

***"Həqiqətən, onlar sizi ("Kəhf" səhabələrini) ələ keçirsələr, daşqalaq edəcəklər..."***

İndi isə İslamın bütün dinlərə qalib gəlməsinin necə başa düşülməsinə nəzər salaq. Bu barədə təfsirçilər üç cür təfsir irəli sürmüşlər:

1. Məqsəd məntiqli qələbədir, yəni İslamın mahiyyəti digər dinlərlə müqayisədə dolğun və idealdır. İslamı xurafatlarla qarışmış digər dinlərlə müqayisə edərkən

onun məntiqinin digər dinlərin məntiqinə qalib gəldiyi aşkar olunur.

Allahın bu vədi həyatda gerçəkləşmişdir və hətta İslamın "azan" adlı şüarının digər dinlərin şüarları ilə müqayisəsi onun məntiqi qələbəsini daha da aydınlaşdırır.

2. Məqsəd İslamın bəzi məntəqələrdəki dinlər üzərində üstünlüyüdür.

Allahın bu vədi də gerçəkləşmişdir. Çünki Peyğəmbərin (s) dövründə İslam Ərəbistan yarımadası, ondan sonra da dünyanın böyük bir hissəsinə hakim oldu və onun hökmranlığı Çindən tutmuş Atlantik okeanının sahillərinə qədər ərazini əhatə etdi. Bir sözlə, dünyanın böyük bir hissəsi İslama baş əydi və hətta, həmin məntəqələrdə İslam hakimiyyətinə son qoyulduqdan sonra da, bir məktəb olaraq öz varlığını qorudu.

3. Məqsəd İslamın bütün dünyaya xarici (mədəni, siyasi və iqtisadi) qələbəsidir. Bu təfsiri bəzi şiə və əhli-sünnə təfsirçiləri də qəbul etmişlər.

Şübhəsiz, bu vəd hələ həyatda gerçəkləşməmiş və imam Mehdinin (ə) zühuru və inqilabı ilə hasil olacaqdır. O zaman bütün dünyaya haqq-ədalət hökm sürəcək və İslam dini dünya miqyasında bütün dinlərə qələbə çalacaqdır.

Bəzi şahidlər üçüncü təfsirin digər təfsirlərə üstünlüyünü sübuta yetirir:

1. "Zühur" sözündəki qələbədə zehni qələbə deyil, hissi və xarici qələbə nəzərdə tutulur. Qurani-Kərimin heç bir yerində "zühur" sözü zehni qələbə mənasında işlənməmişdir. Əksinə, qeyd edilən bütün ayələrə diqqət yetirdikdə, onun hissi və xarici qələbə mənasında işləndiyini görürük.

2. Təkid məqsədilə işlənən "kullihi" sözündən İslam dininin müəyyən bir məntəqəyə deyil, bütün dinlər və məzhəblərə qələbəsi anlaşılır. Bu da İslamın bütün dünyada yayılması ilə mümkündür!

3. Uyğun ayənin təfsirində nəql olunan rəvayətlər üçüncü təfsiri təsdiqləyir. Nümunə olaraq aşağıdakı rəvayətlərə nəzər salaq:

1. Əyyaşi öz silsilə sənədləri ilə İmran ibn Meysəmin Əbayədən bel nəql etdiyini yazır: "İmam Əli (ə) **هُوَ الذي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِ لِيُظْهِرَهُ عَلى الدين كُله وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ** ***(Müşriklərin xoşuna gəlməsə də, bütün dinlər üzərində qələbə üçün Peyğəmbərini doğru yol və haqq dinlə göndərən Odur!")*** – ayəsini tilavət etdikdən sonra öz səhabələrindən "Bu qələbə hasil olubmu?" – deyə soruşduqda, cavab verdilər: "Bəli!" Həzrət buyurdu:

**كلّا فوالّذى نفسى بيده حتّى لايبقى قرية الّا و ينادى فيها بشهادة ان لا اله الّا اللّه بكرة و عشيّاً؛**

*"Xeyr, canım əlində olan Allaha and olsun ki, bu qələbə səhər-axşam "La ilahə illəllah" (Allahdan başqa bir məbud yoxdur) səsi bütün abadlıqlarda ucaldığı zaman gerçəkləşəcəkdir."*[1]

2. İmam Baqir (ə) buyurur:

**انّ ذلك يكون عند خروج المهدى من آل محمّد فلا يبقى احدا الّا اقر بمحمّد صلى الله عليه و آله و سلم؛**

*"Bu qələbə Məhəmmədin (s) övladlarından olan Mehdinin (ə) qiyamı zamanı hasil olacaq. O zaman dünyada Məhəmmədi (s) qəbul etməyən bir şəxs olmayacaq."*[2]

---

1. *"Məcməül-bəyan", "Səff" surəsinin 9-cu ayəsinin təfsiri.*
2. *"Təfsiri-Bürhan", 2-ci cild, səh. 121.*

3. Miqdad ibn Əsvəd Peyğəmbərdən belə eşitdiyini nəql edir:

**سمعت رسول اللّه صلى الله عليه و آله و سلم يقول لا يبقى على ظهر الارض بيت مدر و لا و بر الّا ادخله اللّه كلمة الاسلام؛**

*"Yer üzündə daşdan, yaxud palçıqdan (tikilmiş) elə bir ev qalmayacaq ki, Allah-Taala İslamı o evə daxil etməsin!"*[1]

Bu məzmunda digər rəvayətlər də nəql olunmuşdur ki, qeyd olunanlarla kifayətlənirik.

### *ƏHLİ-SÜNNƏNİN HƏDİS MƏNBƏLƏRİNDƏ BÖYÜK XİLASKAR*

Burada öncə iki mətləbi qeyd etməyi zəruri hesab edirik:

1. Bəziləri soruşurlar ki, əlimizdə Qurani-Kərim olduğu halda, hədis və rəvayətlərə nə ehtiyac var? Hər bir şey Qurani-Kərimdə bəyan olunduğu halda, bizim də "Allahın kitabı bizə kifayətdir!" – deyənlərin sırasına qoşulmağımızın nə eybi var?

Nəzərinizə çatdırırıq ki, səhih və düzgün hədislərin arasında saxta hədislərin olması onların da etibarsızlığına səbəb olmuşdur. Qurani-Kərimə əməl edən müsəlman şəxs səhih İslam hədislərinə etinasız yanaşa bilməz. Çünki:

Birincisi, səhih sünnə və hədisi dananlar həqiqətdə Qurani-Kərimi danmışlar. Qurani-Kərimdə İslam Peyğəmbərinin (s) söylədiyi kəlamların mötəbər mənbə və ona itaətin vacibliyi açıq-aşkar qeyd edilir. "Həşr" surəsinin 7-ci ayəsində buyurulur:

**...وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانتَهُوا...**

---

*1. "Məcməul-bəyan", "Tövbə" surəsinin 33-cü ayəsinin təfsiri.*

***"...Peyğəmbər sizə nə verirsə (əmr edirsə), onu götürün (əməl edin), nəyi qadağan edirsə, ondan əl çəkin..."***

"Əhzab" surəsinin 36-cı ayəsində buyurulur:

وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ أَمْرِهِمْ...

***"Allah və Onun Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişi və qadına öz işlərində başqa yol seçmək yaraşmaz..."***

"Nisa" surəsinin 80-ci ayəsində buyurulur:

مَّنْ يُطِعِ الرَّسُولَ فَقَدْ أَطَاعَ اللّهَ وَمَن تَوَلَّى فَمَا أَرْسَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا

***"Peyğəmbərə itaət edən kəs, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki, səni onların üzərində gözətçi olaraq göndərməmişik."***

İkincisi, Qurani-Kərim İslamın əsas qanunları və ümumi göstərişləri ilə zəngindir və sünnəyə göz yumduğumuz təqdirdə, o, əməli yönünü itirəcək və icrası qeyri-mümkün olan zehni külliyyatdan başqa bir şey qalmayacaq. Çünki həmin ümumi qanun və göstərişlərin icra keyfiyyəti və təfərrüatı bütövlükdə sünnədə göstərilmişdir. İslam Peyğəmbərinin (s) vəfatından sonra nadan şəxslər o həzrətin buyurduğu hədislərin "Qurani-Kərimin ayələri ilə səhv düşməməsi" bəhanəsilə yazılmamasını təkid etsələr də, sonralar bu təfəkkür tərzinin yanlış olduğunu və Peyğəmbər (s) hədislərinin unudulduğu təqdirdə İslam göstərişlərinə əməl olunmayacağını anladılar. Bu səbəbdən dardüşüncəlikdən əl çəkərək hədis kitablarının yazılmasına icazə verdilər.

Üçüncüsü, Peyğəmbər hədislərində saxtakarlığa yol verərək onlarda dəyişikliklərin edilməsi həqiqət olsa da,

saxta və şübhəli hədislərin səhih hədislərdən seçilməsi o qədər də çətin məsələ deyil və "rical", "hədis" və "dirayə" elmi bu məsuliyyəti öz öhdəsinə götürmüşdür.

2. O, siyasətçi yox, inqilabçıdır!

Dünyada böyük bir islahat və inqilabın baş verəcəyi ilə bağlı verilən Quran ayələri, əqli və fitri dəlillərdə müəyyən bir şəxsdən söz açılmır və yalnız ümumi bir mövzu izlənilir. Şübhəsiz, digər inqilablar kimi bu inqilabın da güclü, şücaətli və elmli rəhbərə ehtiyacı vardır. Amma düşündürücü sual budur ki, görəsən, bu rəhbər dünya rəhbərləri kimi maddi cəmiyyətdən ola bilərmi? Yəni, ilk növbədə ictimai mövqelərini qorumaq və onun qorunmasına kömək edən müxtəlif siyasi və iqtisadi məktəblərə baş əymək, sonra isə xalqının mənafeyini güdmək məqsədində olan rəhbərlər arasından seçilə bilməzmi?

İyirmi il davam edən, milyonlarla insan tələfatı və milyardlarla sərvətin dağılmasına səbəb olan Vyetnam müharibəsi müasir kapitalist rejiminin öz mənafeyini qoruması naminə müharibəyə belə razı olduğunu sübut etdi. Hakim rəhbərlər bir-birinin ardınca dəyişilsə də, məqsədlər dəyişilmir və bu cür idarəçilik üsulu bir növ onların xarakterinə çevrilmişdir. Onların şüarı azadlıq olsa da, bunu yalnız özləri üçün istəyirlər. Bəzən öz mənafelərinə zidd olmadıqda, başqalarının da azadlığından danışırlar. Onlar öz maddi mənafelərinin təmini uğrunda müttəfiq olmuşlar və müqəddəs şüarları də məhz budur! Sanki öz aralarında əbədi bir müqavilə imzalamışlar! "İnsan hüquqları" və "insan azadlığı" kimi şüarlar, adətən, rəqiblərin mühakiməsi üçün bir fənddir. Amma öz dostlarından söz düşdükdə, bu fənd işləmir.

Görəsən, bu sayaq ictimai sistem və qüdrət sahibləri dünyada ədalət və azadlıq bayrağını ucalda bilərlərmi? Görəsən, qüdrət sahibləri arasında fərq varmı?

Kapitalist dövlətlərin zülm və haqsızlıqları gün kimi aydındır və bu barədə bəhsə ehtiyac yoxdur. Amma digər materialist dövlətlərə gəldikdə isə, onlar zəhmətkeş təbəqə arasında ədaləti bərpa etmək və sinifsiz cəmiyyət qurmaq üçün digər böyük qüdrətləri məhkum edir və bu işi yalnız bir neçə nəfərdən ibarət olan öz təşkilat rəhbərlərinə məxsus hesab edirlər. Bütün siyasi və iqtisadi hərəkatları idarə etmək məqsədilə minlərlə böyük-kiçik feodalı "proletariat" inqilabı kürəsində əridərək onlardan bir neçə böyük feodal düzəltmişlər. Daim təkamülə doğru irəliləyən bəşər beyninin məhsulu olan bir sıra metodları əbədi üsullar qəlibinə tökərək, sanki tarixi əvvəlki əsrdə dondurmuş və onun çarxını hərəkətdən saxlamışlar.

Bəzən rəqiblərini tədricən qüdrət səhnəsindən uzaqlaşdıran bir rəhbər dünya ləzzətlərinə elə qərq olur ki, insana Monqol xan kimi diktatorlar əfsanəsini xatırladır və yaxud Stalin kimi öz mövqeyini qorumaq naminə bir milyon iki yüz insanın ölümünə imza atır! Amma öldükdən sonra, hətta cəsədini bu qəbirdən o qəbrə daşıyır və adını hər yerdən silirlər, sanki elə bir adam yer üzündə yaşamırmış! Halbuki, həmin şəxs dünənə qədər zəhmətkeş təbəqənin azadlıq səngəri və müstəmləkəçilərin yeganə hamisi sayılırdı!

Bəzən, mənfəətlər naminə həmməslәkləri ilə şiddətli mübarizə aparır, qəddar düşmənləri ilə dostluq əlaqələri qurur və tənzimlədikləri əbədi üsulları yaddaşlardan silirlər! Son zamanlar isə bütün dünyaya hökmranlıq etmək istəyənlər Təhlükəsizlik Şurası və Birləşmiş

Millətlər Təşkilatının (BMT) qərar və qətnamələrinə qətiyyən əhəmiyyət vermir və deyirlər: "BMT hansı qərarı çıxarırsa-çıxarsın, bizim mənafeyimiz təmin olunmalıdır. Yalnız bizim mövqeyimiz dünyada kimin və hansı təşkilatın terrorçu olub-olmadığını ayırd edir..."

Görəsən, bu sayaq rəhbərlər dünyada ədalət bayrağını ucaldıb, bütün xalqlar və ölkələri onun altında yerləşdirə bilərlərmi?! Görəsən, materialist məktəblərindən bundan başqa, nəyinsə intizarını gözləmək olarmı? Şübhəsiz, cavab mənfidir! İstər kapitalist və sosialist materialistləri olsun, istərsə də marksist materialistləri![1]

Bu məktəblər arasında yalnız materializmin fövqündə duran, rəhbəri öz mövqeyinin qorunması haqda düşünməyən, yalnız öz xalqına bağlı, dünyaya məhdud materialist gözü ilə baxmayan, səmavi və dərin düşüncələrə sahib, çirkinlik və xətalardan pak olan bir məktəb humanizm proqramlarını dünya miqyasında icra etmək iqtidarına malikdir. Əlifbası müasir dünyamızı idarə edən materialist idarəçilik üsulu ilə fərqlənən belə rəhbər ilahi qanunlar sayəsində bəşəriyyəti tarixin təhlükəli aşırımlarından keçirib əmin-amanlıq vadisinə çatdıra bilər. "O kimdir və bu məqama kim sahib olacaq?" – sualının cavabına gəldikdə isə, bütün müsəlmanların etiqadına görə, onun adı Mehdidir!

### *MEHDİ KİMDİR?*

İstisnasız olaraq bütün İslam firqələri "axirəz-zaman"da Peyğəmbərin (s) sülaləsindən Mehdi adlı bir şəxsin zühur edib dünyanı haqq-ədalətlə dolduracağı

*1. Diqqət yetirməliyik ki, müəllif bu kitabı İran İslam İnqilabından əvvəl yazmış və SSRİ dağılmamışdan on il öncə "Marksizmin ömrünün sonu" adlı əsərini çapdan çıxarmışdır. (Naşir)*

barədə təsəvvürə malikdir. Peyğəmbərin (s) bu məsələ ilə bağlı buyurduğu rəvayətlər onların kitablarında nəql edilmiş, bu haqda şiə və sünni alimləri tərəfindən kitablar yazılmışdır. Həmin rəvayətlər müəyyən məzhəbə xas olmayaraq bütün İslam təhqiqatçıları tərəfindən qəbul edilən qəti və "mütəvatir" rəvayətlərdir. Hətta "vəhhabi" kimi ən təəssübkeş firqə də onu qəbul edir və bu hədislərin "mütəvatir" olduğunu təsdiqləyir.

Bu müddəanın sübutu neçə illər bundan öncə vəhhabilər və Səudiyyə dövlətinin himayəsi altında fəaliyyət göstərən "Ümumdünya İslam Əlaqələri Təşkilatı" tərəfindən imam Mehdinin (ə) zühuru ilə bağlı sorğunun cavabında verilən bəyanatdır.

Biz öncə həmin bəyanatın əsas mətləblərinin tərcüməsini, sonra isə tarixi yaddaşında saxlamaq, eləcə də, əlavə məlumat əldə etmək istəyənlər üçün ərəbcə mətnini qeyd edirik:

### *CANLI BİR SƏNƏD*

1976-cı ildə Keniyadan Əbu Məhəmməd adlı bir nəfər tərəfindən "Ümumdünya İslam Əlaqələri Təşkilatı"na vəd edilmiş Mehdinin zühuru ilə bağlı bir sual ünvanlanır. Cavab olaraq uyğun bəyanat verilir və həmin təşkilatın sədri Məhəmməd Saleh Qəzzazın imzası ilə də təsdiq edilir.

Bu bəyanatda Vəhhabi məzhəbinin təsisçisi İbn Teymiyyənin imam Mehdi ilə bağlı hədisləri qəbul etdiyi vurğulandıqdan sonra Hicazın beş məşhur alimi tərəfindən yazılan bir risalədən sitatlar gətirilir və həmin bəyanat həmin şəxsin ünvanına göndərilir.

Bu bəyanatda imam Mehdinin (ə) adı və zühur

məntəqəsi (Məkkə) qeyd edildikdən sonra belə yazılır:

"...Dünyaya fitnə-fəsad, zülm və küfr hakim olduğu bir vaxtda, Allah-Taala dünyanı Mehdinin vasitəsilə haqq-ədalətlə dolduracaqdır. O, on iki nəfərdən ibarət "raşidin" xəlifələrinin sonuncusudur və "Sihah" kitablarına görə, Peyğəmbər (s) bu haqda xəbər vermişdir.

İmam Mehdi (ə) haqda hədislər Peyğəmbərin (s) bir çox səhabəsi tərəfindən nəql edilmişdir. O cümlədən, Osman ibn Əfvan, Əli ibn Əbu Talib, Təlhə ibn Übeydullah, Əbdür-Rəhman ibn Ovf, Abdullah ibn Abbas, Əmmar Yasir, Abdullah ibn Məsud, Əbu Səid Xudri, Sovban, Qurrət ibn Əsas Məzəni, Abdullah ibn Haris, Əbu Hüreyrə, Hüzeyfə ibn Yəman, Cabir ibn Abdullah Ənsari, Əbu Əmamə, Cabir ibn Macid, Abdullah ibn Ömər, Ənəs ibn Malik, Ömər ibn Həsin və Ümmü Sələmə də bu zümrəyə aiddir.

İmam Mehdinin (ə) zühuru haqqında səhabələrin də bir çox sözləri nəql olunmuşdur ki, onları da Peyğəmbərin (s) hədisləri ilə eyni səviyyədə hesab etmək olar. Çünki bu məsələnin ictihadla rabitəsi yoxdur. Deməli, səhabələr bu hədisləri Peyğəmbərdən (s) eşitmişlər. Həm Peyğəmbərin (s) hədisləri, həm də səhabələrin hədis hökmünü daşıyan şəhadətləri İslamın bir çox məşhur mənbələrində və "əsl" hədis kitablarında nəql olunmuşdur, o cümlədən, "Sünəni-Əbu Davud", "Sünəni-Termizi", "Sünəni-İbn Macə", "Sünəni-İbn Əmr", "Müsnədi-Əhməd", "Müsnədi-İbn Yəla", "Müsnədi-Bəzzaz", "Səhihi-Hakim", "Məacimi-Təbərani", "Məacimi-Darü-Qutni", "Məacimi-Əbu Nəim", "Tarixi-Bağdad" (Xətib Bağdadi), "Tarixi-Dəməşq" (İbn Əsakir) və s.

Bu məsələ o qədər əhəmiyyətlidir ki, bəzi İslam alimləri Mehdi ilə əlaqədar ayrıca kitablar yazmışlar. Əbu Nəim

İsfahaninin “Əxbarul-Mehdi”, İbn Həcər Heysəminin “Əl-qovlul-muxtəsər fi əlamatil-Mehdiyyil-Muntəzər”, Şövkaninin “Ət-tövzihu fi təvatur caə fil-Muntəzəri vəd-Dəccali vəl-Məsih”, İdris İraqi Məğribinin “Əl-Mehdi”, Əbül-Abbas ibn Əbdül-Mömin Məğribinin “Əl-vəhmul-məknun fir-rəddi əla Əli ibn Xəldun” kitabını misal göstərmək olar.

Uyğun mövzuda tədqiqat aparan sonuncu şəxs “Mədinə İslam Universitetinin” rektorudur.

Bir çox alimlər öz əsərlərində qeyd etmişlər ki, Mehdi (ə) haqqında nəql olunan hədislər “təvatür” həddinə çatdığından, həmin hədisləri inkar etmək olmaz. Məsələn, Səxavi (“Fəthul-muğis”), Məhəmməd ibn Əhməd Səfavini (“Şərhul-əqidə”), Əbülhəsən Əbri (“Mənaqibuş-şafei”), İbn Teymiyyə “Fətava”, Süyuti (“Əl-havi”), İdris İraqi Məğribi (“Əl-Mehdi”), Şövkani (“Ət-tövzihu fi təvatur caə fil-Muntəzəri...”), Məhəmməd Cəfər Kənani (“Nəzmut-mütənasir”) imam Mehdi (ə) haqqındakı hədislərin “təvatür” həddinə çatdığını qeyd etmişlər.”

Bəhsin sonunda isə belə yazılır: “Alimlərin arasında yalnız İbn Xəldun “Mehdi, İsadan başqası deyil!” – kimi saxta hədislərə əsaslanaraq, Mehdi haqqında olan hədislərə irad tutmaq istəmişdir. Amma dini rəhbərlər və İslam alimləri onun sözünü rədd etmiş, hətta İbn Əbdülmömin kimiləri bu mövzuda ayrıca kitablar yazmışlar. Bir sözlə, hədis hafizləri və din alimlərinin açıq-aşkar qeydlərinə əsasən, Mehdi (ə) haqqında nəql olunan hədislər “səhih” (doğru) və “həsən”dir, ümumilikdə, “təvatür” həddinə çatmışdır. Deməli, Mehdinin (ə) zühuruna inam hər bir müsəlmana vacibdir. Bu, əhli-sünnənin əqidəvi əsaslarından biridir. Nadan və bidətçilər istisna olmaqla,

heç kim bunu inkar etmir."[1]

***MƏKTUBUN ORİJİNAL MƏTNİ***

Biz burada "Ümumdünya İslam Əlaqələri Təşkilatı"nın sədri Məhəmməd Saleh Qəzzazın Keniyadan Əbu Məhəmməd adlı şəxsin imam Mehdinin (ə) zühuru ilə bağlı sualına cavab olaraq yazdığı bəyanat və məktubun ərəbcə mətnini də qeyd edirik. Öncə qeyd etməliyik ki, bu bəyanatda verilənlərin Əhli-beyt (ə) məktəbinin ardıcıllarının əqidələri ilə fərqi yalnız imam Mehdinin (ə) atasının adı ilə əlaqədardır. Onlar o həzrətin atasının adını "Abdullah" qeyd etdikləri halda, şiə kitablarında həmin ad imam Həsən Əskəri kimi göstərilir. Bunun səbəbi isə, bəzi əhli-sünnə rəvayətlərində nöqtə səhvliyindən "ismu əbihi ismu ibni" (atasının adı övladımın adı ilə eynidir) cümləsinin əvəzində "ismu əbihi ismu əbi" (atasının adı atamın adı ilə eynidir) cümləsinin nəql olunmasıdır. Çünki imam Mehdinin (ə) adı Mühəmməd, atasının adı isə Həsən Əskəridir ki, imam Əlinin (ə) oğlu imam Həsənin (ə) adı ilə eynidir (bu ehtimalı Konci Şafei "Əl-bəyan fi əxbari Sahibəz-Zaman" kitabında təsdiqləyir). Hər halda, ikinci cümlə bir neçə səbəbə görə doğru deyildir:

1. Əksər əhli-sünnə rəvayətlərində həmin cümlə gözə dəymir.

2. İbn Əbu Leylinin məşhur rəvayətində belə deyilir: "İsmuhu ismi və ismu əbihi ismu ibni." (Onun adı mənim adım, atasının adı mənim övladımın adı ilə eynidir).

3. Əhli-beyt (ə) vasitəsilə nəql olunan "mütəvatir" hədislərdə imam Mehdinin (ə) atasının adının Həsən

*1. Bu traktatın müəlliflərinin adı: Məhəmməd Müntəzir Kənani ("İslam fiqhi" adlı təşkilatın rəisi), Şeyx Saleh ibn İsiyyin, Şeyx Əhməd Məhəmməd Camal, Şeyx Əhməd Əli və Şeyx Abdullah Xəyyat.*

olduğu göstərilir.

4. Bəzi əhli-sünnə rəvayətlərində də imam Mehdi (ə) imam Həsən Əskərinin (ə) övladı adlandırılır.[1]

***

الكرم ابومحمّد- المحترم (كنيا)

السلام عليكم و رحمةاللّه و بركاته- اشارة الىخطابكم (المورخ فى 21 يوما 1976 م) المتضمن عن موعد ظهور المهدى و فى اى مكان يقيم؟

نفيدكم باننا نوفرلكم مع خطابنا اليكم ما جاء من الفتوى فى مسأله المهدى المنتظر و قد قام بكتابته فضيلة الشيخ محمد المنتصر الكنانى واقرته اللجنه المكنونه من اصحاب الفضيله الشيخ صالح بن عثيين و فضيلة الشيخ احمد محمد جمال و فضيلة الشيخ احمد على و فضيلة الشيخ عبداللّه خياط.

مدير ادارة المجمع الفقهى الاسلامى

محمد المنتصر الكنانى

و قد دعم الفتوى بما ورد من احاديث المهدى عن الرسول صلى الله عليه و آله و سلم و ما ذكره ابن تيميه فى المنهاج بصحه الاعتقاد و ابن القيم فى المنار و ان شاء اللّه تعالى ستجدون فى الكتابه مطلبكم و ما يغنيكم عن

مسأله المهدى انتم و من كان على نهجكم آملين لكم التوفيق والسداد.

الامين العام محمد صالح القزاز

1. *Əlavə məlumat üçün bax: "Müntəxəbül-əsər", səh. 231-236, 11-ci bölmə.*

بعد التحيه

جوابا عما يسأل عنه‌المسلم الكينى فى شأن المهدى المنتظر عن موعد ظهوره عن المكان الذى يظهر منه و عن ما يطمئنه عن‌المهدى عليه السلام

هو محمد بن عبدالله الحسنى العلوى الفاطمى المهدى الموعود المنتظر موعد خروجه فى آخر الزمان و هو من علامات الساعة الكبرى يخرج من الغرب و يبايع له فى الحجاز فى مكة المكرمه بين الركن والمقام- بين باب الكعبه المشرفه والحجر الاسود عند الملتزم و يظهر عند فساد الزمان و انتشار الكفر و ظلم الناس يملأ الارض عدلا و قسطا كما ملئت جورا و ظلما يحكم العالم كله و تخضع له الرقاب بالاقناع تارة و الحرب اخرى وسيملك الارض سبع سنين و ينزل عيسى عليه السلام من بعده فيقتل الدجال او ينزل معه فيساعده على قتله بباب «اللّد» بارض فلسطين.

هو آخر الخلفاء الراشدين، الاثنى عشر الذين اخبر عنهم النبى صلوات الله و سلامه عليه فى الصحاح، و احاديث المهدى واردة عن الكثير من الصحابه يرفعونها الى رسول الله صلى الله عليه و آله و سلم و منهم عثمان بن عفان؛ و على بن ابى طالب، وطلحة بن عبيدالله، و عبدالرحمن بن عوف، و عبدالله بن عباس؛ و عمار بن ياسر، و عبدالله بن مسعود، و ابوسعيد الخدرى، و ثوبان، وقرة بن اياس المزنى، و

عبدالله بن الحارث بن جز، وابوهريره، و حذيفة بن اليمانى، جابر بن عبدالله؛ و ابوامامه، و جابربن ماجد الصدفى؛ و عبدالله بن عمر و انس بن مالك، و عمران بن حصينى، و ام سلمه.

هولاء عشرون منهم، ممن وقفت عليهم، و غيرهم، كثير، و هناك آثار

عن الصحابه، مصرحة بالمهدى، من اقوالهم، كثيره جدا، لها حكم الرفع، اذ لامجال للاجتهاد فيها.

احاديث هؤلاء الصحابة التى رفعوها الى النبى صلى الله عليه و آله و سلم؛ والتى قالوها من اقوالهم اعتماد على ما قاله رسول اللّه و سلامه عليه ورواها الكثير من دواوين الاسلام؛ و امهات الحديث النبوى؛ من السنن، و المعاجم، والمسانيد منها.

سنن ابى داود، والترمذى، و ابن ماجه، و ابن عمروالدانى؛ ومسانيد احمد، و ابن يعلى؛ و البزاز، و صحيح الحاكم؛ و معاجم الطبرانى الكبير والالوسى والرويانى والدار قطنى فى الافراد، و ابونعيم فى اخبار المهدى، والخطيب فى تاريخ بغداد، و ابن عساكر فى تاريخ دمشق و غيرها.

و قد خص المهدى بالتاليف ابونعيم فى «اخبار المهدى» و ابن حجر الهيثمى فى القول المختصر فى علامات المهدى المنتظر والشوكانى فى التوضيح فى تواتر ما جاء فى المنتظر و الدجال والمسيح؛ وادريس العرقى المغربى فى تاليفه «المهدى» وابوالعباس بن عبدالمؤمن المغربى فى كتابه «الوهم المكنون فى الرد على ابن خلدون».

و آخر من قرات له عن المهدى، بحثاً مستفيضا، مدير الجامعه

الاسلاميه، فى المدينه المنوره فى مجلة الجامعه؛ اكثر من عدد.

و قد نص على ان احاديث المهدى، انها متواتره، جمع من الاعلام قديما و حديثا منهم السخاوى فى «فتح المغيث»، و محمد بن احمد السفاوينى فى شرح العقيده و ابوالحسين الابرى فى «مناقب الشافعى» و ابن تيميه فى فتاواه والسيوطى فى الحاوى؛ و ادريس العراقى المغربى فى تأليف له

عن المهدى، والشوكانى فى «التوضيح فى تواتر ما جاء فى المنتظر؛ و الدجال، والمسيح» و محمد بن جعفر الكنانى فى «نظم المتناثر فى الحديث المتواتر»، و ابوالعباس بن عبدالمؤمن المغربى فى «الوهم المكنون من كلام ابن خلدون» رحمهم اللّه و حاول ابن خلدون فى مقدمته ان يطعن فى احاديث المهدى، محتجا بحديث موضوع لا اصل له عند ابن ماجه لا مهدى الا عيسى. ولكن رد عليه الائمه والعلماء؛ و خصه بالرد شيخنا ابن عبدالمؤمن، بكتاب مطبوع متناول فى المشرق والمغرب منذ اكثر من ثلاثين سنه.

و نص الحفاظ والمحدثون على ان احاديث المهدى فيها الصحيح والحسن و مجموعها متواتر مقطوع بتواتره و صحته.

و ان الاعتقاد بخروج المهدى، واجب و انه من عقائد اهل السنة و الجماعة ولاينكر الاجاهل بالسّنّة، و مبتدع فى العقيده.

واللّه يهدى الى الحق و يهدى السبيل.

مدير ادارة المجع الفقهى الاسلامى

محمد المنتصر الكنانى

***

Burada məşhur olan digər əhli-sünnə alimlərindən bir neçəsinin də mülahizələrini qeyd etməyi lazım bilirik:

1. Tanınmış əhli-sünnə alimi Şeyx Mənsurəli Nasif "Ət-tac" kitabında yazır:

اشتهر بين العلماء- سلفاً و خلفاً- انه فى آخر الزمان لابد من ظهور رجل من اهل البيت يسمى «المهدى» يستولى على الممالك الاسلاميه و يتبعه المسلمون و يعدل بينهم و يؤيد الدين...

و قد روى احاديث المهدى جماعة من خيار الصحابة واخرجها اكابر المحدثين كابى داود؛ والترمذى و ابن ماجه والطبرانى، و ابى يعلى، والبزاز، والامام احمد، والحاكم؛ رضى اللّه عنهم اجمعين و لقد اخطأ من ضعف احاديث المهدى كلها كابن خلدون و غيره.

"Bütün keçmiş və müasir alimlər arasında məşhur nəzər budur ki, axirəz-zamanda Əhli-beytdən bir nəfər zühur edərək İslam ölkələrinə hakim olacaq və müsəlmanlar ona itaət edəcək. Həmin şəxs haqq-ədalətlə hökm sürəcək və dini möhkəmləndirəcəkdir... Mehdi haqqında söylənilən hədisləri Peyğəmbərin (s) bir qrup yaxın səhabələri nəql etmiş, eləcə də Əbu Davud, Termizi, İbn Macə, Təbərani, Əbu Yəla, Bəzzaz, Əhməd ibn Hənbəl və Hakim kimi böyük hədis alimləri öz əsərlərində qeydə almışlar."[1]

2. İmam Mehdi (ə) ilə bağlı hədisləri zəif hesab etməsinə baxmayaraq, onların İslam alimləri arasında məşhurluğunu inkar edə bilməyən İbn Xəldun belə yazır: "Bütün müsəlmanların məşhur nəzərinə əsasən, axirəz-zamanda Əhli-beytdən bir nəfər zühur edərək İslamı təsdiqləyəcək, ədaləti bərpa edəcək və müsəlmanlar da ona itaət edəcəklər."[2]

3. Bu hədislərin "təvatür" həddində olduğunu nəql edən məşhur Misir alimi Məhəmməd Şəblənci "Nurul-əbsar" kitabında yazır:

تواترت الاخبار عن النّبى صلى الله عليه و آله و سلم على انّ المهدى من اهل بيته و انّه يملًا الارض عدلًا

*"Peyğəmbərdən (s) bizə gəlib çatan "mütəvatir" hədislərə*

1. *"Ət-tac", 5-ci cild, səh. 310.*
2. *"İbn Xəldun", Beyrut çapı, səh. 311.*

*əsasən, Mehdi onun sülaləsindəndir və yer üzünü haqq-ədalətlə dolduracaqdır."*[1]

4. Şeyx Məhəmməd Səban "Əsafur-rağibin" kitabında belə yazır: "Peyğəmbərdən (s) nəql olunan "mütəvatir" hədislərə görə, qiyam edib yer üzünü ədalətlə dolduran Mehdi o həzrətin Əhli-beytindəndir."

5. İbn Həcər "Əs-səvaiqul-muhriqə" kitabında Əbülhəsən Əmridən belə nəql edir: "Peyğəmbərdən (s) nəql olunan "mütəvatir" hədislərə əsasən, o həzrətin Əhli-beytindən olan Mehdi zühur edərək yer üzündə ədaləti bərpa edəcəkdir."[2]

6. Hətta, məşhur əhli-sünnə alimi Şövkani imam Mehdinin (ə) zühuru, Dəccalın qiyamı və həzrət İsa Məsihin (ə) gəlişi ilə əlaqədar yazdığı kitabda bu hədislərin "təvatür" həddində olduğunu bildirdikdən sonra yazır:

**هذا يكفى لمن كان عنده ذرّة من الايمان و قليل من انصاف!**

"Qeyd olunan mətləblər azacıq iman və insafı olan kəslər üçün kifayətdir!"[3]

### *MÜXALİFLƏRİN MƏNTİQİ*

Qeyd etdiyimiz kimi, əhli-sünnə alimlərindən olan məşhur tarixçi İbn Xəldun və Misir alimi Əhməd Əmin kimi imam Mehdi (ə) ilə bağlı hədisləri qəbul etməyən az bir qrup istisna olmaqla, əksəriyyət onların nəzərini rədd etmişdir. Bütün bunlara baxmayaraq, biz onların da tənqid və iradlarını nəzərinizə çatdırırıq. Həmin iradları

1. *"Nurul-əbsar", Səh. 157.*
2. *"Əs-Səvaiqul-muhriqə", səh. 99.*
3. *"Ət-tacul-cami lil-üsul" kitabından nəqlən, 5-ci cild, səh. 327. Əlavə məlumat üçün "Əl-Mehdi" və "Müntəxəbül-asar" kitablarına müraciət edə bilərsiniz.*

beş hissədə yekunlaşdırmaq olar:

1. İmam Mehdi (ə) ilə bağlı hədislərin sənədləri mötəbər deyil!
2. Uyğun hədislər əql və məntiqlə uzlaşmır!
3. Həmin hədislər Mehdi iddiasında olanların sui-istifadəsinə səbəb olmuşdur!
4. Bu hədislər İslam cəmiyyətində münaqişə və geriliyin yaranması ilə nəticələnmişdir!
5. Belə hədislər şiələrin xeyrinədir!

### *MÜXALİFLƏRİN MƏNTİQİNİN ZƏİFLİYİ*

Sadalanan iradlardan məlum olur ki, hədislərlə müxalifətin səbəbi yalnız onların sənəd və dəlalətinin zəif olmasıdır. Müxalifətçilik maskası arxasında isə həqiqi bir sima dayanır ki, onun da səbəbi məzhəbi təəssübkeşlik və dəlil-sübutsuz etiqadi məsləhətin güdülməsidir. Hər halda, müxaliflərin məntiqi tamamilə süst və zəifdir. Çünki:

Birincisi, imam Mehdinin (ə) zühuru ilə bağlı hədislər təkcə şiə alimlərinin deyil, məşhur əhli-sünnə alimlərinin də ən mötəbər kitablarında qeyd olunmuş və əksəriyyət onların "təvatür" həddində olmasını etiraf etmişdir. Nəticədə, həmin hədislərin sənədlərinin ayrı-ayrılıqda araşdırılmasına ehtiyac duyulmur. Çünki onların "təvatür" və məşhurluğu bizi hədislərin silsilə sənədlərinin tədqiqatından ehtiyacsız edir və hədis elminin meyarlarına əsasən, uyğun hədislərin doğruluğuna şübhə qalmır. Bununla yanaşı, hədislər yalnız zəif hədislərdən ibarət deyil, onların arasında səhih və mötəbər hədislər də var ki, əhli-sünnə alimləri də onların doğruluğunu etiraf etmişlər. Diqqəti cəlb

edən məsələ İbn Xəldunun özünün də bu həqiqəti etiraf etməsidir. O, kitabının bir neçə səhifəsində imam Mehdi (ə) ilə bağlı hədislərə yer vermiş və onların sənədlərinin şübhəli olduğunu bildirdikdən sonra belə yazmışdır:

**فهذه جملة الاحاديث التى اخرجها الائمة فى شأن المهدى و خروجه آخر الزمان و هى كما رأيت لم يخلص منها من النقد الا القليل والاقل منه؛**

"Qeyd edilənlər hədis alimlərinin Mehdi (ə) və onun axirəz-zamanda qiyamı ilə əlaqədar nəql etdikləri hədislərin məcmusudur. Gördüyünüz kimi, onların yalnız az bir qismi iradsızdır."

Göründüyü kimi, İbn Xəldun ən azı bu hədislərin az bir qisminin səhih və iradsız olduğunu etiraf edir. Əlbəttə, mövzu ilə bağlı hədislər onun öz kitabında qeyd etdikləri ilə məhdudlaşmır. Bir sözlə, ona cavab olaraq bəzi əhli-sünnə alimləri imam Mehdi (ə) barəsində nəql olunan hədislərin mötəbərliyi və həmin hədislərin İbn Xəldunun kitabındakılarla bitməməsini sübut etmək üçün bir sıra kitablar da yazmışlar. Beləliklə, "silsilə sənədlərin zəifliyi" bəhanəsi ilə hədislərin inkarı tamamilə əsassızdır.

İkincisi, sözügedən hədislərdə bizi onların inkarına vadar edən əql və məntiqəzidd mətləblər gözə dəymir. Onlardan bəzilərinin məzmunu nə qədər qeyri-adi görünsə də, hər halda, peyğəmbərlərin möcüzələrindən üstün deyildir. Sadəcə əql və məntiqlə uzlaşmaması onların qəbulluğuna mane sayıla bilməz. Eyni zamanda, həmin hədislər bir-birilə əlaqəli bir məcmuə deyil ki, onların hamısını birgə qəbul etməli və ya etməməli olaq. Başqa sözlə, bu hədislərdə Peyğəmbəri-Əkrəmin (s) sülaləsi və Fatimeyi-Zəhranın (ə) övladlarından olan bir nəfərin qiyam edib yer üzünü haqq-ədalətlə dolduracağı,

cahanşümul və ədalətli bir inqilabın baş verəcəyindən söz açılır. Bu da əql və məntiqlə uzlaşmayan bir mətləb deyil, əksinə ötən bəhslərdə sübuta yetirdiyimiz kimi, bir sıra əqli dəlillərə əsaslanır. Əgər zühurun əlamətləri ilə bağlı bəzi hədislərin mənası o qədər də nəzərə çarpmırsa və silsilə sənədləri də mötəbər deyilsə, onları qəbul etməyə bilərik. Lakin onların qeyri-mötəbərliyinin digər hədislərə heç bir aidiyyatı yoxdur! Bir sözlə, bəzilərinin həmin hədisləri tənqid atəşinə tutması səbəbi bizə gün kimi aydındır. Belə ki, həmin hədislərdə deyilir: "Maddi sivilizasiya bəşəri islah edə bilməz. İyirmi beş il davan edən Vyetnam müharibəsi ibrətamiz sınaq meydanı idi; bütün mütəfəkkirlər bu meydanda öz düşüncələrini sınaqdan keçirdilər. Mən də din alimi olaraq deyirəm ki, bu meydan maddi məktəblərin acizliyini bir daha sübuta yetirdi. İman olmadıqda maddi vəsaitlər böhranları şiddətləndirir. Bunu dünyanın hər yerində müşahidə etmək mümkündür.

Üçüncüsü, əgər bu hədislər şiələrin xeyrinə tamamlanırsa, onda, şiə və yaxud hədislərin təqsiri nədir?! Həqiqətin bu yolla üzə çıxmasının nə eybi var ki? Bəziləri imam Mehdinin (ə) zühur və qiyamını qəbul etsələr də, müəyyən səbəblərdən onları şiə adlandırmaq olmaz. Əslində yersiz və kor-koranə təəssübkeşliklər həqiqətlərin dərkinə mane olmamalıdır. Bu, eynilə bir nəfərin "Həkim mənə qarşı kinli olduğundan, şəfalı dərman versə də, mən onu içməyəcəyəm. Çünki onu içib sağalsam, həkimin xeyrinə tamamlanacaq və onun yaxşı həkim olduğunu deyəcəklər!" – söyləməsinə bənzəyir.

Dördüncüsü, bu hədislərdən sui-istifadə oluna biləcəyini fərz etsək, dünyadakı həqiqətlərdən sui-

istifadə olunmadığını söyləyə bilərikmi?! Görəsən, dünyada yalandan allahlıq, peyğəmbərlik və digər mənəvi məqamlar iddiasında olanlar yoxdurmu? Görəsən, dünyada saxta dinlər azdırmı? Görəsən, biz də bütün həqiqətlərə "azğınların sui-istifadəsi" adı ilə göz yummalı, Allaha pərəstiş və peyğəmbərlərin peyğəmbərliyini danmalıyıqmı? Dünyanın maddi nemətlərindən sui-istifadə olunmurmu? Bütün bunları aradan aparmalıyıqmı? Axı, bu necə məntiqdir?!

On ikinci əsrdə, təqribən, on nəfər İsa peyğəmbər olduğunu iddia etdi. Bəziləri onlara qoşuldu və bu səbəbdən böyük fitnə yarandı. Çoxları qətlə yetirildi.[1] Həzrət İsanın (ə) adından sui-istifadə olunduğu üçün, onun vücudunu inkar etməliyikmi?!

Beşincisi, "intizar" mövzusunda qeyd etdiyimiz kimi, imam Mehdinin (ə) qiyamına etiqad intizar həqiqətini dərk edənlərin irtica və tənbəlliyinə səbəb olmur, əksinə həyatın çətinlikləri müqabilində onlarda ümid hissi baş qaldırır. Allah və Onun yenilməz qüdrətinə etiqad da insana problemlər müqabilində müqavimət göstərmək qüvvəsi verir, ümidsizlik amilləri qarşısında sarsılmaz sığınacaq yaradır. İmam Mehdinin (ə) zühuruna etiqadın belə təsirləri inkarolunmazdır və ümumiyyətlə, zühurun intizarı cəmiyyətin islahında həlledici amildir.

"Allah və onun varlıq aləmindəki yenilməz qüdrətinə etiqad" məsələsində bəzi nadanların səhvə yol verdikləri kimi, bu qiyamın mahiyyətini düzgün dərk etməyənlər də onu tənbəllik və məsuliyyətsizliklə əlaqələndirirlər. Belə bəhanələrlə qəti və aydın bir həqiqətdən əl çəkməməliyik!

---

*1. "Müqəddəs Qamus", səh. 818.*

### *ŞİƏ MƏNBƏLƏRİNDƏ İMAM MEHDİ (Ə)*

Əhli-sünnə məzhəbində Mehdi adlı dünya xilaskarına etiqad fürui-dindən sayıldığı halda, şiə məzhəbində üsuli-dindən hesab edilir. İmamiyyə şiələrinin əqidəsinə əsasən, on iki imam silsiləsi onunla sona yetir və o, vəsilərin sonuncusudur.

Bəzi İslam tədqiqatçıları əhli-sünnə vasitəsilə imam Mehdi (ə) barəsində nəql olunan hədislərin iki yüz, şiə vasitəsilə nəql olunan hədislərin isə minə yaxın olduğunu qeydə almışlar. Bu hədislər əhli-sünnə nəzərində "mütəvatir" adlansa da, şiə nəzərində "məzhəbin zəruri məsələsi" hesab edilir. Bu səbəbdən, həmin mövzuda şiə alimləri əhli-sünnəyə nisbətdə daha çox kitab yazmışlar. Biz burada bu mövzuda daha dəqiq tədqiqat aparan üç müasir alimin kitabına işarə edirik:

1. Böyük alim Seyid Sədrəddin Sədrin "Əl-Mehdi" kitabı;

2. Məşhur alim mərhum Seyid Möhsin Əminin "Əl-bürhan əla vücudi Sahibiz-Zaman" kitabı;

3. Böyük alim Lütfullah Safi Gülpayqaninin "Müntəxəbül-əsər fi əhvalil-imamis-sani əşər" kitabı. O, bu kitabı mərhum Ayətullah əl-üzma Bürucerdinin rəhbərliyi ilə yazmış və "Nəvidu əmnu əman" (Əmin-amanlıq müjdəsi) adı ilə xülasəsi də çap olunmuşdur.

Həmin kitablar bu mövzuda yazılmış bir çox keçmiş şiə və əhli-sünnə alimlərinin əsərlərinə əsaslanır. Kitabın həcmini nəzərə alaraq bu haqda nəql olunan bütün rəvayətləri qeyd etməkdən çəkinir və yalnız adıçəkilən son kitabın fəsillərinə toxunmaqla kifayətlənirik. Gələcək fəsillərdə yeri gəldikcə bəzi hədislərə işarə edəcəyik:

1. Birinci fəsildə Peyğəmbəri (s) və imamların on iki

imam barəsində söylədikləri hədislərdən söz açılaraq məşhur əhli-sünnə və şiə mənbələrindən 271 hədis nəql olunur. Həmin hədislərin bəzilərində "imam", bəzilərində "xəlifə", bəzilərində "əmir" və oxşar ifadələr işlədilir.

Şiə məktəbində belə hədislərin məna və təfsiri aydındır. Əhli-sünnə məktəbində isə, onlar həmin hədislərin öz mötəbər mənbələrində nəql olunduğunu inkar edə bilmədikləri halda, şiənin on iki imamla bağlı əqidəsini qəbul etmirlər. Nəticədə, hədislərin məna və təfsirində çaşqınlıqda qalaraq ilk dörd xəlifəni əsas tutmuş, sonrakı xəlifələrdən də səkkizini ona əlavə etmişlər! Halbuki, qeyd edilən xəlifələri tərtiblə əmirlər və Peyğəmbərin (s) vəd etdiyi həqiqi rəhbərlər zümrəsinə aid etməkdə nə qədər göz yumsaq da, Yezid və ondan sonra hakimiyyəti ələ keçirən Əməvi rəhbərlərini sözsüz ki, həmin zümrədən hesab etmək olmaz. Əgər onların arasından nisbətən yaxşılarını seçsək belə, Əməvi xəlifələri ilə Abbasi xəlifələrinin eynihədəfli olmasını nəzərə aldıqda, bu sayın on ikiyə çatdırılması yenə qeyri-mümkün olacaq və zaman baxımından on iki silsiləsinin qırılması da çətinlik törədəcəkdir.

Bəzən on iki nəfərdən dördünün ilk dörd xəlifə olduğu və qalan səkkiz nəfərin isə sonrakı əsrlərdə gələcəyi və onların sonuncusunun Mehdi olacağını deyirlər! Bu şəkildə təəssübkeşliyə yol verilməsinə baxmayaraq, həqiqi xəlifələr silsiləsi arasında danılmaz fasilə düşəcəkdir ki, uyğun rəvayətlərlə əsla uzlaşmır.

2. İkinci fəsildə Peyğəmbərdən (s) sonra gələcək xəlifələrin sayının Bəni-İsrail öndərlərinin sayı ilə eyni olmasından söz açılır ki, Qurani-Kərim baxımından onların sayı on ikidir. Bu barədə hər iki məzhəbdən qırx

hədis qeyd edilir.

3. Üçüncü fəsildə Peyğəmbərin (s) həqiqi canişinlərinin on iki nəfər və onlardan birincisinin imam Əli (ə) olduğu qələmə alınır və 133 hədis qeyd edilir.

4. Dördüncü fəsildə hər iki məzhəb tərəfindən nəql olunan 91 hədisdən söz açılır ki, onlarda belə deyilir: "Xəlifələrin birincisi Əli (ə), sonuncusu isə Mehdidir (ə)."

5. Beşinci fəsildə nəql olunan 139 hədisdə açıq-aşkar belə deyilir: "İmamlar on iki nəfərdir və onlardan doqquzu Hüseyn ibn Əlinin (ə) sülaləsindəndir."

6. Altıncı fəsildə qeyd olunan 107 hədisdə aydın şəkildə belə deyilir: "İmamlar on iki nəfərdir. Onlardan doqquzu Hüseyn ibn Əlinin (ə) sülaləsindəndir və doqquzuncusu Qaimdir." Sonuncu ifadə onların hamısında nəzərə çarpır.

7. Yeddinci fəsildə göstərilən 50 hədisdə imamların adları qeyd edilir. Bu hədislərdən bəziləri əhli-sünnə, əksəriyyəti isə şiə mənbələrindən nəql olunur.

Həmçinin imam Mehdinin (ə) cismani və mənəvi xüsusiyyətləri, zühurunun əlamətləri, hakimiyyət və cahanşümul inqilabının keyfiyyəti və digər əlaqəli mövzularla bağlı çoxlu sayda hədislərdən söz açılır.

Bu hədislər vəd edilmiş böyük xilaskarın – imam Mehdinin (ə) aşağıdakı səciyyəvi xüsusiyyətlərə sahib olmasını aydınlaşdırır:

1. O, İslam Peyğəmbərinin (s) xanədanı və övladlarındandır;
2. İmam Hüseynin (ə) sülaləsindəndir;
3. İslam Peyğəmbərindən (s) sonra on ikinci rəhbərdir;
4. İmam Həsən ibn Əli Əskərinin (ə) övladıdır;
5. Dünyanı haqq-ədalətlə dolduracaqdır;
6. Bütün dünyaya rəhbərlik edəcəkdir;

7. Onun dövründə zəiflər, məzlumlar və istismara məruz qalanlar azadlığa çıxacaq, müharibələrə son qoyulacaq və dünyaya sülh və əmin-amanlıq hakim olacaq.

Belə hədislər say baxımından həddən artıq çox olduğundan, xüsusi bir kitab formasına salınmağı tələb edir. Bu barədə müxtəlif kitablar yazıldığı və onlardan bəzisinin adını çəkdiyimiz üçün həmin hədislərin geniş şərhindən vaz keçdik və gələcək fəsillərdə bəhsi təkmilləşdirmək məqsədilə ehtiyac duyulan hədisləri nəql edəcəyik. Bizim burada əsas məqsədimiz uyğun hədisləri əqli dəlillərlə yanaşı araşdırmaqdır.

# İNQİLABIN ƏLAMƏTLƏRİ



## *ZÜHURUN ƏLAMƏTLƏRİ*

Görəsən, hədislərdə bu inqilabın baş verməsinə yaxın olan vaxtlarda baş verəcək əlamətlər qeyd olunubmu? İnqilabın yaxın olduğunu söyləmək mümkündürmü? Onun vaxtını tezləşdirmək olarmı? Əgər bu mümkündürsə, onun üçün nə etmək lazımdır?

Bütün bu suallara cavabımız müsbətdir. Çünki cəmiyyətdə əlamətsiz heç bir inqilab baş verməmişdir. İslam hədislərində də böyük qiyamət gününün yaxınlaşmasını bildirən bir sıra nişanə və əlamətlər qeyd olunmuşdur ki, onları iki qismə bölmək olar:

1. İnqilabın hədəflərinə uyğun olaraq meydana çıxan əlamətlər;

2. Adi məlumatlarla əldə olunmayan, daha çox qeyri-adi uzaqgörənlik tələb edən cüzi əlamətlər.

Biz burada hər iki qismə aid olan "üç mühüm əlaməti" qeyd edirik:

### *1. ZÜLM VƏ FƏSADIN GENİŞLƏNMƏSİ*

Hər bir inqilabın, o cümlədən, imam Mehdi (ə) inqilabının yaxınlaşmasını aşılayan ilk əlamət cəmiyyətdə zülm, haqsızlıq, fitnə-fəsad, başqalarının hüquqlarına təcavüz, ictimai və əxlaqi azğınlıqların artmasıdır.

Təbii ki, həddini aşan təzyiq partlayışa səbəb olur.

İctimai partlayışlar da mexaniki partlayışlar kimi hədsiz və şiddətli təzyiqlərdən sonra yaranır.

Hər bir dövrdə zalımlar vasitəsilə yayılan zülm və fitnə-fəsad inqilab toxumlarını cücərdərək od kürəsində dəmirləri közərdir, böhranları artırır, sonda inqilab vaxtını yaxınlaşdırır. Dünyamiqyaslı inqilab və böyük xilaskarın zühur vaxtının yaxınlaşması da bundan istisna deyil! Lakin inqilabın reallaşması üçün zülm və fəsadın yayılmasına şərait yaratmağı düşünən pessimist insanların əksinə olaraq fəsadın geniş yayıldığı bir vaxtda fərdi və ictimai islahat aparmaq və İmama (ə) layiq və şücaətli əsgər olmağa çalışmalıyıq.

Ümumiyyətlə, bu məsələ həm şiə, həm də əhli-sünnə mənbələrində qeyd olunan bir çox İslam rəvayətlərində **الأرضَ قسطاً وَعَدْلاً كما مُلِئَتْ ظُلْماً وَجَوْراً يَمْلأ** *(İmam Mehdi (ə) yer üzünü zülm və fəsadla dolduğu kimi, haqq-ədalətlə dolduracaqdır)* ifadəsi ilə nəzərə çarpır və böyük xilaskarın inqilabının aşkar əlamətlərindən sayılır.

Burada belə bir sual yaranır: "Zülm" ilə "cövr" ifadəsinin fərqi nədir və nə üçün hədislərdə onların hər ikisi təkrarlanır?

Hər iki sözün kökündən məlum olur ki, başqalarının hüquqlarına təcavüz iki qismə bölündüyündən, ərəb qrammatikasında da onların hər birinə ayrıca ad verilmişdir: "Zülm" hansısa insanın başqasının haqqını özünə aid edərək onun zəhmətini qəsb etməsidir. "Cövr" isə başqasının haqqını mənimsəyib digərinə verməsi, öz qüdrət və hakimiyyətini möhkəmlətmək üçün tərəfdarlarını camaatın malı, canı və namusuna hakim etməsi və ayrı-seçkilik sayəsində qüdrət sahibi olmasıdır. "Zülmün" antonimi "qist", "cövrün" antonimi

isə "ədalət"dir.[1]

Bəli, dünyanı zülm, haqsızlıq, təcavüzkarlıq və ayrı-seçkiliklər bürüdüyü zaman, imam Mehdi (ə) zühur edib haqq-ədaləti bəşəriyyətə ərməğan gətirəcək.

İslam rəvayətlərində o həzrətin inqilabının cüzi əlamətlərindən elə ustalıqla söz açılır ki, sanki bu uzaqgörənliklər 13-14 əsr öncəki tarixə deyil, elə bizim zamanımıza aiddir. Amma hazırda onların çoxunu öz gözlərimizlə müşahidə etdikdə, həqiqətən də, möcüzə olduğunu qəbul edirik! İmam Sadiq (ə) hədislərin birində ictimai, siyasi və əxlaqi pozğunluqlara dair onlarla nümunəyə işarə edir ki, onlara diqqət yetirdikdə, şübhəsiz, insanı dərin düşüncəyə qərq edir. Biz burada həmin hədisin bir hissəsini ərəbcə mətni ilə yanaşı qısa şəkildə qeyd edirik:

**قال الصّادق عليه السلام لبعض اصحابه:**

**1. اذا رايت الجور قد شمل البلاد**

**2. القرآن قدخلق و احدث ما ليس فيه و وجه على الاهواء**

**3. الذين قد انكفى كما ينكفى الاناء**

**4. اهل الباطل قد استعلوا على الحق**

**5. الرجال قد اكتفى بالرجال والنساء بالنساء!**

**6. المؤمن صامتاً!**

**7. الصغير يستحقر بالكبير**

---

*1. Əlbəttə, bu, hər iki sözün birgə qeyd edildiyi cümləyə aiddir. Ayrı-ayrılıqda qeyd edildikdə isə, hər ikisi ədalət və insaf mənasını daşıyır.*

8. الاحارم قد تقطعت

9. الثناء قد كثر

01. الخمور تشرب علانية

11. سبيل الخير منقطعا و سبيل الشرمسلوكا

21. الحلال يحرم و الحرام يحلل

31. الدين بالرأى

41. المؤمن لايستطيع ان ينكر الا بقلبه

51. و رأيت العظيم من المال ينفق فى سخط اللّه

61. الولات يرتشون فى الحكم!

71. الولاية قبالة لمن زاد!

81. الرجل ياكل من كسب امرأته من الفجور!

91. القمار قد ظهر

02. الملاهى قد ظهرت يمربها لايمنعاحد احداً، ولايجترء احد على منعها.

12. و رأيت القران قد ثقل على الناس استماعه و خف على الناس استماع الباطل.

22. الجاريكرم الجار خوفاً من لسانه!

32. المساجد قد زخرفت!

42. طلب الحج لغير اللّه

52. قلوب الناس قد قست!

62. الناس مع من غلب!

72. طالب الحلال يذم وطالب الحرام يمدح!

82. المعازف ظاهرة فى الحرمين

92. الرجل يأمر بالمعروف و ينهى عن المنكر، فيقوم اليه من ينصحه فيقول هذا عنك موضوع!

03. المساجد محتشية ممن لايخاف اللّه!

13. الناس همهم فى بطونهم و فروجهم!

23. الدنيا مقبلة اليهم

33. النساء يبذلن انفسهن لاهل الكفر

43. اعلام الحق قد درست

53. الحرب قد اديل من العمران!

63. الرجل معيشة من بخس المكيال و الميزان

73. الرجل عنده المال الكثير لم يزكه منذ ملكه

83. الرجل يمسى نشوان و يصبح سكران

93. الناس ينظر بعضهم الى بعض، و يقتدون باهل الشرور!

04. كل عام يحدث فيه من الشرو البدعة اكثر مما كان!

14. و رأيت الخلق والمجالس لايتابعون الا الاغنياء

24. يتسافدون كما تتسافد البهائم!

34. الرجل ينفق الكثير فى غير طاعة اللّه و يمنع اليسير فى طاعة اللّه.

44. الرجل اذا مر به يوم لم يكسب فيه الذنب العظيم ... حزيناً!

54. النساء قد غلبن على الملك و غلبن على كل امر

64. رياح المنافقين دائمة و رياح اهل الحق لاتحرك

74. القضاة يقضون بخلاف ما امراللّه

84. المنابر يؤمر عليها بالتقوى، ولا يعمل القائل بما يأمر!

94. الصلوة قد استخف باوقاتها

05. و رأيت الصدقة بالشفاعة لايراد بها وجه اللّه ...

فكن على حذر و اطلب الى اللّه النجاة

İmam Sadiq (ə) səhabələrindən birinə buyurmuşdur:

1. Bütün dünyanın zülm və haqsızlıqla dolduğu;

2. Qurani-Kərimin gül kimi solaraq məfhumlarının nəfsi istəklərdən baş qaldıran bidətlərlə qarışdığını;

3. Allah dininin çevrilmiş (boş) qab kimi möhtəvasız göründüyünü;

4. Batil əhlinin haqq əhlinə qələbə çaldığını;

5. Kişilərin kişilərlə, qadınların da qadınlarla kifayətləndiyini;

6. Möminlərin sükut etdiyini;

7. Kiçiklərin böyüklərə hörmət qoymadığını;

8. Qohumluq əlaqələrinin kəsildiyini;

9. Tərif və yaltaqlığın artdığını;

10. Şərabın aşkar şəkildə içildiyini;

11. Xeyir yollarının bağlandığı və şər yollarının açıldığını;

12. Halalın haram, haramın da halal hesab edildiyini;

13. Dini hökm və qanunların şəxsi rəylə şərh olunduğunu;

14. Möminlərin azadlığının alınıb, yalnız qəlbən nifrət bəslədiklərini;

15. Allahın qəzəbi (fitnə-fəsad və çirkinliklər) yolunda böyük sərmayələrin xərcləndiyini;

16. Dövlət məmurlarının rüşvətxorluğa qurşandığını;

17. Həssas mövqelərin hərraca qoyulduğunu;

18. (Bəzi) kişilərin öz arvadlarının iffətəzidd işlərilə dolandığını;

19. Qumarın aşkar olduğunu;

20. Çirkin əyləncələrin artdığını və heç kimin onların qarşısını ala bilmədiyini;

21. Camaata Quran həqiqətlərinin eşidilməsinin ağır, batilin eşidilməsinin isə asan gəldiyini;

22. Qonşunun öz qonşusuna dilinin qorxusundan ehtiram qoyduğunu;

23. Məscidlərin bəzəndiyini;

24. Həccə Allahdan başqasına görə gedildiyini;

25. Camaatın daşürəkli olduğunu;

26. Camaatın qələbə çalan şəxsə (istər haqq olsun,

istərsə də batil) tərəfdarlıq etdiyini;

27. Halal ardınca olanın qınandığı, haram ardınca olanın isə tərifləndiyini;

28. Əyləncə alətlərindən (hətta) Məkkə və Mədinədə aşkar şəkildə istifadə olunduğunu;

29. "Əmr be məruf" (yaxşılığa dəvət) və "nəhy əz münkər" edən (pis işlərdən çəkindirən) şəxsə "Bu sənin vəzifən deyil!" – deyə tövsiyə olunduğunu;

30. Məscidlərin Allah qorxusu olmayanlarla dolduğunu;

31. İnsanların öz qarınları və ehtirasları haqqında düşündüyünü;

32. Maddi və dünyəvi imkanların genişləndiyi və dünyanın camaata üz tutduğunu;

33. Qadınların özlərini imansız insanlara təslim etdiyini;

34. Haqqa tərəfdarlıq bayrağının köhnəldiyini;

35. (Müharibələr ucbatından) xarabalıqların abadlıqlara nisbətdə üstünlük təşkil etdiyini;

36. Bəzilərinin malı əskik satmaqla dolandığını;

37. Böyük sərvət sahiblərinin ömürlərində hətta bir dəfə belə zəkat vermədiyini;

38. Camaatın gündüzləri nəşələnib uyduğunu, sübhü də məst halında açdığını;

39. Camaatın bir-birinə baxaraq fəsad əhlinə təqlid etdiyini;

40. Hər il yeni fəsad və bidətlərin baş qaldırdığını;

41. Camaat və təşkil olunan yığıncaqların yalnız (təkəbbürlü) sərvətlilərə xidmət etdiyini;

42. Camaatın gözü önündə heyvanlar tək cinsi əlaqələrin baş verdiyini;

43. Allahdan başqası yolunda həddən artıq, Allah yolunda isə azacıq belə mal-dövlətin xərclənilmədiyini;

44. Bəzilərinin hətta bir gün böyük (kəbirə) günah etmədiyi üçün qəmgin olduqlarını;

45. Qadınların hakimiyyətə gəldiyini;

46. Bütün qapıların münafiqlərin üzünə açıq, möminlərin üzünə isə bağlı olduğunu;

47. Hakimlərin Allahın əmrinə zidd hökm çıxardığını;

48. Minbərlərdə danışan şəxsin camaatı təqvaya dəvət etdiyi halda, özünün ona əməl etmədiyini;

49. Camaatın namazın vaxtına etinasız yanaşdığını;

50. Sədəqənin Allaha görə yox, vasitəçiliklə (möhtaclara) verildiyini gördüyün zaman özünü gözlə və Allahdan qurtuluş dilə (ki, qurtuluş yaxındır.)[1]

***

Qeyd etdiyimiz kimi, bu hədisdə göstərilənlər imam Mehdinin (ə) böyük inqilabına yaxın vaxtlarda baş verəcəkdir.

Hədisdə göstərilən fəsad və çirkinlikləri üç hissəyə bölmək olar:

**1. Dövlət və hüquqi məsələlərə aid fəsadlar:** Buna zülm və haqsızlığın genişlənməsi, batili himayə edənlərin qələbəsi, söz və əməl azadlığının qadağası, möminlərin etiraz edə bilməyərək zülm və zülmkara yalnız qəlblərində nifrət bəsləməsi, əhəmiyyətsiz, faydasız və zərərli sahələrə böyük büdcələrin xərclənməsi, rüşvətxorluğun artması, strateji mövqe və məsuliyyətlərin hərraca qoyulması, yoxsul təbəqənin hakim təbəqəyə tabe edilməsi, sərvətlərin müharibələrə xərclənməsi və s. məsələləri misal göstərmək olar.

Bildiririk ki, hər il fəsad, zülm, haqsızlıq və istismar

*1. "Biharul-ənvar", 52-ci cild, səh. 256-260.*

üçün yeni vasitələr yaranır. İctimai pozuntular müqabilində məsuliyyət hissi keçirən çox az adam tapmaq olar və hətta, bu kimi məsələlərdə insanlar bir-birinə laqeyd yanaşmağı tövsiyə edirlər.

**2. Əxlaqi məsələlərə aid fəsadlar:** Buna yaltaqlıq və yersiz tərifləri, gözügötürməzlik, təəssübkeşlik, çirkin işlərə razılıq, şərab, qumar və digər zərərli əyləncələrin kütləvi hal alması, əməlsiz nəsihət, riyakarlıq, insanların sərvətləri miqdarında ictimai şəxsiyyət qazanması və sairəni nümunə göstərmək olar.

**3. Dini-məzhəbi məsələlərə aid fəsadlar:** Quran ayələrinin şəxsi düşüncə əsasında təfsiri, məscidlərdə günahkar və çirkin insanların çoxalması, məscidlərin zahiri bəzəyinə əhəmiyyət verilməsi, namazın yüngül sayılması və s. məsələlər onun ən bariz nümunələrindəndir.

***

Məlum məsələdir ki, bu fəsadların çoxu günümüzdə aşkar şəkildə yerinə yetirilir və digərlərinin də həyata keçirilməsi qaçılmazdır. Belə isə, bu böyük inqilaba zəmin yaratmaq üçün nə çatışmır?

Deməliyik ki, bizim fəsad və azğınlıqlar müqabilində məlumat və müsbət reaksiyamız həddən artıq azdır. Qeyd edilən əlamətlərin təkcə aşkar olması bu böyük inqilabın gerçəkləşməsi üçün kifayət deyil, əksinə o, insanların qəflətdən ayılması üçün müqəddimə, yatmış ruhların oyanması üçün qırmanc, ictimai və psixoloji hazırlıqlar üçün zəmindir. İnsanlar istər-istəməz bu fəsadların ağır nəticə və aqibətini dadacaqlar. Bu da ümumi oyanışın təməlini qoyacaq və onun sayəsində mövcud vəziyyətin davamının qeyri-mümkünlüyünə inam yaradacaq. Odur ki, böyük xilaskarın gəlişi üçün hazırlıq zəruridir.

*2. DƏCCALIN (HİYLƏGƏR ŞƏXS) GƏLİŞİ*

"Dəccal"dan söz düşdükdə, imam Mehdi (ə) inqilabından öncə zühur edən təkgözlü və qeyri-adi cüssəli bir şəxs nəzərdə tutulur. Hədis mənbələrindən onun yalnız müəyyən bir şəxs deyil, əksinə cəmiyyəti istənilən yolla öz ardınca çəkən, quruculuğa dair inqilab və islahat proqramlarının gerçəkləşməsinə maneə yaradan hiyləgər, fırıldaqçı və hoqqabaz insanlarla bağlı ümumi bir ad olması, həm də "Dəccal" sözünün leksik mənası[1] asanlıqla anlaşılır. Termizinin "Səhih" kitabında İslam Peyğəmbərindən (s) nəql olunan məşhur bir hədisdə belə buyurulur:

**انه لم يكن نبىّ بعد نوح الّا انذر قومه الدّجال و انّى انذر كموه؛**

*"Nuhdan (ə) sonra hər bir peyğəmbər öz qövmünü Dəccalın fitnəsi ilə qorxutmuşdur. Mən də sizi qorxuduram."*[2]

Şübhəsiz, keçmiş peyğəmbərlər öz qövmlərini yaşadıqları dövrlə minlərlə fasiləsi olan və axirəz-zamanda zühur edəcək "Dəccal"ın fitnəsi ilə deyil, öz zəmanəsindəki "Dəccal"ın – hiyləgər və hoqqabazların – fitnəsi barədə xəbərdarlıq edərək qorxudurdu. Məxsusən, həmin hədisin sonunda belə buyurulur:

**فوصفه لنا رسول اللّه فقال لعله سيدركه بعض من رآنى او سمع كلامى؛**

"Sonra Peyğəmbər (s) onun xüsusiyyətini bizə açıqlayıb buyurdu: Ola bilsin ki, məni görən və ya sözümü eşidənlərdən bəziləri onun dövrünü görələr."

Güclü ehtimala görə, hədisin bu hissəsi Əməvilər sülaləsi, "vəhy katibi" və "xalul-möminin" adı ilə camaatı

*1. "Dəcəl" sözündən alınmış "dəccal" sözü "yalançı" və "hoqqabaz" mənasını daşıyır.*

*2. "Səhihi-Termizi", "Ma caə fid-Dəccal" bölümü, səh. 42.*

doğru yoldan uzaqlaşdırıb cahiliyyət adət-ənənələrinə qaytaran, təbəqələşmə sistemini dirçəldən, səlahiyyətli və xeyirxah insanları vəzifədən kənarlaşdırıb cinayətkarları hakimiyyətə gətirən Müaviyə kimi hiyləgər, hoqqabaz və zülmkar insanlara işarədir. Yenə həmin kitabda nəql olunan növbəti bir hədisdə buyurulur:

**ما من نبی الاوقد انذر قومه و لکن ساقول فیه قولا لم یقله نبی لقومه تعلمون انه اعور...؛**

*"Elə bir peyğəmbər yoxdur ki, Dəccalın fitnəsi barədə qövmünü qorxutmasın. Mən isə onun haqqında heç bir peyğəmbərin demədiyi bir sözü deyirəm. Bildirirəm ki, o təkgözlüdür..."*

Bəzi hədislərdə Nuh peyğəmbərin dövründən söz açılması uzaq keçmişə, yaxud Nuh peyğəmbərdən əvvəlki cəmiyyətlərə hiyləgərlik və hoqqabazlığın hakim kəsilməməsinə işarə ola bilər. Nuh peyğəmbərdən öncə dəccallar və hiyləgər insanların olmamasına rəğmən, ilk ayin və şəriəti də elə o həzrətin özü gətirmişdir. Dəccalın "təkgözlü" adlanmasının isə xüsusi məna və izahı var ki, bu haqda sonra söz açacağıq.

Bəzi hədislərə əsasən, imam Mehdinin (ə) qiyamından öncə otuz Dəccalın zühur edəcəyi diqqəti özünə cəlb edir.[1] Hətta "İncil" kitablarında da onun zühurundan söz açılır. "Yuhanna" incilinin ikinci risaləsində (1-ci fəsil, cümlə 7-7) yazılır: "Eşitmişəm ki, Dəccal gələcək. Amma elə indinin özündə də çoxsaylı dəccallar vardır."

Başqa bir hədisdə İslam Peyğəmbəri (s) buyurur:

**لا تقوم السّاعة حتی یخرج نحو من ستّین کذّاباً کلّهم یقولون انا نبی؛**

*1. "Sünəni-Əbu Davud."*

*"Peyğəmbərlik iddiası edən altmış nəfər yalançı zühur etməyincə, qiyamət bərpa olmayacaq."*[1]

Bu hədisdə "Dəccal" sözü işlənməsə də, ondan axirəz-zamanda peyğəmbərlik iddiası edən yalançı və hoqqabaz insanların bir və ya bir neçə nəfərlə məhdudlaşmadığı başa düşülür.

Şübhəsiz, hər bir cəmiyyətdə inqilaba şərait yarandıqda, mənfi ünsürlər mövcud vəziyyətin qorunması üçün hegemon rejimlərin müdafiəsinə qalxır, ictimai-ideoloji məsələlərdən öz çirkin hədəflərini həyata keçirmək naminə istifadə edərək hiyləgərliyə əl atır və hətta inqilabruhlu şüarlar belə verirlər. Bu da qurucu inqilab və zəruri islahat proqramlarının gerçəkləşməsi uğrunda ən böyük maneə sayılır. Belə şəxslər bütün peyğəmbərlərin fitnə və aldadıcı planlar barədə öz ümmətlərinə xəbərdarlıq etdiyi dəccallardırlar. İmam Mehdinin (ə) zühuru və böyük inqilabından öncə dünya miqyasında ideoloji, psixoloji və ictimai dəyişikliklərə şərait yarandıqca, ardıcıl baş qaldıran dəccalların fəaliyyəti də artacaq və onlar insanların azğınlığa yönəlməsi üçün min cür hiyləyə əl atacaqlar. Əlbəttə, onlara böyük bir Dəccalın rəhbərlik etməsi də ehtimal verilir. Lakin bəzi rəvayətlərdə onun üçün göstərilən əlamətlər heç də simvol, işarə və kinayə xarakterli ifadələrə oxşamır. Məsələn, Əllamə Məclisinin "Biharul-ənvar" kitabında imam Əlidən (ə) nəql etdiyi bir hədisdə onun aşağıdakı xüsusiyyətlərə sahib olması anlaşılır:

1. Onun alnının ortasında dan ulduzu tək parlayan və qan çanağına bənzəyən bir gözü olacaq;
2. Onun hər addımı bir "mil" məsafəsi qədər olan və sürətlə hərəkət edən ağrəngli ulağı (miniyi) olacaq;

*1. "Biharul-ənvar", 52-ci cild, səh. 209.*

3. O, allahlıq iddiası edəcək və dostlarını köməyə çağırdıqda, səsini bütün dünya eşidəcək;

4. O, dənizlərə girəcək, günəş onunla birgə hərəkət edəcək, onun önündə camaatın ərzaq sandığı tüstüdən bir dağ, arxasında isə ağrəngli bir dağ duracaq;

5. O, zühur edərkən camaata qıtlıq üz gətirəcək və ərzaq tapılmayacaq...[1]

Şübhəsiz, Qurani-Kərim və hədis mənbələrində qeyd olunan dini məfhumlara simvolik məna verməyə haqqımız yoxdur. Çünki bu, rəy və şəxsi nəzərə əsaslanan təfsir" hesablandığından həm İslamda şiddətlə qadağan olunmuşdur, həm də əql və məntiqlə əsla uzlaşmır.

Qeyd edilənlərlə yanaşı, axirəz-zamanda baş verəcək hadisələrlə bağlı bu sayaq kinayəli məfhumlar da az deyildir. Buna "Günəş qərbdən doğacaqdır!"[2] – hədisini misal çəkmək olar.

Mövzumuzla bağlı bu kimi məsələlər müasir elmlə uzlaşmayan ən çətin məsələlər sırasındadır. Günəşin qərbdən doğması yer kürəsinin hərəkət sisteminin dəyişilməsi deməkdir. Bu proses gözlənilmədən baş verərsə, yer üzünə hakim nizam pozulacaq; əgər tədrici şəkildə baş verərsə, gecə ilə gündüz iki-üç ay müddətinə qədər uzanacaq və bu da yer kürəsinə hakim nizam-intizamın pozulması ilə nəticələnəcəkdir!

Dəccalın əlamətlərindən söz açan uyğun hədisin davamında nəzərə bir təfsir çarpır ki, onun kinayə olduğunu aşılayır. Nəzzal ibn Səburə Səsəə ibn Sovhandan soruşur: "İmam Əli (ə) Dəccal haqqında söylədiyi sözünün davamında buyurur: "Ondan sonra baş verəcək hadisələr

*1. "Biharul-ənvar", 52-ci cild, səh. 192, Səsəə ibn Sövhanın nəql etdiyi hədisdən iqtibas edilmişdir.*

*2. "Biharul-ənvar", 52-ci cild, səh. 194.*

barəsində məndən bir şey soruşmayın..." O həzrətin bu sözdə məqsədi nə idi?"

Səsəə belə cavab verir:

**انّ الّذى يصلّى خلفه عيسى بن مريم هو الثّانى عشر من العترة التّاسع من ولد الحسين بن على، و هوالشّمس الطّالعة من مغربها؛**

"İsa peyğəmbərin, arxasında durub namaz qılacağı şəxs Əhli-beytin on ikinci üzvü və imam Hüseynin (ə) doqquzuncu övladıdır. Qərbdən doğan günəş məhz odur!"[1]

Deməli, Dəccalın verilən xüsusiyyətlərlə simvolik xarakter daşıması təəccüb doğurmamalıdır. Burada soruşula bilər: "Onu necə təfsir və izah etmək olar?"

Bunun cavabında deyirik: "Həmin xüsusiyyətlərə sahib olan Dəccalın yalançılar, hoqqabazlar və maşınlı dünyanın zülmkar hakimləri kimi yozulması nəzərə çarpmayan məsələ deyil;

Əvvəla, onların bir gözü var və o da iqtisad gözü və maddi həyatdır. Onlar dünyaya bir gözlə baxır, yalnız öz maddi mənafelərini düşünür, məqsədləri uğrunda min cür fırıldaq və hiyləgərliyə əl atır və istismarçılıq siyasətindən əl çəkmirlər. Onlar mənəviyyat və insanlıq gözünü itirən hoqqabaz dəccallardırlar.

Onların sənaye və texnologiya sahəsində misilsiz müvəffəqiyyətlər qazanmış bu maddi gözü olduqca gözqamaşdırıcıdır.

İkincisi, onların sahib olduğu minik və nəqliyyat vasitələri olduqca sürətli (hətta, səsdən də sürətli) və yer kürəsini qısa müddət ərzində seyr etməyə qadirdir!

Üçüncüsü, onlar allahlıq iddiası edirlər. Kiçik bir

*1. "Biharul-ənvar", 52-ci cild, səh. 195.*

zəlzələ, güclü tufan və əlacsız bir xəstəlik onların bütün tədbirlərini bir-birinə vurduğu halda, insanların taleyinin öz əllərində olduğunu və kosmik uçuşları və son model yeraltı gəmilərini dəlil gətirərək təbiət aləmini ram etdiklərini deyirlər. Bəli, Firon kimi zəif və aciz olmalarına baxmayaraq, allahlıq iddiasındadırlar.

Dördüncüsü, insanlar istismar, ayrı-seçkilik, müharibə və silah-sursatlara xərclənən böyük büdcələr və onun nəticəsində yaranan bədbəxtliklər kimi bir sıra səbəblər ucbatından ərzaq qıtlığına düçar olur və bəziləri də tab gətirməyib ölürlər. Yaşanan problemlərin əsas səbəbkarı olan Dəccal mövcud vəziyyətdən sui-istifadə edərək istismara xidmət edən dayaqlarını möhkəmlətmək məqsədilə cəmiyyətin yoxsul təbəqəsinə qayğı göstərməyə başlayır.

Belə acınacaqlı vəziyyətdə əhəmiyyət kəsb edən məsələ böyük xilaskar imam Mehdinin (ə) həqiqi əsgərlərinin bir çox sadəlövh və zahirpərəst insanlar kimi dəccalsifətlilərə aldanmaması, ədalət və imana əsaslanan inqilabi tədbirləri icra etmək üçün münasib fürsətləri əldən verməməsidir. Əlbəttə, Dəccalla bağlı verilən təfsir ehtimala əsaslansa da, onun qəbul və ya inkarı əsas mövzuya xələl yetirmir. Çünki qeyd edilən xüsusiyyətlərə sahib olan Dəccalda müəyyən bir insan yox, onun kinayəli mənası nəzərdə tutulur!

### *3. SÜFYANİNİN ZÜHURU*

Dəccal kimi, Süfyaninin zühuru da bir çox şiə və əhli-sünnə mənbələrində böyük xilaskarın zühur əlamətləri və yaxud axirəz-zaman hadisələri sırasında qeydə

alınmışdır.[1] Bəzi rəvayətlərdən onun Əbu Süfyanın nəslindən olduğu anlaşılsa da, digər rəvayətlərdən isə müəyyən bir şəxsə aid olmadığı və bu adla tarix boyu bir sıra xüsusiyyətlərə sahib olan bir çox insanlara işarə olduğu başa düşülür. Məsələn, imam Səccaddan (ə) belə nəql olunur:

**امر السّفیانی حتم من اللّه ولایکون قائم الّا بسفیانی؛**

*"Süfyaninin zühuru şübhə doğurmayan məsələlərdən biridir və hər bir inqilabçının müqabilində bir Süfyani dayanacaqdır."*[2]

Bu hədisdən Süfyaninin müəyyən bir şəxs yox, ümumi bir ad olduğu, həqiqi bir islahatçı şəxsin müqabilində maneə sayıldığı anlaşılır. İmam Sadiq (ə) buyurur:

**انا و آل ابی سفیان اهل بیتین تعادینا فی اللّه: قلنا صدق اللّه وقالوا کذب اللّه: قاتل ابوسفیان رسول اللّه صلی الله علیه و آله و سلم و قاتل معاویة علی بن ابی طالب علیه السلام و قاتل یزید بن معاویة الحسین بن علی علیه السلام و السّفیانی یقاتل القائم؛**

*"Bizimlə (Əhli-beytlə) Əbu Süfyan övladları ilahi təlimlər uğrunda bir-birimizlə müxalifət edən iki tayfayıq; biz Allah-Taalanın buyruqlarını təsdiq, onlar isə təkzib edirlər. Əbu Süfyan Allahın Rəsulu (s) ilə, Müaviyə Əli ibn Əbu Taliblə (ə) və Yezid Hüseyn ibn Əli (ə) ilə döyüşdü. Süfyani də Qaimlə (ə) döyüşəcək."*[3]

Ötən bəhsimizdə dəccalların qurucu inqilablar və islahat proqramları müqabilindəki rolu ilə tanış olduq. İndi isə Süfyaninin şeytani planlarına nəzər salmağı

1. *"Biharul-ənvar", 53-cü cild, səh. 182, 190, 192, 206, 208 və 209.*
2. *"Biharul-ənvar", 52-ci cild, səh. 182.*
3. *"Biharul-ənvar", 52-ci cild, səh. 190.*

zəruri hesab edirik. Odur ki, burada cahanşümul islahat proqramının "tərəfdar" və "müxalifləri"nin tanınması böyük əhəmiyyət daşıyır. Süfyanilər tayfasının başçısı Əbu Süfyan aşağıdakı xüsusiyyətlərə sahib idi:

1. Varlı idi; qarətkərlik, başqalarının hüququnu mənimsəmək, sələmçilik və digər qeyri-qanuni yollarla mal-dövlət sahibi olmuşdu.

2. Güclü idi; şeytani yollarla qüdrət və nüfuz qazanmışdı, Məkkə və ətraf məntəqələrdə cahil tayfalara rəhbərlik edirdi və şəxsiyyəti əsasən bu iki istiqamətdə məhdudlaşırdı.

İslamdan öncə Məkkə və ətraf məntəqələrə hakimlik etsə də, İslam zühur etdikdən sonra qüdrət və hakimiyyətini itirdi. Çünki İslamın birinci kəskin düşməni elə şeytani qüdrət və nüfuz sahibi olan Əbu Süfyan və onun kimilər idi. Onun İslamın birincidərəcəli düşməni olmasına heç də təəccüb etməməliyik.

3. O, Məkkəyə hakim olan təbəqələşmə sisteminin simvolu sayılır, bütpərəstliyi hədsiz dərəcədə himayə edirdi. Çünki bütlər "ixtilaf və təfriqə salaraq hökm sürmək", "qandallanmış zümrələri təhqir etmək" və nəticədə "Əbu Süfyan kimilərin qüdrət və hakimiyyətinin sütunlarını möhkəmlətmək" məqsədini təmin edən ən yaxşı vasitə sayılırdı.

Unun İslamla kəskin müxalifət və mübarizəsi məhz bu məsələyə əsaslanırdı. İslam onun cəhənnəmlik şəxsiyyətinin bütün sütunlarını viran etdiyindən, İslam inqilabını yatırmaq üçün var qüvvəsi ilə çalışırdı. Nəhayət, "Məkkənin fəthi" zamanı qüdrətinin son səngəri dağıldı və gizlində təhrikedici rəftarlarından əl çəkməsə də, həmişəlik olaraq kənara atıldı.

Onun bu xüsusiyyətləri – tərbiyə və irsiyyət vasitəsilə – oğlu Müaviyəyə və ondan da nəvəsi Yezidə keçmişdi. Onlar da Əbu Süfyan kimi proqramlarını fərqli şəkildə davam etdirsələr də, bu istiqamətdə uğursuz qaldılar.

Əbu Süfyan həqiqi mənada mürtəce bir şəxs idi və İslam Peyğəmbərinin (s) inqilabi hərəkatından hədsiz dərəcədə qorxurdu. Çünki İslam azğın, mürtəce və geridə qalmış cəmiyyəti dəyişmək üçün hərtərəfli tədbirə – elə bir tədbirə ki, onun icrası ilə Əbu Süfyan kimi qan içənlərə yer qalmayacaqdı – malik idi.

Buradan onun nəsli və övladlarının İslamın kökünü kəsmək və camaatı cahillik adət-ənənələrinə qaytarmağa cəhd etmələrinin səbəbi də aydınlaşır. Nəticə etibarı ilə, onlar İslam mexanizmi və onun ağır çarxları altında qalıb əzilsələr də, İslam və müsəlmanlara ağır zərbələr endirdilər.

Ötən hədislərdə göstərildiyi kimi, verilən xüsusiyyətlərə sahib olan Əbu Süfyanın İslam Peyğəmbəri (s) ilə müxalifəti yalnız İslam İnqilabına aid xüsusiyyət deyil, əksinə hər bir islahatçının müqabilində qarətçi, güclü, zülmkar, mürtəce, xurafat və cahillik adət-ənənələrinin təbliğatçısı kimi xüsusiyyətlərə sahib olan Əbu Süfyan kimilər baş qaldıracaq, islahat proqramlarını pozmağa çalışacaq, bu istiqamətdə maneə yaradacaq və ən azı, inqilabın baş vermə zamanını uzadacaqdır.

Şübhəsiz, böyük cahanşümul islahatçı imam Mehdi (ə) inqilabının müqabilində də Süfyani və onun kimilər dayanacaq və bu qurucu inqilabının qələbə və gerçəkləşməsinə xələl yetirmək və həyata keçirilmə vaxtını təxirə salmaq üçün var qüvvələri ilə çalışacaqlar. Bəlkə də, Süfyaninin Dəccalla fərqi Dəccalın şeytani

planlarını icra etmək üçün hiylə və hoqqabazlığa əl atmasında, Süfyaninin isə geniş qüdrət və imkanlarından istifadə etməsindədir. Hədislərdəki məlumata əsasən, Dəccal Əbu Süfyan, Müaviyə və Yezid kimi yer üzünün abad nöqtələrini öz hakimiyyəti altına alacaqdır.[1]

Böyük xilaskar imam Mehdiyə (ə) qarşı qiyam edən Süfyaninin də Əbu Süfyaninin nəslindən olması heç də uzaq ehtimal deyil. Rəvayətlərdə həmin məsələyə toxunulmuşdur. Nəsil-nəcabətdən də mühüm məsələ onun Əbu Süfyanın yolu və proqramlarını davam etdirməsi və eyni xüsusiyyətlərə sahib olmasıdır. Bu Süfyani də Əbu Süfyan və digər süfyanilər kimi, sonda imam Mehdinin (ə) böyük inqilabı müqabilində diz çökəcək, plan və təlaşları puça çıxacaqdır.

Ən əsas məsələ isə insanların dəccallar və süfyaniləri yaxşı tanımasıdır. Bu qəbildən olan süfyanilərin qeyd etdiyimiz əlamətlərlə yanaşı, İslam tarixində bariz nümunəsi olan digər əlamətləri də vardır. Belə ki, onlar layiqli, səlahiyyətli və əməlisaleh insanları ictimai səhnədən kənarlaşdıracaq və onların yerinə nalayiq insanları təyin edəcəklər. Dəccallar "beytül-mal"ı (ümumi əmlak) Əbu Süfyan nəslinin hakimiyyəti zamanında olduğu kimi, öz qohum-əqrəbası və tərəfdarları arasında bölərək ayrı-seçkilik edəcəklər. Onları məhz bu xüsusiyyətlərlə tanımaq və tanıtdırmaq olar.

"Dəccallar" inqilaba qarşı gizli, "süfyanilər" isə aşkar mövqedə duracaqlar. Onların hər ikisi həqiqətdə iki fərqli simaya sahib olsalar da, eyni prizmadan çıxış edirlər. Onların səfləri dağılmayınca, "inkişaf", "tərəqqi" və "inqilabın davamı"na zəmanət yoxdur!

---

*1. "Biharul-ənvar", 52-ci cild, səh. 26.*



## *İMAM MEHDİ (Ə) – PEYĞƏMBƏRİN (S) ON İKİNCİ CANİŞİNİ*

Bura qədər "böyük xilaskar" və "imam Mehdinin (ə) inqilabi proqramları" ilə bağlı geniş söz açdıq. İndi isə İslam Peyğəmbərinin (s) Əhli-beytindən (ə) qidalanan şiə etiqadında imam Mehdinin (ə) tutduğu mövqe haqqında söhbət açmaq əzmindəyik. Şiə etiqadında bu mövzu bir neçə fərqli xüsusiyyətə malikdir:

1. Şiə etiqadına əsasən, imam Həsən Əskərinin (ə) oğlu imam Mehdi (ə) İslam Peyğəmbərinin (s) on ikinci canişinidir. Adı "Mühəmməd", künyəsi "Əbülqasim", ləqəbi "Mehdi", "Sahibəzzaman" və "Qaim"dir.

2. "Mehdi" 255-ci hicri-qəməri ilində dünyaya gəlmiş, hal-hazırda yaşayır və min ildən çox yaşı vardır.

3. "Mehdi" həyatda olduğu halda, gözlərdən gizlidir və elə bu dünyada təbii həyat sürsə də, heç kim onu tanımır.

Lakin digər İslam firqələrinin (az bir qismini istisna etməklə) etiqadına əsasən, Mehdi (ə) İslam Peyğəmbərinin (s) nəslindən olduğu halda, axirəz-zamanda dünyaya göz açacaqdır. Həmin firqələr onun böyük qeyb dövründə yaşaması və uzunömürlü olmasına etiqadlı deyillər. Əlbəttə, əhli-sünnənin az bir qrupu onu imam Həsən Əskərinin (ə) oğlu hesab edir. Hər halda, şiə məzhəbinin

xüsusi etiqadı üç mühüm sualı qarşıya qoyur:

*BİRİNCİ SUAL*

Elə qədimdən belə bir sual bir çoxlarının diqqətini özünə cəlb etmişdir: "Kiminsə 120 və yaxud 150 ildən çox yaşadığını görmədiyimiz halda, insanın bu qədər ömür sürə bilməsi mümkündürmü? İnsanın təbii yaş həddini nəzərə alaraq, imam Zamanın (ə) uzunömürlü olması mümkündürmü?

*İKİNCİ SUAL*

Növbəti sual imam Zamanın (ə) uzunmüddətli qeyb dövrü ilə bağlıdır: "Nə üçün İslam cəmiyyətinin rəhbər və imamı uzun müddət qeyb pərdəsi arxasında qalmalıdır? Bunun səbəbi nədir?

*ÜÇÜNCÜ SUAL*

Bu sual ikinci sualdan fərqlənsə də, ona yaxındır və imam Zamanın (ə) qeyb dövründəki varlığının faydaları ilə əlaqəlidir: "Öz ardıcılları ilə rabitəsi olmayan və insanların görüb bəhrələnə bilməyəcəyi rəhbərin hansı faydaları ola bilər? Başqa sözlə, onun bu müddət ərzindəki həyat tərzi ictimai və cəmiyyətə rəhbərlik deyil, xüsusi və şəxsi xarakter daşıyır."

* * *

Biz burada ilk öncə verilən üç sual və etiqadla bağlı şiə mənbələrinə müraciət etməyi lazım bilirik:

Qeyd etməliyik ki, bu mövzu ilə bağlı əqli dəlillər müəyyən bir şəxsə istiqamətlənə bilməz, əksinə bu dəlillərin nəticələri də ümumi xarakter daşıyır. İmam Zamanla (ə) bağlı əhli-sünnə rəvayətləri də, adətən,

ümumi xarakter daşıyır. "Mehdi ləqəbli şəxs Peyğəmbərin (s) nəslindəndir və adı (Mühəmməd) o həzrətin adı ilə eynidir..." – ifadəsi ilə nəql olunan rəvayətləri istisna etməklə, bütün rəvayətlərdə o həzrətin atası və əcdadının adı nəql olunmuşdur və şiə əqidəsi ilə tamamilə uyğun gəlir. Aşağıdakı iki rəvayəti buna misal çəkə bilərik:

1. Məşhur əhli-sünnə alimi Şeyx Süleyman Qunduzi "Yənabiul-məvəddət" kitabında "Fəraidus-səmteyn" kitabına istinadən İbn Abbasdan belə nəql edir: "Bir nəfər yəhudi İslam Peyğəmbərinin (s) hüzuruna gəlib İslam və onun təlimləri haqqında müxtəlif suallar verdi və sualların cavablarını öyrəndikdən sonra qəlbi iman nuru ilə işıqlanıb müsəlman oldu. Onun soruşduğu suallardan biri də budur:

أخبِرني عَن وَصِيِّكَ مَن هُوَ؟ فَما مِن نَبِيٍّ إلاّ ولَهُ وَصِيٌّ، وإنَّ نَبِيَّنا موسَى بنَ عِمرانَ أوصى إلى يوشَعَ بنِ نونٍ،

"Mənə vəsi və canişinlərinin kimlər olduğu barədə xəbər ver. Elə bir peyğəmbər yoxdur ki, onun canişini olmasın. Bizim peyğəmbərimiz Musa ibn İmran da özünə Yuşə ibn Nunu canişin seçmişdir."

Peyğəmbər (s) buyurdu:

إنَّ وَصِيّي والخَليفَةَ مِن بَعدي عَلِيُّ بنُ أبي طالِبٍ(ع)، وبَعدَهُ سِبطايَ الحَسَنُ ثُمَّ الحُسَينُ، يَتلوهُ تِسعَةٌ مِن صُلبِ الحُسَينِ، أَئِمَّةٌ أبرارٌ.

*"Həqiqətən, məndən sonra canişin Əli ibn Əbu Talib (ə), ondan sonra iki nəvəm – Həsən və Hüseyn, sonra Hüseynin nəslindən olan doqquz ləyaqətli imamdır."*

Yəhudi Peyğəmbərdən (s) onların adlarını çəkməyi xahiş etdikdə, Həzrət buyurdu:

**نَعَم، إذا مَضَى الحُسَينُ فَابنُهُ عَلِيٌّ، فَإِذا مَضى عَلِيٌّ فَابنُهُ مُحَمَّدٌ، فَإِذا مَضى مُحَمَّدٌ فَابنُهُ جَعفَرٌ، فَإِذا مَضى جَعفَرٌ فَابنُهُ موسى، فَإِذا مَضى موسى فَابنُهُ عَلِيٌّ، فَإِذا مَضى عَلِيٌّ فَابنُهُ مُحَمَّدٌ، ثُمَّ ابنُهُ عَلِيٌّ، ثُمَّ ابنُهُ الحَسَنُ، ثُمَّ الحُجَّةُ ابنُ الحَسَنِ، فَهذِهِ اثنا عَشَرَ إمامًا عَدَدَ نُقَباءِ بَني إسرائيلَ،**

*"Bəli, Hüseyndən sonra oğlu Əlidir. Əlidən sonra oğlu Mühəmmədir. Mühəmməddən sonra oğlu Cəfərdir. Cəfərdən sonra oğlu Musadır. Musadan sonra oğlu Əlidir. Əlidən sonra oğlu Mühəmmədir. Ondan sonra oğlu Əli, ondan sonra onun oğlu Həsən və ondan sonra isə Höccət ibnil-Həsəndir. Onların sayı İsrail oğullarının öndərləri qədərdir – on ikidir."*

**قالَ: فَأَينَ مَكانُهُم فِي الجَنَّهِ؟**

Yəhudi dedi: "Onların cənnətdəki yeri haradır?"

**قالَ: مَعي فِي دَرَجَتي.**

Peyğəmbər (s) buyurdu: "Mənimlə eyni məqamda olacaqlar."

Yəhudi onların ölüm və şəhadətinin necəliyi barədə soruşduqda, Peyğəmbər (s) bir qədər izahdan sonra buyurdu:

**و انّ الثّانى عشر من ولدى يغيب حتّى لايرى، و يأتى على امّتى بزمن لايبقى من الاسلام الّا اسمه؛ ولايبقى من القرآن الّا رسمه فحينئذ يأذن اللّه تبارك و تعالى له بالخروج فيظهر اللّه الاسلام به و يجدّده...؛**

*"Həqiqətən, mənim on ikinci övladım qeybə çəkiləcək və gözlərdən uzaq qalacaq. Mənim ümmətim üçün elə bir zaman gələcək ki, İslamın adı və Quranın xəttindən başqa, bir şey qalmayacaq. Bu zaman Allah-Taala ona qiyam etmək üçün icazə verəcək və İslamı onun vasitəsilə aşkar edib*

*dirçəldəcək..."*

Yəhudi İslamı qəbul etdikdən sonra bir neçə beyt şeir söyləyir və İslam Peyğəmbərinin (s) canişinlərinin adlarını çəkdikdən sonra, nəhayət, onların sonuncusu haqda belə deyir:

آخرهم يسقى الظماء و هوالامام المنتظر؛

*"Onların sonuncusu (haqq və ədalət) təşnələrini sirab edəcək. İntizarı çəkilən imam odur!"*[1]

2. Yenə həmin kitabda İslam Peyğəmbərinin (s) dünyadan gedən son səhabəsi Amir ibn Vasilənin imam Əlidən (ə), o həzrətin də İslam Peyğəmbərindən (s) belə buyurduğu nəql olunur:

**يا على انت وصىّ، حربك حربى، و سلمك سلمى، و انت الامام و ابوالائمة احدى عشر الّذين هم المطهّرون المعصومون و منهم المهدى الّذى يملأ الارض قسطاً و عدلاً؛**

*"Ya Əli, sən mənim canişinimsən. Sənin müharibən mənim müharibəm, sülhün isə mənim sülhümdür. Sən imam və pak və məsum olan on bir imamın atasısan. Yer üzünü haqq-ədalətlə dolduracaq Mehdi də onlardandır."*[2]

İmam Mehdinin (ə) imam Həsən Əskərinin oğlu, imam Əlinin (ə) on birinci, imam Hüseynin (ə) isə doqquzuncu övladı olması ilə bağlı Əhli-beyt (ə) vasitəsilə çoxsaylı rəvayətlər nəql olunmuşdur və biz onların hamısını kitabın həcmini nəzərə alaraq burada qeyd etməkdən daşınır və ümumi məlumat verməklə kifayətlənirik. Əlavə məlumat üçün "Müntəxəbül-əsər fi əhvalil-imamis-sani əşər" və yaxud "Nəvide əmnu əman" (Əmin-amanlıq

---

*1. "Yənabiul-məvəddət", səh. 440.*

*2. Yenə orada, səh. 85.*

müjdəsi) kitablarına müraciət edə bilərsiniz. Bu kitablarda o həzrətin ata-babaları haqda Əhli-beyt (ə) vasitəsilə nəql olunan rəvayətlər qeydə alınmışdır: O cümlədən:

İmamların on iki nəfər – birincisi imam Əli (ə), sonuncusu isə imam Mehdi (ə) – olması haqda 91 rəvayət, imam Mehdinin (ə) sonuncu imam olması haqda 94 rəvayət, imamların on iki nəfər – onlardan doqquzunun imam Hüseynin (ə) övladı və doqquzuncusunun da həzrət Qaim olması haqda 107 rəvayət, on iki imamların adları və onların sonuncusunun Mehdi olması haqda 50 rəvayət nəql olunmuş və beləcə, bu məktəbin ardıcılları çoxsaylı sənədlərə əsasən, imam Mehdini (ə) bütün xüsusiyyətləri ilə tanıtdırmışlar.

* * *

Bildiririk ki, mötəbər əhli-sünnə mənbələrində on iki imam haqqında ümumi şəkildə qeyd olunan hədislərin sayı olduqca çoxdur. Əvvəldə qeyd etdiyimiz kimi, bu hədisləri məhz şiə etiqadını qəbul etməklə təfsir etmək olar.

Bəzi hədis mənbələrində, o cümlədən, Buxari və Termizinin "Səhih" kitablarında "isna əşərə əmirən" (on iki əmir) ifadəsi,[1] Müslim və Əbu Davudun "Səhih",[2] Əhməd ibn Hənbəlin "Müsnəd" kitablarında çoxlu silsilə sənədlərlə "isna əşərə xəlifətən" (on iki xəlifə) ifadəsi nəql olunur.

Görəsən, mötəbər kitablarda nəql olunan bu qədər hədisləri inkar etmək olarmı? Görəsən, "on iki xəlifə"nin sayını Müaviyə, Yezid və Əbdülməlik kimi Əməvi

*1. "Səhihi-Buxari", səh. 175, Misir çapı; "Səhihi-Termizi", 2-ci cild, səh. 45, Dehli çapı.*

*2. "Səhihi-Mülslim", 2-ci cild, səh. 191, Misir çapı; "Səhihi-Əbu Davud, 2-ci cild, səh. 207, "Əl-Mehdi" fəsli, Misir çapı.*

xəlifələrini və yaxud Harun, Məmun və Mütəvəkkil kimi Abbasi xəlifələrini ilk dörd xəlifəyə əlavə etməklə düzəltmək mümkündürmü?

"Həqiqətdə Peyğəmbərin (s) adlarını çəkib təriflədiyi on iki xəlifə kimdir?" – sualı üzərində "on iki imam"a inanan Əhli-beyt məktəbinin ardıcıllarından başqaları dərindən düşünməlidirlər. Heç bir insaflı şəxs İslam hakimiyyətini həqiqi məxrəcindən çıxaran, İslam təlimlərini təhrif edən, hər növ cinayətə əl atan Əməvi və Abbasi xəlifələrinə "Peyğəmbərin (s) layiqli xəlifə və canişinləri" adını verə bilməz.

### *ÜÇ MÜHÜM SUAL*

#### *1. İMAM MEHDİ (Ə) VƏ UZUNÖMÜRLÜLÜK*

Sual: Elə keçmişdən başlayaraq imam Mehdi (ə) ilə bağlı bir sıra suallar çoxlarının müzakirə obyektinə çevrilmişdir. Məsələn, əgər o, imam Həsən Əskərinin (ə) oğludursa və 255-ci hicri-qəməri ilində doğulub, indinin özündə də yaşayırsa, onda, onun mindən çox yaşı olmalıdır. Halbuki nə gündəlik müşahidələrimizdə belə uzunömürlülüyü görə bilirik, nə onu müasir elm təsdiqləyir, nə də tarixdə onun oxşarını xatırlayırıq!

Biz də bu suala qoşularaq deyirik: Bəli, həyatda gördüyümüz adi ömür yaşı, adətən, yüzü keçmir və 120 il yaşayanlara çox az təsadüf olunur. Günümüzdə 150-160 il yaşayanlar isə dünyanın nadir insanlarından sayılırlar. Lakin uzunömürlülük məsələsinə dəqiq elmi araşdırmalar çərçivəsindən baxmalı və aşağıdakı sualların dəqiq cavabları verilməlidir:

Görəsən, təbii ömrün sabit həddi varmı? Müasir

fiziologiya bu haqda nə deyir?

Görəsən, uzunömürlü olmaq üçün nə etmək lazımdır?

Görəsən, indiyə qədər ruhən və cismən başqalarından tam fərqlənən istisna insanlar görünübmü?

Görəsən, tarixdə doğrudan da uzunömürlü insanlar olubmu?

Bütün bunlarla yanaşı, bu sualı irəli sürənlərin də kimliyi və onların dini-məzhəbi məsələlərlə bağlı fikri də araşdırılmalıdır.

*GÖRƏSƏN, TƏBİİ ÖMRÜN SABİT HƏDDİ VARMI?*

Hər bir varlığın müəyyən ömrü vardır. Məsələn, ardıcıl işləyən bəzi batareyaların ömrü 24 saatdır, yaxud bir elektrik çırağı min saat işlədikdən sonra yanır və yaxud bir avtomobil 20-30 il işləyir. Həmçinin insanın düzəltdiyi bir çox əşyaların da, təqribən, müəyyən bir ömrü vardır. Təbiət aləmində də müxtəlif yaş hədləri vardır. Məsələn, atomların daxilində elə zərrəciklər var ki, mində bir saniyə, bəzən də yüz milyonda bir saniyədən çox yaşamır. Bununla belə, yer kürəsinin yaşının beş milyard il olduğu ehtimal verilir!

İndi isə görək, insanın orta yaş həddinin 80 il, göyərçinin 5 il, həşəratların br neçə ay, çinar ağacının 150 il və bir gül kolunun 6 ay olduğunu deyə bilərikmi?

Keçmişdə alim və tədqiqatçılar canlı varlıqlarda sabit təbii yaş həddinə etiqadlı idilər. Məsələn, Pavlolovun nəzərincə, insanın təbii ömrü 100 il, Meçinkovun nəzərincə 150-160 il, alman həkimi Kuflandın nəzərincə 200 il, məşhur fizioloq Flogerin nəzərincə 600 il və nəhayət, ingilis alimi və filosofu Beykenin nəzərincə 1000 ildir. Lakin bu nəzəri (təbii ömrün sabit həddi) müasir fizioloqlar rədd

edirlər. Kolumbiya universitetinin müəllimi professor Esmis yazır: "Səs divarı aradan götürüldüyü və onun sürətindən yüksək sürətlə nəqliyyat vasitələri düzəldiyi kimi, bir gün gələcək ki, insanın yaş həddi də sınacaq və indiyə qədər gördüyümüzü üstələyəcək!"

Bir sıra alimlərin laboratoriyalarda müxtəlif bitki və heyvanlar üzərində apardıqları analizlər bu nəzərə aydınlıq gətirir. Onlar bəzən, canlı bir varlığın ömrünü on iki dəfə artıra bilmiş, məsələn, iki həftədən artıq yaşamayan bir bitkinin ömrünü altı ay uzatmağa müvəffəq olmuşlar. Bəziləri bir milçəyin ömrünü "doqquz yüz" dəfə artıra bilmişlər. Əgər bir gün bu qəribə və qeyri-adi artımın insana da tətbiqi mümkün olarsa, onda, bir fərd 700-800 il ömür sürəcəkdir. Müasir fizioloqlarda insanın ömrü ilə bağlı ciddi araşdırmalar aparılır. Təbiblərin nəzərincə, ömrün qida və iqlim şəraiti ilə sıx rabitəsi vardır. Onlar adi balarısından neçə dəfə çox yaşayan ana balarısının uzunömürlülüyü üzərində tədqiqatdan sonra bu qənaətə gəlmişlər ki, bu məsələ fəhlə arıların ana arı üçün hazırladıqları xüsusi (adi baldan fərqlənən) qida ilə əlaqəlidir. Bəzi tədqiqatçılar da insanın ömrünü artırmaq üçün belə qida növü istehsal etmək fikrindədirlər. Psixoloqların nəzərinə görə, insanın uzunömürlü olması onun etiqadı və təfəkkür tərzi ilə bağlıdır və yaxşı əhval-ruhiyyə və sağlam əqidə onun ömrünü artırır. Bir qrup həkimlərin nəzərinə əsasən, insanın orqanizmindəki "metabolizm"in gərginliyi nəticəsində yaranan qocalıq bir növ xəstəlikdir. Əgər sağlam qida və güclü dərmanlar vasitəsilə ona qalib gələ bilsək, qocalığı aradan qaldıracaq və uzunömürlülüyü ərməğan verəcəyik.

Bu faktlar göstərir ki, "təbii ömrün sabit həddi" bir

ehtimaldır və canlı varlıqlar üçün müəyyən yaş həddi nəzərdə tutmaq çətindir. Məxsusən, səma yollarının bəşəriyyətin üzünə açılması, kosmosa uçuşlarının genişlənməsi ilə uzunömürlülük məsələsinə ciddi diqqət yetirilir. Aydındır ki, qısa ömür böyük kosmik məsafəni ötmək üçün münasib deyil! Planetlər arasındakı məsafələri sovuşmaq üçün mindən çox, daha uzaq yollar üçün on minlər il ömür lazımdır. Odur ki, bəzi alimlər uzunömürlülük üçün yeni fikirlərə düşür, məsələn, dondurulma sistemindən istifadəni təklif edirlər. Bu məsələ, bəlkə də, ilk dəfə donmuş vəziyyətdə öz təbii həyatını qoruyan canlı varlıqların müşahidəsindən sonra meydana gəlib. Məsələn, neçə il bundan əvvəl şimal buzlu okeanından beş min yaşı olan donmuş bir balıq tapıldı. Öncə onu ölü təsəvvür etsələr də, buzu açıldıqdan sonra son dərəcədə təəccüblə hərəkətə başladı və onun bu beş min il ərzində diri qaldığı məlum oldu. Bundan sonra bu metodun insan üzərində tətbiqi fikri irəli sürüldü. Məsələn, əlçatmaz bir nöqtəyə göndərilən kosmik gəminin sərnişini dondurulur və yüz il və yaxud min ildən sonra nəzərdə tutulan məkana çatdıqda, avtomatik şəkildə bədəni tədricən adi vəziyyətə qayıdır. Bu metod kosmik uçuşlarla bağlı uzunömürlülük probleminin həlli üçün əlverişli görünür. Elə indinin özündə də həkimlər "xərçəng" kimi əlacsız xəstəliyə tutulanlar üzərində bu sistemin icra olunmasını təklif edirlər. Belə ki, həmin xəstələr dondurulmuş vəziyyətdə saxlanılır və xəstəliyinin əlacı tapıldıqda, adi vəziyyətə qaytarılaraq müalicə edilir.

Bütün bu təklif və nəzərlərdən məlum olur ki, müasir elm nöqteyi-nəzərindən insan və digər canlı varlıqlar üçün

sabit yaş həddi yoxdur və bunu dəyişmək mümkündür.

*MÜSTƏSNA HALLAR*

Göründüyü kimi, insanın xilqətinə uyğun olaraq sabit yaş həddini fərz etsək də, onun istisnasız ümumi xarakter daşıdığını demək çətindir. Çünki həmişə canlılar arasında elmə məlum olan qanun və standartlarla uzlaşmayan qeyri-adi nümunələr mövcud olmuş və elm onları izah etməkdə aciz qalmışdır. Məsələn, insanlar arasında hiss, idrak və qeyri-adilikləri ilə başqalarından seçilənlər az olmayıb. Hətta müəyyən yaş həddi olub, bütün qanun və ölçüləri aşan ağac və heyvan növlərinə də rast gəlinir. Buna aşağıdakı nümunələri misal göstərmək olar:

1. Şotlandiyada yaşı təqribən beş min il və gövdəsinin 90 haçadan ibarət qəribə bir ağac vardır.

2. Kaliforniyada yüz metr uzunluğu, on metr gövdəsi və altı min il yaşı olan bir ağac hamının diqqətini özünə cəlb edir.

3. Kanari adasında da alimlərin diqqətini özünə cəlb edən bir ağac vardır. Deyilənlərə görə, bu ağac həmin ada kəşf edildiyi vaxtdan (beş yüz il bundan əvvəl) indiyə qədər dəyişilməyib. Onun uzunömürlü olduğu nəzərə çarpır və bu müddət ərzində onda azacıq belə dəyişiklik görünmür. Odur ki, bəziləri onun həzrət Adəmin (ə) xilqətindən öncə mövcud olduğunu təsəvvür edirlər!

4. Bioloqlar üç min yaşı olan balıqlar belə kəşf etmişlər.

5. Son vaxtlar insanlar arasında qeyri-adi işlər görməklə hamının təəccübünü doğuranlar haqda çox eşidilir. Yayılan xəbərlərdə bir cavan oğlanın qeyr-adi şəkildə heç bir əl hərəkəti olmadan baxışı ilə qaşıq və s. metal əşyalarını əydiyini görməyənlər bəlkə də

azdır! O, qeyri-adi işini İngiltərədə kütləvi informasiya vasitələrinin qarşısında icra etmişdir, yaxud şüşəni qida tək yeyən iranlı bir cavanın mətbuatda tərcümeyi-halını oxumayan az adam tapılar! Bəziləri də qeyri-adi qüvvə ilə vəhşi və yırtıcı heyvanları ram edir və asanlıqla onlara yaxınlaşır. Məşhur təbib və filosof İbn Sinanın belə dediyi nəql olunur: "Məktəb illərində sinifdə deyilənləri dərhal əzbərləyirdim və on yaşında ikən o qədər elmə yiyələndim ki, Buxarada hamıda təəccüb doğurdum. Artıq 12 yaşımda Buxara şəhərində dini hökm verirdim. 16 yaşımda tibb sahəsində "Qanun" kitabını yazdım." (Bu kitab hələ də Avropanın tibb universitetlərində dərslik kitabı kimi tədris edilir.) Onun görmə və eşitmə qabiliyyəti ilə bağlı heyrətamiz əhvalatlar nəql olunur ki, maraqlananlar "Hədiyyətul-əhbab" və digər tarix kitablarına müraciət edə bilərlər.

Qeyd etdiyimiz bu istisna hallar barədə alimlər də bir qənaətbəxş izahdan acizdirlər. Lakin belə qeyri-adilikləri kimsə əsassız rədd edə bilməz və buradan ümumi bir nəticə çıxarmalıyıq. Belə ki, adətən, bitkilər, heyvanlar və insanlara xas əlamətlər heç vaxt pozulmayan əbədi ölçülər deyil və bu istisna fenomenlər heç də qeyri-təbii sayılmır. Qəbul etməliyik ki, elmlərin bizə öyrətdiyi meyarlar əksəriyyətə aid olsa da, bəziləri onlardan istisnadır.

### *BU ŞÜBHƏNİ İRƏLİ SÜRƏNLƏR KİMLƏRDİR?*

Əgər imam Mehdinin (ə) uzunömürlülüyü barədə şübhələr materialistlər tərəfindən irəli sürülərsə, onların cavabı ötən bəhslərdə qeyd edildi. Lakin həzrət İsa (ə) və həzrət Musanın (ə) ardıcılları və yaxud əhli-sünnə qardaşları kimi allahpərəstlərə qeyd etdiklərimizlə

yanaşı, aşağıdakı mətləbləri də yetirməyi lazım bilirik:

1. Onlar Allahın yenilməz qüdrət sahibi olduğunu və göndərdiyi elçilərin möcüzə və qeyri-adi işlər göstərdiyinə inanırlar. Başqa sözlə, Allahı təbiət və onun qanunlarına hakim bilirlər. Görəsən, əlacsız xəstələrin şəfası, yaxud həzrət İsanın (ə) ölüləri diriltməsi və yaxud həzrət Musanın (ə) əsası ilə baş verən heyrətli möcüzələr və digər qeyri-adi işlər təbiətə hakim qanun və ölçülərlə uzlaşmırmı? Şübhəsiz, bütün məzhəb ardıcılları belə fenomenləri izah edərkən yekdilliklə deyirlər ki, bütün səbəblər Allahın əmri və izni ilə təsir göstərir və hər bir iş Onun iradə və istəyindən asılıdır. Onun iradəsi maddi səbəblərin fövqündədir. Tutaq ki, elə əzəldən insanlar öldükdən sonra yenidən dirilsəydi, yaxud anadangəlmə korlar zaman ötdükcə sağalsaydı və yaxud insanın orta yaş həddi min il olsaydı, kimsə təəccüb edərək bunu əqlin hökmünə qarşımı biləcəkdi?... Şübhəsiz, cavab mənfidir! Demək, belə halları əql və məntiqə qarşı bir hadisə yox, əksinə adi bir prosesin digəri ilə əvəz edilməsi kimi qəbul etməliyik.

2. Məsihilərin etiqadına əsasən, həzrət İsa (ə) çarmıxa çəkilərək öldürülüb dəfn edilsə də, bir neçə gündən sonra səmaya qalxaraq hal-hazırda yaşayır. Müsəlmanlar da Qurani-Kərimə əsaslanaraq, həzrət İsanın (ə) çarmıxa çəkilməsi və qətlə yetirilməsini qəbul etməsələr də, onun hazırda diri olduğunu deyirlər. Əgər bu kimi istisnalar əqlin hökmünə əks olmadığı, İsanın (ə) ölümdən sonra yenidən dirilib, təqribən, iki min il yaşaması mümkün olduğu halda, ona bənzər bir halı necə mümkünsüz və məntiqsiz sayaq?!

3. Heç bir müsəlman Nuh peyğəmbərin uzun ömür

sürdüyünü inkar etmir. Qurani-Kərimdə açıq-aşkar onun peyğəmbərlik dövrünün 950 ildən ibarət olduğu göstərilir:

وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ فَلَبِثَ فِيهِمْ أَلْفَ سَنَةٍ إِلَّا خَمْسِينَ عَامًا...

***"Həqiqətən, Biz Nuhu öz qövmünə (peyğəmbər) göndərdik. Beləliklə, onların arasında doqquz yüz əlli il qaldı..."***[1]

Xızrın (ə) uzunömürlü olması məsələsi də digər nümunələrdən biridir.

Maraqlıdır ki, bəziləri bunları qəbul etdikləri halda, imam Mehdinin (ə) uzunömürlülüyünə dair şiə etiqadı ilə rastlaşdıqda, heyrət barmağını ağzına qoyur, başını inkar əlaməti olaraq tərpədir və sanki ağlasığmaz və məntiqsiz bir məsələ ilə üzləşdiyini bildirirlər! Halbuki bu məsələ allahpərəstlərin Allahın qüdrəti və ecazkarlığı ilə bağlı dini-məzhəbi etiqadları ilə yanaşı, müasir elmlərlə də tam uyğundur. Əlbəttə, baxış və mülahizələrimizdə kor-koranə təəssübkeşlik və adət-ənənələrdən əl çəkməyi, dəlil və məntiqə təslim olmağı, bəhslərdə obyektivliyi unutmamalıyıq!

Biz mətbuatda avstraliyalı bir kişinin ömründən 140 il keçsə də, bir dəfə olsun xəstələnmədiyini, yaxud kolumbiyalı bir kişinin 167 yaşında cavanlığını qoruduğunu və yaxud 253 yaşlı çinli bir kişinin saçının ağarmadığını oxuduqda, təəccüblənməyə bilmirik. Əgər bu hadisələr mətbuatda da bir xəbər kimi qeyd edildikdə, qəti qəbul edirik. Amma nə üçün "القائم هو الّذي اذا خرج كان في سنّ الشيوخ و منظر الشّبان؛ قوّی في بدنه" (Həzrət Qaim (ə) qiyam etdiyi zaman yaşlı olsa da, siması cavan və qüvvətli görünəcək) – kimi bir hədisi oxuduqda, təəccüblənməliyik? Həmçinin

1. *"Ənkəbut" surəsi, ayə 14.*

Nuh (ə) və İsanın (ə) uzunömürlü, İbn Sinanın qeyri-adi xüsusiyyətlərə sahib olduğunu, cavan bir oğlanın baxışı ilə metalı əydiyini deyənlərin təfəkkür tərzinə və bəzi ağac və heyvanların uzunömürlü olmasına təəccüb etmiriksə, nə üçün imam Mehdinin (ə) uzunömürlü olmasından söz düşdükdə, bəziləri etiraz əlaməti olaraq təəccüblənirlər?

Bir sözlə, belə sadə və ya qərəzli baxışlar insaf və məntiqdən uzaqdır.

*2. QEYB DÖVRÜNÜN UZANMASI*

Müvafiq mövzu ilə bağlı növbəti sual imam Mehdinin (ə) qeyb dövrünün uzun çəkməsi ilə bağlıdır. Sual olunur ki, dünya zülm və fəsadla dolduğu halda, nə üçün imam Mehdi (ə) zühur etmir? Nə üçün o həzrət öz qiyamı ilə dünyaya haqq və ədaləti ərməğan gətirmir? Axı haçana qədər zülm, fəsad, haqsızlıq, hiyləgərlik və hoqqabazlığın şahidi olacağıq? Nə üçün o həzrətin qeyb dövrü uzun çəkməlidir? Axı o həzrət nəyin intizarındadır? Bir sözlə, bunda məqsəd nədir? Böyük xilaskarın zühuruna etiqad bəsləyən digər məzhəblər də onun bir gün qiyam edib dünyanı haqq-ədalətlə dolduracağını deyirlər. Onlarda da sual yaranır ki, nə üçün o böyük xilaskar indiyə qədər doğulmayıb? Əgər doğulubsa, nə üçün qiyam edib susuz dünyanı haqq-ədalətlə sirab etmir?

Bu sualın həm qısa, həm də geniş cavabı vardır. Qısa cavabı odur ki, dünyamiqyaslı bir inqilabın gerçəkləşməsi üçün layiqli və səlahiyyətli rəhbərlə yanaşı, ümumi hazırlıq lazımdır. Təəssüflər olsun ki, hələ də dünya belə bir hakimiyyəti qəbul etməyə hazır deyil! Hazırlıq yarandıqda, onun qiyamı da qəti olacaq!

***İzah:***

1. Öncə qeyd etdiyimiz kimi, imam Mehdinin (ə) qiyamı da ilahi peyğəmbərlərin qiyamı tək təbii səbəb və hadisələrlə əlaqədar baş verəcək və möcüzə və qeyri-adi işlər yalnız istisna xarakteri daşıyacaq. Odur ki, səmavi rəhbərin islahat proqramlarında onlara önəm verilməyəcək. Doğrusu, hər şeydən əvvəl bütün ilahi elçilərin silahı layiqli insanların tərbiyəsi, lazımi məsləhətlər, ümumbəşəri tədbirlər, dini əhkamlar çərçivəsində hər bir ali məqsədin həyata keçməsi və bərpasından ibarətdir. Onların ideyaları və ya hərəkatı heç vaxt möcüzə və yaxud düşmənin geri çəkilməsilə ölçülüb-biçilmir. Demək, dünyamiqyaslı ədalətin bərpası qlobal şərait tələb edir.

2. Görünür, hələ də dünya səviyyəsində belə bir hazırlıq mövcud deyildir:

***a) Psixoloji hazırlıq:*** İnsanlar mütləq dünya səviyyəsində zülm və ədalətsizliyin acısını və mövcud şəraitdə ictimai ədalətin bərpasının qeyri-mümkünlüyünü dadmalı, ilahi meyarlarsız həqiqi mənada heç bir çətinliyin aradan qalxmayacağını, əksinə günbəgün qalaq-qalaq üst-üstə töküləcəyini duymalıdırlar. Onlar bu böhranların öz məhsulu olduğunu və onların həllində aciz qaldıqlarını hiss etməlidirlər. Arzu edilən böyük və ali məqsədlər ruhsuz maddiyyat çərçivəsində yox, əsl insani dəyərləri qiymətləndirə bilən fövqəl-təbii ölçülər sayəsində mümkündür. İnsanların baxışları o qədər inkişaf etməlidir ki, tərəqqini yalnız dünyagörüşündə, bütün düşüncələri aşan ideya və amallarda görməlidirlər. Bu dünyanın ötəri zər-zivəri heç vaxt səadət və xoşbəxtlik gətirə bilməz. Onlara nə qədər əhəmiyyət verildikcə, bir o qədər həyat bulanır, alt-üst olur. Bir sözlə, insanlar susamalıdırlar və

susamayınca çeşmələrə doğru üz tutmayacaqlar. Yaxud arzu olunmayan həyatı birinə bəxş etmək bihudə işdir.

Burada belə bir sual yaranır ki, nə vaxt bəşəriyyətdə belə bir arzu baş qaldıracaq? Cavab belədir ki, bu məsələ zamanla əlaqəli bir məsələdir. Bir də ki, bu haqda bir fikir yaradan agah insanlar da olmalıdır. Hər halda, bunun özünün də zamana ehtiyacı var!

***b) Mədəni və texnoloji təkamül:*** Bütün dünyanı bir bayraq altına yığmaq, hegemonların əlini qırmaq, təlim-tərbiyəni genişləndirmək, ayrı-seçkiliyə son qoymaq, normal həyatın bərpası, elmi potensiyanı yüksəltmək, müasir sənaye və texnologiyanın sayəsində bütün dünyanın problemsiz müntəzəm rabitəsinin təşkili üçün cahanşümul islahat proqramları böyük əhəmiyyət daşıyır. Zühur əsrində sənaye və texnologiya, xüsusilə, nəqliyyat və informasiya vasitələri o qədər inkişaf edəcək ki, dünyanın böyük qitələri həqiqətdə bir-birinə yaxın şəhərlər, şərq və qərb bir ev kimi görünəcək, zaman və məkan ölçüləri aradan qalxacaq... Sənaye və texnologiya sahəsində belə bir inqilab yüksək məlumat, ruhi və fikri hazırlıq tələb edir. Həqiqətdə, mütərəqqi texnologiya ümumdünyəvi islahat aparmaq və ideal quruluşa çatmaq üçün bir vasitədir.

***c) İnqilab hissinin çiçəklənməsi:*** Böyük islahatçının ordusunun özəyini təşkil edərək cəhənnəmi xatırlayan bu dünyada insanlara baharın gəlişini xəbər verən qrupun təşkili kimi bir məsələ böyük əhəmiyyət daşıyır. Dövrə uyğun mütərəqqifikirli, qayğıkeş və fədakar insanlar tərbiyə olunmalı, hətta neçə nəsil bir-birinin ardınca ötüb-keçməlidir. Bunun da zamana ehtiyacı var! Hər halda, onlar birbaşa və ya dolayı yolla inqilabın rəhbərinə

tabedirlər. Hədislərdə xalqların sınaqlardan keçirilməsi, səlahiyyətli şəxslərin seçilməsinin imam Mehdinin (ə) qeyb dövrünün uzun çəkməsinin səbəblərindən biri kimi qeydə alınması məhz bu məsələyə görədir. İlahi sınaqlar həqiqətdə istedadların çiçəklənməsi, ləyaqət və səlahiyyətlərin aşkar olması, daha doğrusu, haqq ilə batilin bir-birindən ayrılması üçündür. Başqa sözlə, məqsəd tərbiyə, təkamül və hazırlıq yaratmaqdır.

### *3. QEYB DÖVRÜNDƏ İMAMIN VARLIĞI*

Növbəti şübhə imam Mehdinin (ə) varlığı ilə bağlıdır. Belə ki, rəhbər olan şəxs ardıcılları ilə daim rabitədə olmalıdır. Nəzərlərdən gizli olan kəs vəzifəsini necə ifa edə bilər?

Başqa sözlə, imam Mehdinin (ə) qeyb dövründə həyat tərzi tamamilə xüsusi xarakter daşıyır. Buna əsasən, onun insanlara təsiri nədədir? İnsanlar onun varlığından nə kimi faydalanır? Görəsən, o, qeybə çəkilərək tamamilə görünməzmi olub?

* * *

Şübhəsiz, bu sual hamının marağını doğura bilər. Bəziləri bunu elə belə də təsəvvür edirlər.

Deməliyik ki, imam Mehdi (ə) qeybə çəkilməklə yoxa çıxmayıb. Onun həyatı digər insanların həyatı tək təbiidir; bu fərqlə ki, ömrü uzundur. O, bizimlə birgə yaşayır və həyatında istisna bir hal, yalnız uzunömürlü olmasıdır. O, cəmiyyətdə tanınmaz şəkildə yaşayır və onun qeyb dövrü ilə bağlı bundan başqa bir söz deyilməyib. "Görünməz" ifadəsi isə daim təhrifə məruz qalıb.

Suala bir də qayıdıb deyirik: Adi bir insanın bu sayaq həyat tərzi keçirməsi anlaşılasıdır, amma bir rəhbərin, özü

də ilahi rəhbərin tanınmaz yaşaması qəbul olunasıdırmı? Öz müəllimini tanımayan şagird, həkimini tanımayan xəstə və yaxınlığındakı su bulağından xəbərsiz susuz ondan necə faydalana bilər?!

Bu sual elə keçmişdən, hətta imam Mehdinin (ə) təvəllüdündən qabaq, imamların dövründə də gündəmdə olmuşdur. Belə ki, onlar imam Mehdi (ə) və onun qeyb dövrünün uzun çəkəcəyindən danışdıqda, bu sualla qarşılaşır və ona cavab verirdilər. İmam Mehdinin (ə) qeyb dövründəki həyat və varlığı ilə bağlı əlimizə çatan hədislərin içərisində qısa bir hədis daha çox diqqəti özünə cəlb edir və demək olar, bu böyük sirrin açarı sayılır. İslam Peyğəmbəri (ə) "İmam Mehdinin (ə) qeyb dövründə varlığının faydası nədir? – sualına belə cavab verir:

**اى والّذى بعثنى بالنبوّة انّهم ينتفعون به و يستضيئون بنور ولايته فى غيبته كانتفاع النّاس بالشّمس و ان جلّلها السّحاب؛**

*"Bəli, məni peyğəmbər göndərən Allaha and olsun, insanlar qeyb dövründə onun rəhbərlik nurundan buludlar arxasında gizlənən günəş tək faydalanacaqlar."*[1]

Bunun anlaşılması üçün öncə buludlar arxasında qalan parlaq günəşin faydasını bilməliyik. Günəşin şüaları bəzən aşkar, bəzən də gizlidir. Bu məsələ orbitlə əlaqədar vücuda gəlir. Onun batıb-çıxması, aşkar olub və ya buludlar ardında gizlənməsi kimi hal və proseslərinin günəş sistemində nə kimi rol oynamasını fizika, astrofizika və s. elmlərdə aramalıyıq. Bu haqda söz o qədər dəqiq və genişdir ki, bir-iki cümlə ilə onu ifadə etmək olmaz. Amma günəşin işığının həyatda rolu hamıya aydındır.

1. *"Biharul-ənvar", 52-ci cild, səh. 93.*

Bitkilər, heyvan və insanlar – bir sözlə, canlıların həyatı, onların qida və artımı, hiss və hərəkəti, torpaqların münbitləşməsi, dənizlərin dalğalanması, küləklərin əsməsi, yağış və qarın yağması, quşların oxuması, güllərin çiçəklənməsi, insan ürəyinin döyüntüsü, damarlarda qanın axması və... bütövlükdə, birbaşa və dolayı yolla saçan günəş işığından asılıdır və onsuz hər şey məhv olacaq.

İmam Mehdinin (ə) görünməz varlığının mənəvi şüaları da qeyb buludları arxasından daim bəşəriyyətə nur saçır, həyat bəxş edir. Onun biz başa düşdüyümüz təsirləri haqda aşağıdakıları deyə bilərik:

***1. Ümid hissi:*** Döyüş meydanlarında tərəflərin bayraqlarının dalğalanması böyük təsirə malikdir, əsgərlərə təskinlik verir, fədakarlıqlarını artırır, yaxud bacarıqlı rəhbərin sağ olduğu vaxta qədər, hətta xəstəlik yatağında olsa da, cəmiyyətin nizam-intizamı pozulmur.

İmam Mehdiyə (ə) etiqad bəsləyənlər onu öz aralarında görməsələr də, özlərini əsla tək-tənha hiss etmir, həmişə onu qəlblərində yaşadır və zühura inamları günü-gündən artır. Bu təfəkkür tərzinin fərdi və ictimai, ruhi-psixoloji təsiri inkaredilməzdir. Çoxsaylı hədislərə görə, o, qeyb dövründə daim öz ardıcıllarının kənarındadır və Allah tərəfindən ilham alaraq onların vəziyyətindən agah olur. Yazılanların təbirincə desək, hər həftə möminlərin əməl dəftərinə nəzər salır və sözləri, əməlləri və rəftarlarından xəbərdar olur.[1] Bu təfəkkür tərzi onları büdrəyişlərdən saxlayır, hər bir işdə özlərinə nəzarəti unutmurlar.

***2. Dinin dayağı:*** Tarixin vəsfolunmaz şəxsi imam Əli (ə) hər bir əsrdə ilahi rəhbərlərə ehtiyacın zəruriliyi ilə bağlı belə buyurur:

*1. "Təfsiri-Burhan", "Töbvə" surəsinin 105-ci ayəsinin təfsiri.*

**اللّهمَّ بلى لا تخلو الارض من قائم للّه بحجّة امّا ظاهراً مشهوراً و امّا خائفاً مغموراً لئلّا تبطل حجج اللّه و بيّناته؛**

*"Bəli, yer üzü heç vaxt Allahın hökm və nişanələrini qoruyan nümayəndəsiz qalmayacaq; istər aşkar olsun, istərsə də gizli."*[1]

Məsum rəhbər dinin kamil timsalıdır. O, toxunulmaz varlıqdır və Allahın dəlil və aydın nişanələri onun vücudunda əks edilib.

***3. Fədakar qüvvələrin yetişdirilməsi:*** Qeyd olunduğu kimi, İmamın (ə) qeyb dövründə insanlarla rabitəsi tam kəsilmir. Hədislərə əsasən, tarix boyu yüksək iman və ixlasa sahib olan az bir qrup onunla rabitədədir və onlar onun cahanşümul islahat proqramları çərçivəsində hərəkatının ön cəbhəsini təşkil edirlər. Onların hər biri dünyadan gedənə qədər təlim və hazırlıqlarını gələcək nəslə ötürür, onların tərbiyəsində mühüm rol oynayırlar. İmamın özü də bu işdə yaxından iştirak edir, cəmiyyətə qoşularaq layiqli insanları seçir, onları inqilaba hazırlayır. İmam (ə) məsləhət bildikdə, özünü onlara tanıdır və belə görüş səadətinə nail olurlar, bəziləri neçə an, bəziləri neçə saat, bəziləri də neçə gün və ya daha artıq. Aydın ibarə ilə desək, çoxlarına İmam (ə) qara buludlar altından görünməzdirsə, bəzilərinə aydın günəş kimi parlaqdır.

***4. Mənəvi nüfuz:*** Peyğəmbər və imamlar yer üzündə Allahın nümayəndələri olduğundan "təkvini qüvvə" adlı qeyri-adi nüfuza malikdirlər. Belə ki, onlar Allahla bəndələri arasında qırılmaz rabitəni təşkil edilər. Odur ki, istənilən an qəlblərə və düşüncələrə nüfuz etməyə qadirdirlər. Bu rabitənin adi insanlara da xalis imanla müşahidəsi mümkün bir işdir. Bir çox ilahi rəhbərlərin

*1. "Nəhcül-bəlağə", qısa kəlamlar 147.*

sərgüzəştlərində göründüyü kimi, bəzən onların günahkar şəxslərlə kiçik bir rabitəsi həyat tərzini dəyişmiş, necə deyərlər, 180 dərəcə dönərək tamamilə yeni həyat yolu seçmiş, birdəfəlik pak, mömin və fədakar insanlara çevrilmişlər! Belə gözlənilməz dönüş adi təlim-tərbiyənin yox, görünməz psixoloji təsir və cazibənin məhsuludur və bəzən onu "şəxsiyyətin təsiri" adlandırırlar.

Həyatda övliyaların və ilahi şəxslərin ixtiyarsız olaraq təsiri altına düşüb dəyişilənlərin sayı az deyildir! Məsələn, Peyğəmbərin (s) nüfuz və cazibədarlığı haqda deyilənlərin sayı hədsiz-hesabsızdır və onun qəddar düşmənləri isə bunu sehr və cadu adlandırırdılar. Yaxud imamlarda olan hikmət, məram, comərdlik və s. səciyyələrə valeh olmayanlar az tapılardı. Bütün bunlar peyğəmbər və imamların "təkvini vilayət" məqamından qaynaqlanan mənəvi təsirlərlə bağlıdır. Bunun kiçik nümunələri mənəviyyata yüksəlmiş din alimi və övliyalarda da müşahidə olunur. Hər halda, bu məsələ imam Mehdi (ə) barədə aydındır və onun qeyb pərdəsi arxasından nüfuzu danılmaz bir həqiqətdir.

# BÖYÜK XİLASKARIN İNQİLAB YOLU



## *O, QILINCLA QİYAM EDƏCƏKMİ?*

Məlum olduğu üzrə, düşmənə qalib gəlməyin ən mühüm şərti qüvvələrin üstünlüyüdür. Hərbi qüvvələrlə yanaşı, ruhi-psixoloji vəziyyət, hədəfə inam, iqtisadi və ictimai bünövrənin möhkəmliyi də bu məsələdə həlledici rola malikdir. Məğlubiyyətə uğrayan və əsarət zəncirlərinə vurulan cəmiyyət ya zəfər amillərindən qəflət etmiş, ya da qüvvələrin hesablanmasında xətaya uğramışdır.

Bu şərti nəzərə alaraq qarşıya böyük xilaskarın qiyamı ilə bağlı bir sıra suallar çıxır:

1. Görəsən, dünyamiqyaslı ədalətin bərpası, haqq və ədalət carçılarının hegemon qüvvələrə qələbəsi üçün bu böyük inqilabın rəhbəri keçmiş soyuq silahlardan istifadə edəcəkmi? Əgər cavab müsbət olarsa, onun müasir silahlar müqabilində qələbəsi necə mümkündür? Görəsən, o, elə inkişaf etmiş ölkələrin ixtiyarında olan müasir silahlarla mübarizə aparacaqmı? Bu silahlar necə və hansı vasitələrlə onun və tərəfdarlarının ixtiyarında qoyulacaq?

Bundan əlavə, İslam rəvayətlərində belə buyurulur: "O, qılıncla qiyam edəcək." Bu ifadədən birinci ehtimalın, yəni keçmiş soyuq silahlardan istifadənin həqiqətə daha yaxın olduğu anlaşılır. Buna əsasən, əvvəlki suallar yenə təkrarlanır:

Müasir silahları tamamilə məhv edib soyuq silah əsrinə qayıtmaq mümkündürmü? Görəsən, ehtimala əsasən, çağdaş dünyamız atom müharibəsi ilə dağıdıldıqdan sonra imam Mehdi (ə) keçmiş silahlarla qiyam edəcəkmi? Bu ehtimalı qəbul etmək olarmı?

3. Ümumiyyətlə, nur zülmətə və ədalət zülmə qələbə çaldığı zaman müasir maşınlı (robotlaşdırılmış) dünyamız məhv olub aradan gedəcək və insanlar bir neçə əsr keçmişə qayıdacaqmı? Sivilizasiyanın bu şəkildə geriləməsi əqli baxımdan qəbul olunasıdırmı?

Qeyd edək ki, müasir silahlar maşınlaşmış həyatın mənfi cəhətləri və ondan törənən təhlükələrin qarşısını almaqla yanaşı, sürətlə inkişafdadır. Başqa sözlə, maşınlaşmış dünya təkamülə doğru irəlilədikcə xalisləşir.

* * *

Bu sualları cavablandırmaq üçün, hədis mənbələri ilə yanaşı, əqli dəlillərdən də istifadə etmək lazımdır. Əqlin hökmünə əsasən, geri qayıtmaq nə mümkündür, nə də məntiqəuyğun. Bu məsələ insanların yaradılış məqsədi və həyatın dialektika qanununa ziddir. Nəticədə, cəmiyyətin haqq-ədalətə doğru addımlaması istiqamətində tərəqqi və inkişafın dayandırılması və yaxud geriləməsi mənasızdır və keçmişə qayıdış tərəqqi ilə əsla uzlaşmır! Deməli, böyük xilaskarın qiyamı sağlam və faydalı sənaye və texnologiyanın inkişafının qarşısının alınması və yaxud dayandırılmasına səbəb olmayacaq. Müasir sənaye bəşərin bir çox problemlərini həll etməklə yanaşı, vahid cahanşümul hakimiyyət və ictimai rabitələrin genişlənməsinə də şərait yaradır. Sənayeni inkişaf etdirmədən bu məsələnin gerçəkləşməsi qeyri-mümkündür.

Lakin əsas məsələ sənaye və texnologiyanın inkişafı istiqamətində ziyanverici cəhətlərin aradan qaldırılması, ictimai mənafe, sülh və ədalətin bərpasına xidmətin göstərilməsidir. Həqiqət və ədalətə tərəfdarlıq edən hakimiyyət hökmən bunu icra edəcəkdir.

Silaha gəldikdə isə, qeyd etməliyik ki, belə bir hakimiyyətin təşkili üçün imperializm, hegemon qüvvələr, zülmkarlıq və haqsızlıq dünya səhnəsindən çıxarılmalıdır. Bu məqsədin gerçəkləşməsi üçün, ən azı, indiki şəraitdə bu gün bizim üçün təsəvvürü qeyri-mümkün olan "ən son inkişaf etmiş silah" lazımdır.

Görəsən, bu silah müasir silahların fövqündə duran, onları tamamilə qüvvədən salan və hegemon qüvvələri heyrətdə qoyan "məchul və sirli şüa" ola bilərmi? Görəsən, hətta uzaq məsafədən olsa belə bir növ sirli psixoloji təsirlə, yaxud hədsiz qorxu və vəhşətə bənzər bir hissin baş qaldırması ilə onların müasir kütləvi qırğın silahlarından istifadə etmədəki təfəkkür sistemini pozmaq mümkündürmü?... Bu suallara "bilmirik" ifadəsi ən tutarlı cavabdır. Biz həm maddi və psixoloji, həm də digər cəhətlər baxımından bu silahın növünü təyin etməkdə acizik. Sadəcə onun mütləq "ən üstün silah" olacağını, eyni zamanda, günahkar və günahsızları birgə məhv etməyəcəyini deyə bilərik.

Hədis mənbələrinə müraciət etdikdə isə diqqəti cəlb edən və uyğun sualları aydın şəkildə cavablandıran ifadələr gözə çarpır:

1. İmam Sadiqdən (ə) belə nəql olunur:

انّ قائمنا اذا قام اشرقت الارض بنور ربّها واستغنى العباد من ضوء الشّمس؛

*“Həqiqətən, bizim Qaimimiz qiyam edərkən, yer üzü Rəbbin nuru ilə işıqlanacaq və bəndələr günəşin işığından ehtiyacsız olacaqlar.”*[1]

Bu hədisdən başa düşülür ki, o zaman işıq və enerji probleminə son qoyulacaq, gecə və gündüz günəşin işığını əvəz edəcək ən güclü işıqdan bəhrələniləcək. Görəsən, bunu möcüzə hesab etməməliyikmi?

Əslində, gündəlik həyat tərzi təbii axarından çıxmamalıdır. Möcüzə isə istisna xarakteri daşıyır və ondan zəruri hallarda, peyğəmbər və imamların dəvətinin haqq olduğunu sübut etmək üçün istifadə olunur.

Bir sözlə, peyğəmbərlərin dönəmində insanların adi həyat tərzi möcüzəvi şəkildə olmamışdır. Zühur əsrində elm və sənaye böyük xilaskarın sayəsində günəş enerjisinə ehtiyac duyulmayacağı qədər inkişaf edəcək və insanlar onu əvəz edəcək enerji mənbəyi kəşf edəcəklər. Belə bir şəraitdə sülh, ədalət və azadlığın təmini üçün keçmiş soyuq silahlardan istifadə olunması və onlar arasındakı mütənasibliyi necə anlamaq olar?

2. Əbi Bəsir imam Sadiqdən (ə) belə nəql edir:

**انّه اذا تناهت الامور الى صاحب هذا الامر رفع اللّه تبارك و تعالى لَه كلَّ منخفض من الأرض، و خفّض له كلَّ مرتفع حتّى تكون الدّنيا عنده بمنزلة راحته، فايّكم لو كانت فى راحته شعرة لم يبصرها؛**

*“Bütün işlər vilayət sahibinin (imam Mehdi (ə)) ixtiyarına qoyulduqda, Allah-taala yer üzünün alçaq nöqtələrini ucaldacaq və uca nöqtələrini isə alçaldacaq. Sanki bütün dünya onun nəzərində ovcuna bənzəyəcək! Sizdən hansı biriniz əlinizin içindəki tükü görməz?”*[2]

---

1. *“Biharul-ənvar”, 13-cü cild, səh. 176, qədim çap.*
2. *“Biharul-ənvar”, 52-ci cild, səh. 328.*

Hazırda yüksəkliklərdə ötürücü vasitələr quraşdırmaqla dünyanın müxtəlif nöqtələri müşahidə olunur və hətta peyk qurğularından geniş şəkildə istifadə edilir. Çağdaş dünyamızda bunun əksini gözləmək mümkün deyil. Yəni telekommunikasiya və səsdən sürətli ötürücü qurğular olmadan dünyanın müxtəlif məntəqəsində yaşayan insanların bir-birilə yaxın və qısa müddətdə rabitəsi gerçəkləşməz. Nəticədə, zühur əsrində daha güclü ötürücü sistemlərdən istifadə olunacağı anlaşılır. O zaman dünya böyüklüyünə rəğmən, bütün insanların ovcundakı kimi olacaq və yer səthindəki alçaqlıq və yüksəkliklər digər canlıların müşahidəsinə maneə yaratmayacaq!

Aydın məsələdir ki, yer kürəsinə hakim belə bir informasiya vasitəsi olmadan sülh, ədalət və əmin-amanlığı ərməğan gətirəcək vahid cahanşümul hakimiyyətin təşkili mümkün olmayacaq. Allah-taala bunu o və hakim təşkilatının ixtiyarında qoyacaqdır.

Həmin əsrdə insanların gündəlik həyatda rastlaşacaqları belə işlər qeyri-adi yox, elm və sənayeyə əsaslanan adi və təbii şəkildə baş verəcək. Vahid mütərəqqi informasiya sisteminin cəmiyyətin fasid həyat tərzi ilə əsla uzlaşmayacağı, hər ikisinin digər sahələrlə yanaşı və balanslaşdırılmış şəkildə inkişaf edəcəyi də məlumdur.

3. İmam Baqirdən (ə) belə nəql olunur:

**ذخر لصاحبكم الصّعب!**

**قلت: و ما الصّعب؟**

**قال: ما كان من سحاب فيه رعد و صاعقة او برق، فصاحبكم يركبه، أَما انّه سير كب السّحاب و يرقى فى الأَسباب؛ اسباب السّماوات السّبع**

**والارضين!**

*"Sizin (ixtiyar) sahibiniz (imam Mehdi (ə)) üçün "ram olunmaz vasitələr" ehtiyat saxlanılmışdır." Ravi "Ram olunmaz vasitədə məqsəd nədir?" – deyə soruşduqda, o həzrət buyurdu: "İldırım, şimşək və yaxud işıqdan ibarət buluddur. Sizin sahibiniz ona süvar olacaq. Agah olun! O, tezliklə buludlara minib yeddi səma və yeri dolanacaq."*[1]

"Bulud" sözündə adi bulud nəzərdə tutulmur. Çünki buludlar kosmik uçuşlar üçün nəqliyyat vasitəsi deyil. Onların yer üzü ilə fasiləsi azdır və yaxın atmosfer qatında hərəkət edirlər. Burada məqsəd səmada bulud kütləsi tək nəzərə çarpan, ildırım tək guruldayan, şimşək və işıq kimi güclü və sürətli nəqliyyat vasitəsidir. O, uçarkən qeyri-adi qüvvə ilə səmanı yaracaq və onun bütün nöqtəsinə doğru hərəkət etməyə qadir olacaq.

Demək, imam Medinin (ə) istifadə edəcəyi minik vasitəsi müasir nəqliyyat vasitələrindən qat-qat üstündür və hal-hazırda onun analoqu yoxdur. Ümumiyyətlə, bu hədisdə sənaye sahəsindəki gerilikdən deyil, qeyri-adi inkişafdan söz açılır.

4. Cabir ibn Abdullahın imam Baqirdən (ə) nəql etdiyi qəribə bir hədisdə buyurulur:

**انّما سمّى المهدى لانّه يهدى الى امر خفى؛ حتّى انه يبعث الى رجل لا يعلم النّاس له ذنب فيقتله حتّى ان احدهم يتكلّم فى بيته فيخاف ان يشهد عليه الجدار؛**

*"Onun "Mehdi" adlanmasının səbəbi gizli işlərə doğru yönəlməsi ilə əlaqəlidir. Bəzən camaatın günahsız bildiyi bir şəxsi qətlə yetirəcək. (Çünki onun qisasa səbəb olan "adam*

*1. "Biharul-ənvar", 12-ci cild, səh. 182*

*öldürmək" kimi günah törətdiyindən xəbərdardır.) Hətta bəziləri evin içində söhbət etməkdən qorxacaqlar ki, məbada, divar onların əleyhinə şəhadət verər (və imam Mehdinin (ə) hakimiyyətinə qarşı mənfur planlarını üzə çıxarar)."*

Hədisdə imam Mehdinin (ə) hakimiyyəti dövründə yaxşı və əməlisaleh insanların tamamilə azad yaşadıqları halda, cinayətkarların mütərəqqi vasitələrlə nəzarətdə saxlanılacağı da diqqəti cəlb edir! Bir əsr öncə qeyri-adi təsəvvür olunduğu halda, hazırda bu mətləbin mənası hamıya aydındır. Uzaq məsafədən radarlar vasitəsilə yollarda avtomobillərin hərəkətinə nəzarət, yaxud Misirdə fılan alimin iki min illik tarixə malik antik qab sənətkarlarının səsini əldə etməklə bağlı kəşfi və yaxud infraqırmızı şüalarla oğurluq məkanından yenicə qaçmış oğrunun fotorobortunun çəkilib tanıtdırılması təəccüb doğurmur.

Beləliklə, keçmiş sualların cavabı da tədricən aydınlaşır, yəni bu inqilab əsrində sənaye və texnologiya inkişaf edəcək və yalnız cəmiyyətin mənafeyinə, azadsevərlər və haqq-ədalət təşnələrinin arzularına xidmət göstərəcəkdir.

## *QILINC MƏFHUMU*

Mövzumuzla bağlı bir sual qalır: "İmam Mehdinin (ə) qılıncla qiyamı"na aid ifadələrin mənası nədir? Hətta bu böyük mübarizədə iştirak üçün müqəddimə sayılan dualarda belə deyilir: "Qılıncımızı sıyıraraq mübarizlərin cərgəsində olacağımız günü arzulayır və onun intizarındayıq!"

"Qələm" elm və mədəniyyət nişanəsi olduğu kimi, "qılınc" da "hərbi qüvvə" və "qüdrət" nişanəsidir. Şübhəsiz, qədim döyüş meydanlarında qılıncdan başqa,

ox, nizə və toppuz kimi digər silahlar da işlənirmiş. Bəzən kimlərsə öz gücünü sübut etmək üçün, "əgər fılan məsələni qəbul etməsən və yaxud mənə tabe olmasan, qılıncla üzləşəcəksən" və ya "öz haqqımı qılınc gücünə də olsa, alacağam" – ifadələrini işlədirlər. "Ölkə qələm və qılıncla idarə olunur" ifadəsi də elə qədimdən məşhurdur. Bu ifadələr "elm" və "qüdrət" mənalı simvol xarakteri daşıyır. Buna günümüzdə çoxlu sayda işlədilən məsəlləri göstərə bilərik:

"Fılankəs qılıncını üstdən bağlayıb!" Yəni gücünü nümayiş etdirir.

"Bizimlə sizin aranızda qılınc hökm verəcək." Bu da məsələnin yalnız döyüşlə həll olunacağını aşılayır.

"Məqsədimizə çatmayınca qılıncları qına qoydu yoxdur!" Yəni son nəfəsə kimi mübarizə aparacağıq.

"Fılankəs qılıncını qınına qoydu!" Yəni mübarizədən əl çəkdi.

Bu ifadələrdə qılınc qüdrət və mübarizə nişanəsidir. İslam rəvayətlərində də buyurulur:

**الجنّة تحت ظلال السّيوف؛**

***"Cənnət qılınclar sayəsindədir."***

**السّيوف مقاليد الجنّة؛**

***"Qılınclar cənnətin açarlarıdır."***

İmam Mehdinin (ə) "qılıncla qiyamı" dedikdə, o həzrətin sadəcə bir müəllim və ya nəsihətçi, yaxud da ictimai rəhbər kimi zühur etməsi təsəvvürünün aradan qaldırılması və onun qüdrətə söykənməsi nəzərdə tutulur. O, uzaqgörən bir rəhbər olduğundan, ilk öncə məntiq silahından istifadə edərək haqqı insanlara çatdıracaq və onun cinayətkar və zalımlara fayda vermədiyini

gördükdə, onları susdurmaq və yer üzündən silmək üçün qılınca əl atacaq, yəni qüdrətindən istifadə edəcək. Şübhəsiz ki, bir qrup insanın islahı üçün aşağıdakı ifadədən başqa, çıxış yolu yoxdur:

النّاس لا يقيمهم الّا السّيف؛

***"İnsanları yalnız qılınc düzəldər."***

Başqa sözlə, imam Mehdinin (ə) vəzifəsi yalnız haqq yolu göstərməklə bitmir, əksinə ilahi qanunları icra etmək və İslam təkamül inqilabını məqsədə çatdırmaq onun ən mühüm vəzifəsini təşkil edir.

Mətləb aydın şəkildə anlaşılsa da, bəzi dardüşüncəli insanların təsəvvürünün əksinə, o həzrətin inqilab zamanı müqəddiməsiz silaha əl atmayacağı və hər şeydən öncə ideoloji təbliğatla məşğul olacağını diqqətə çatdırırıq. Dini-məzhəbi terminlə desək, "höccəti tamamlayacaq" və heç kim üçün bəhanə yeri qoymayacaq. Xoşluqla islah olunmaq istəməyənlərə güc tətbiq olunacaqdır.

Qeyd edilənlərdən o həzrətin yolunun eynilə İslam Peyğəmbərinin (ə) yolu olduğu məlum olur. İslam Peyğəmbəri (s) Məkkədə on üç il gizli və aşkar təbliğatla məşğul oldu. Haqqı qəbul edənlər ətrafına toplaşdı. Nadanlardan ibarət zülmkarlar isə onunla mübarizəyə qalxdılar və o da Mədinəyə hicrət edərək İslam hakimiyyətini təşkil etdi və qüdrət topladıqdan sonra onlarla mübarizəyə başladı.

İslamı "qılınc dini" kimi tanıtdıranlara bu gün gətirilən ən tutarlı dəlil Qurani-Kərimdir. İslam qəddar və zorakılığı sevən bir din olsaydı, Quranda həqiqətlərin isbatına çalışılmaz, İslamın iki mühüm əsası olan Allah və məad mövzusu ilə bağlı müxtəlif dəlil-sübutlara

istinad edilməz, mütəfəkkir və əql sahibləri təfəkkür və hökm yürütməyə çağırılmaz, elm və bilikdən bu qədər söz açılmazdı. Reallıqda qəddarlığı sevən rejim dəlil-sübut gətirməz! Hətta İslam dini zor tətbiqində belə, öz mövqeyini zəruri bir məsələ kimi məntiqi dəlillərlə əsaslandırır.

Bir sözlə, imam Mehdi (ə) də İslam Peyğəmbəri (s) kimi rəftar edəcək və zühur əsrində ümumi təfəkkür tərzinin yüksəlməsilə yanaşı, məntiqə istinadın zərurəti də artacaqdır.

Şübhəsiz, zühur əsrində cəmiyyətin mənfur zümrələrinin qanı onun qılıncı ilə axıdılacaq və fasid cəmiyyətin islahı uğrunda bundan başqa bir yol yoxdur. Bu, imam Mehdinin (ə) hesab-kitabsız qan tökməsi və insanları dəlilsiz qətlə yetirməsi anlamında deyil, əksinə o, eynilə təbib kimi xəstədən qan almaqla bağlı son dərəcə diqqətli olmağı qarşıya məqsəd qoyacaqdır!

# BÖYÜK XİLASKARIN CAHANŞÜMUL HAKİMİYYƏTİ



## *ÜÇ DÖVR*

Bəşər tarixinin böyük inqilabı ilə bağlı üç dövr nəzərdə tutulur:

1. İntizar, zühurun nişanələri və hazırlıq dövrü;
2. İnqilabın gerçəkləşməsi, zülm və fəsadla mübarizə dövrü;
3. Haqq və ədalətin hakimiyyət dövrü.

Birinci və ikinci dövrlə əlaqədar kifayət qədər danışıldığından, indiki bəhsimiz bu inqilabın mühüm nəticəsi sayılan üçüncü dövrə aiddir. Məsələnin əhəmiyyətinə baxmayaraq, onun barəsində az bəhs olunmuşdur.

Ümumiyyətlə, imam Mehdinin (ə) cahanşümul inqilabından sonra ayrı-seçkilik, ixtilaf, təfriqə, müharibə, təcavüzkarlıq və zəncirlənmiş məhrumların fəryadına son qoyulacaq. Doğrusu, belə dünya necə də gözəl və ürəkoxşayandır!

Şübhəsiz, xəyal aləmində belə bir dünyanın təsviri nə qədər asan olsa da, onun əməli baxımdan gerçəkləşməsi bir o qədər çətindir. Sonda bəşəriyyət bu yolu keçməli və onu həyatda sınaqdan keçirməlidir. İslam rəvayətlərində belə bir cəmiyyətə hakim olacaq sistem və qayda-qanunların ana xətti qısa və dərinmənalı işarələrlə təsvir edilməsi və həmin ifadələrin 13-14 əsr bundan əvvələ aid

olmasına baxmayaraq, bu gün onlar tamamilə canlı və yenidir.

Biz burada onun həssas hissələrindən bir neçəsini qeyd etməklə kifayətlənirik:

*ZÜHUR ƏSRİNDƏ SÜRƏTLİ ELMİ İNKİŞAF*

İstənilən inqilabın qanun və tədbirləri mədəni və ideoloji tərəqqi olmadan çox da davam gətirməz. Bu sahədə atılan ilk addım yatmış düşüncələri ikitərəfli oyadan mədəni inqlabın – bir tərəfdən, sağlam və azad cəmiyyətin ehtiyacını təmin edən elm və biliklər, digər tərəfdən, normal bəşər həyatını mənəviyyat istiqamətində irəlilədən üsullarla agahlığın – baş qaldırmasıdır. İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə buyurulur:

**العلم سبعة و عشرون حرفاً فجميع ما جائت به الرّسل حرفان، فلم يعرف النّاس حتّى اليوم غير الحرفين، فاذا قام قائمنا اخرج الخمسة والعشرين حرفاً؛ فبثّها فى النّاس و ضمّ اليها الحرفين، حتّى يبثّها سبعة و عشرين حرفاً؛**

*"Elm iyirmi yeddi hərfdən (sahədən) ibarətdir və peyğəmbərlərin gətirdikləri isə yalnız onun iki hərfini təşkil edir. İnsanlar hələ də həmin iki hərfdən başqasını bilmirlər. Bizim Qaimimiz (imam Mehdi (ə)) zühur edərkən, digər iyirmi beş hərfi üzə çıxaracaq, onu insanlar arasında yayacaq və iki hərfi də əlavə etməklə iyirmi yeddi hərfi onlara çatdıracaqdır."*[1]

Bu hədisdən zühur əsrində elmin maksimum səviyyədə inkişafı açıq-aşkar başa düşülür. O zaman elm keçmişlə müqayisədə on iki dəfə inkişaf edəcək, faydalı elmlərin bütün qapıları insanların üzünə açılacaq və bəşərin keçdiyi min illik yol qısa müddət ərzində on iki

1. *"Biharul-ənvar", 52-ci cild, səh. 336.*

dəfə sürətlə keçiləcək. İmam Baqirdən nəql olunan bir hədislə yuxarıdakı hədis belə təkmilləşdirilir:

**اذا قام قائمنا وضع يده على رؤوس العباد، فجمع بها عقولهم و كملت بها احلامهم؛**

*“Bizim Qaimimiz qiyam etdikdə, əlini bəndələrin başına qoyacaq və beləliklə, onların əql və təfəkkür tərzi artaraq kamilləşəcəkdir.”*[1]

Nəticədə, imam Mehdinin (ə) hidayət, mərhəmət və rəhbərliyi ilə düşüncələr çiçəklənəcək və insanlar uzaqgörənlik və açıqfikirlilik, təfəkkür və böyük əzm sayəsində ictimai böhranları aradan qaldıracaq, ictimai anlaşılmazlıq və ziddiyyətlərə səbəb olan dardüşüncəliliklərə son qoyacaq və bir sözlə, dünyaya sülh və əmin-amanlıq hökm sürəcəkdir. Müasir zamanda da istənilən istiqamətdəki ictimai islahatlar həmin ideoloji və psixoloji dəyişikliklərdən asılıdır.

*ZÜHUR ƏSRİNDƏ SƏNAYEDƏKİ İNKİŞAF*

Ötən fəsildə zühur əsrində sənaye, texnologiya və bütün dünyanı asanlıqla müşahidəyə imkan yaradan informasiya vasitələrinin geniş səviyyədə inkişaf edəcəyini bildirən hədislərə toxunaraq inqilabçı qüvvələrin dünyaya hakim kəsiləcəyini və vaxtaşırı ictimai böhranların həlli uğrunda çalışacaqlarını bildirdik.[2]

Enerji və işıq problemi (atom enerjisindən başqa) bütün enerjilərin qaynaqlandığı günəş enerjisinə ehtiyac duyulmayacaq miqdarda həll olunacaq. Onun inkişaf etmiş atom enerji sisteminin nəticəsi olacağını

1. *“Biharul-ənvar”, 52-ci cild, səh. 328.*
2. *Keçən fəsil, 2-ci hədis.*

desək, yanılmarıq.[1] Müasir nəqliyyat vasitələri ilə müqayisəyəgəlməz minik vasitələri yer kürəsi və kosmik fəzadakı uzaq səfərləri qısa müddətdə qət edəcəkdir.[2]

Bunlar cahanşümul hakimiyyətin islahat hədəflərinə yardımçıdır. İmam Sadiqdən (ə) nəql olunan başqa bir hədisdə buyurulur:

**انّ قائمنا اذا قام مدّاللّه بشيعتنا فی اسماعهم و ابصارهم، حتّی لايکون بينهم و بين القائم بريد، يکلّمهم فيسمعون و ينظرون اليه و هو فی مکانه؛**

*"Bizim Qaimimiz qiyam etdiyi zaman Allah-Taala şiələrimizin görmə və eşitməsini elə gücləndirəcək ki, onlarla Qaim (imam Mehdi (ə)) arasında vasitəçi olmayacaq. O, öz yerində (başqa bir məkanda) olduğu halda, onlarla danışacaq və onlar da onu eşidib görəcəklər."*[3]

İmam Sadiq (ə) növbəti bir hədisdə bu məsələni açıqlayaraq buyurur:

**انّ المؤمن فی زمان قائم و هو بالمشرق سيری اخاه الّذی فی المغرب؛ و کذا الّذی فی المغرب يری اخاه الّذی بالمشرق؛**

*"Qaimin zamanında mömin şərqdə olduğu halda, qərbdəki qardaşını və qərbdə olan şəxs də şərqdəkini görəcək."*[4]

Bu canlı rabitə yalnız hakim dairələrə yox, bütün təbəqələrə aid olacaq, cismani rabitələr mənəvi rabitələri gücləndirərək dünyanı həqiqi mənada bir ev, cəmiyyəti də ailəyə çevirəcək və beləcə, elm, sənaye və texnologiya dünyanın inkişaf və islahına, sülh və dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcəkdir.

1. *Keçən fəsil, 1-ci hədis.*
2. *Keçən, fəsil, 3-cü hədis.*
3. *"Müntəxəbül-əsər", səh. 483.*
4. *"Müntəxəbül-əsər", səh. 483.*

### *İCTİMAİ ƏDALƏT VƏ İQTİSADİYYATIN GENİŞLƏNMƏSİ*

Yaşadığımız dünyanın biz və gələcək nəsillər üçün imkanlarının hədsiz olmasına baxmayaraq, mövcud mənbələrlə bağlı məlumatsızlıq və sərvətin bölünməsi məsələsində ədalətli strukturun olmaması müxtəlif sahələrdə çatışmazlıq yaradır. Hətta zəmanəmizdə belə hər gün aclıqdan ölən səfil insanların sayı az deyildir!

Müasir dünya iqtisadiyyatına hakim kəsilən strategiya zor tətbiqi və hərbi qüvvələri artırmaqla bəşərin rifah və əmniyyətini təmin edən yeni ehtiyat mənbələrini kəşf etmək üçün çalışmaq əvəzinə, insan qüvvələrinin mühüm hissəsini məhv edir. Lakin belə rejimin mənafeyi təhlükə ilə üzləşdikdə, qüvvələr həmin mənbələrin əldə olunması uğrunda fəaliyyətə başlayır, elm, sənaye və texnologiya bu istiqamətdə səfərbər olunur, yeni mənbələr sürətlə üzə çıxarılır və bəşəriyyətin iqtisadiyyatı çiçəklənir.

İmam Mehdi (ə) hakimiyyətindən söz açan rəvayətlərdə iqtisadi inkişafla bağlı dolğun ifadələr gözə çarpır. O cümlədən, bir hədisdə belə buyurulur:

**انّه يبلّغ سلطانه المشرق والمغرب؛ و تظهر له الكنوز؛ ولا يبقى فى الارض خراب الّا يعمّره؛**

*"Onun hakimiyyəti şərq və qərbi əhatə edəcək, yerin xəzinələri onun üçün aşkar olacaq və dünyada abad olunmamış xarabalıq qalmayacaq."*[1]

Yer üzündəki xarabalıqların mənşəyi maliyyə çatışmazlığı və insani qüvvələrin azlığından yox, əksinə hegemon rejimlərin vasitəsilə maliyyə və işçi qüvvələrinin yersiz məsrəfi və məsuliyyətsizlik hissindən yaranır.

*1. "İsafur-rağibin", 2-ci fəsil, səh. 140-141.*

Bu problemlər sağlam ictimai hakimiyyətin nəzarətilə aradan qaldırıldığı zaman, onların abadlığı şübhəsizdir. İmam Sadiq (ə) buyurur:

**اذا قام القائم: حكم بالعدل وارتفع الجور فى ايّامه و امنت به السّبل واخرجت الارض بركاتها و ردّ كلّ حقّ الى اهله... و حكم بين النّاس بحكم داوود عليه السلام و حكم محمّد صلى الله عليه و آله و سلم فحينئذ تظهر الارض كنوزها و تبدى بركاتها ولا يجد الرّجل منكم يومئذ موضعا لصدقته و لا لبرّه لشمول الغنى جميع المؤمنين...؛**

*"Qaim qiyam etdiyi zaman ədalətlə hökm sürəcək. Onun dövründə zülm və haqsızlıq aradan qaldırılacaq, onun sayəsində yollar təhlükəsizləşəcək, yer bərəkətlərini üzə çıxaracaq, hər kəsin haqqı özünə qaytarılacaq... O, insanlar arasında Davud (ə) və Mühəmməd (s) kimi hökm yürüdəcək. Kimsə sədəqə vermək və yardım etmək üçün bir yoxsul tapmayacaq. Çünki bütün möminlər ehtiyacsız olacaqlar..."*[1]

"Yerin bərəkət və xəzinələri üzə çıxacaq" – ifadəsindən məlum olur ki, zühur əsrində həm əkinçilik inkişaf edəcək, həm də bütün yeraltı sərvətlərdən istifadə olunacaq. O qədər gəlir əldə ediləcək ki, cəmiyyətdə yoxsul adam tapılmayacaq və hamının ehtiyacı təmin olunacaq.

Şübhəsiz, bu nəticə ədalət prinsipinin icrası və fiziki qüvvələrin islahat və quruculuq işlərinə cəlb olunması ilə əldə olunacaqdır. Aclıq və yoxsulluq qıtlıq və çatışmazlıqdan deyil, əksinə haqsızlıq, ayrı-seçkilik, qüvvə və sərmayələrin tələf olunmasının birbaşa və dolayı nəticəsidir. Əhli-sünnə mənbələrində Əbu Səid Xudridən belə bir hədis nəql olunur:

**قال رسول اللّه صلى الله عليه و آله و سلم:**

1. *"Biharul-ənvar", 13-cü cild.*

ابشّركم بالمهدی يملأ الارض قسطاً كما ملئت جوراً و ظلماً، يرضی عنه سكّان السّماء والارض، يقسم المال صحاحاً، فقال رجل ما معنی صحاحاً، قال بالسّويه بين النّاس؛ و يملأ قلوب امّة محمّد صلی الله عليه و آله و سلم غنی؛ و يسعهم عدله، حتّی يأمر منادياً ينادی يقول من له بالمال حاجة فليقم فما يقوم من النّاس الّا رجل واحد (ثم يأمر له بالمال فياخذ ثم يندم و يردّه)؛

*Peyğəmbəri-Əkrəm buyurur: "Sizə Mehdinin (ə) zühurunu müjdə verirəm. O, yer üzünü zülm və haqsızlıqla dolduğu kimi, ədalətlə dolduracaq. Yer və göy sakinləri ondan razı qalacaq və o, sərvəti düzgün şəkildə böləcək." Bir şəxs "Sərvətin düzgün bölünməsi nə deməkdir?" – deyə soruşduqda, Həzrət buyurdu: "İnsanlar arasında bərabər bölməkdir. (Sonra buyurdu:) Mühəmməd (s) ümmətinin qəlbini qənaətlə ehtiyacsız edəcək, ədaləti hər yeri tutacaq və hətta bir nəfərin uca səslə "Kimin maddi ehtiyacı varsa, qalxsın!" – deyə car çəkməsini əmr etdikdə, bir nəfərdən başqa, heç kim qalxmayacaq (Bu zaman İmam (ə) ona mal verəcək. Amma o, tez bir zamanda qayıdıb peşman olduğunu və acgözlük etdiyini deyəcəkdir)."*[1]

Bu hədisin təfsirində bir neçə mətləb diqqəti cəlb edir:

1. "Göy sakinlərinin onun hakimiyyətindən razılığı" dedikdə, mələklər, onun hakimiyyətinin digər planetlərə qədər genişlənməsi, səma yollarının açılışı və kosmik uçuşlar nəzərdə tutula bilər.

2. "Sərvətin bərabər şəkildə bölünməsi" ifadəsi ya İslam hakimiyyətinin hamıya bərabər şəkildə böldüyü beytül-mal və ümumi əmlaka, ya da eyni şərtlərdə çalışan işçi qüvvələrinə bərabər bölünən hədiyyə və maaşlara işarədir. Təəssüf ki, günümüzdə bunun əksini müşahidə

1. *"Nurul-əbsar fi mənaqibi Ali-beytin-Nəbiyyil-muxtar", səh. 156-157, Misir çapı.*

edirik; bir fəhlə müəyyən məntəqədə işlədiyi bir saatın müqabilində "on dollar" aldığı halda, digər fəhlə başqa bir məntəqədə elə həmin şərait və keyfiyyətlə "bir dollar" belə ala bilmir. Bu da eyni şəraitdə çalışan işçi qüvvələr üçün nəzərdə tutulan fərqli zəhmət haqqı ilə bağlı zülm və haqsızlığın son həddidir!

3. Hədisdən zühur əsrində bir nəfər belə yoxsul və möhtacın olmayacağı aydın şəkildə başa düşülür. Amma bir nəfərin yoxsul olacağına işarə onun mənəvi yoxsulluğu, hərislik, acgözlülük və tamahkarlığı ilə bağlıdır. Əslində isə, o da maddi cəhətdən ehtiyacsızdır. Burada mühüm məsələ imam Mehdinin (ə) düzgün rəhbərliyi sayəsində insanlara mənəvi və psixoloji aramlığın bəxş edilməsi və yersiz məşəqqətə səbəb olan "tamahkarlığın" qəlblərdən silinməsidir. İctimai ədalətin bərpası ilə insanların bu gün və gələcəyi təmin olunduğundan, heç kim özündə sərvətə meyil hiss etməyəcək. İslam Peyğəmbəri (s) buyurur:

**...حتّى تملأ الارض جوراً فلا يقدر احد يقول اللّه! ثم يبعث اللّه عزّوجل رجلًا منّى و من عترتى فيملأ الارض عدلا كما ملأها من كان قبله جوراً و يخرج له الارض افلاذ كبدها و يحثو المال حثواً و لا يعدّه عدداً؛**

*"Bir gün gələcək ki, yer üzü zülmlə dolacaq, kimsə (aşkar şəkildə) Allahın adını çəkə (və haqq-ədalətdən danışa) bilməyəcək. Bu zaman Allah-taala mənim nəslim və Əhli-beytimdən bir kişini göndərəcək. O, yer üzünü zülmlə dolduğu kimi, ədalətlə dolduracaq. Yer üzü öz qiymətli əşyalarını onun üçün üzə çıxaracaq və o da sərvəti xəsislik etmədən camaat arasında bölüşdürəcək. (Hər kəs ehtiyacı qədər ondan götürəcək.)"*[1]

Hədisdə qeyd olunan "əflaz" sözü "filiz" sözünün

1. *"Müntəxəbül-əsər", səh. 168.*

cəm forması olub, "şöbə" mənasını ifadə edir. "Əflazu kəbid" ifadəsi də "qiymətli əşyalar" və yeraltı sərvətlər mənasındadır. Bu ifadədə, həm mühüm enerji mənbəyi kimi istifadə olunacaq yeraltı qaynar və odlu maddələr, həm də qiymətli yeraltı metallar nəzərdə tutula bilər.

Şübhəsiz, əxlaqi təkamül, ruhi və cismani asayiş və gələcək ehtiyacların təmini sayəsində hətta sərvətin qeydə alınmasına belə ehtiyac duyulmayacaq və hər kəs beytülmaldan öz haqqını alacaqdır. Bütün bunlarla yanaşı, hədisdəki ifadələrdən imam Mehdinin (ə) hakimiyyəti dövründə geniş şəhərlər və böyük məscidlər tikilməsinə baxmayaraq, onların öz sadəliyini itirməyəcəyi və camaatın rifahının təmin olunacağı da anlaşılır.

1. İmam Sadiqdən (ə) belə nəql olunur:

***"Kufənin arxasında min qapılı bir məscid tikiləcək və onun evləri Kərbəla və Hiyrə çayına birləşəcək."*[1]**

Bildiyimiz kimi, bu iki şəhər arasında 70 kilometr fasilə vardır.

2. İmam Baqir (ə) buyurur:

**اذا قام القائم... يكون المساجد كلّها جمّاء لاشرف لها كما كان على عهد رسول اللّه صلى الله عليه و آله و سلم و يوسّع الطّريق الاعظم فيصير ستّين ذراعاً و يهدم كلّ مسجد على الطّريق و يسدّ كلّ كوّة الى الطّريق و كلّ جناح و كنيف و ميزاب الى الطّريق؛**

*"Qaim (ə) qiyam etdiyi zaman... Peyğəmbərin (s) dövründə olduğu kimi, bütün məscidlərin divarları alçaq olacaq. O, böyük və magistral yolları 60 "zira"ya[2] qədər genişləndirəcək, bütün yolüstü (camaatın yolunu kəsən) məscidləri, bina və*

1. *"Biharul-ənvar", 52-ci cild, səh. 330.*
2. *Uzunluq vahidi.*

*artırmaları, balkonları və s. sökdürəcək."*[1]

3. Həmçinin, imam Sadiq (ə) buyurur:

**... وليصيّرنَّ الكوفة اربعة و خمسين ميلا و ليجاورنَّ قصورها كربلا، و ليصيّرنَّ اللّه كربلا معقلا و مقاما...؛**

*"Kufə əlli dörd mil genişlənəcək, hətta onun binaları Kərbəlaya birləşəcək və Kərbəla bir çox fəaliyyətlərin mərkəz və ocağına çevriləcək..."*[2]

4. Əkinçilik, memarlıq və abadlıq sahəsinin də inkişafı ilə bağlı hədislərin sayı az deyildir.[3]

***Məhkəmə və ədliyyə sisteminin inkişafı:*** Zülm, haqsızlıq və fəsadla mübarizə aparmaq üçün əxlaq və iman dayaqlarının möhkəmlənməsi ilə yanaşı, güclü və düzgün məhkəmə sisteminin yaradılmasının zəruriliyi danılmazdır. Şübhəsiz, texnologiyanın geniş inkişafı ilə cəmiyyətin tam nəzarətdə saxlanılması, fəsad və zülmkarlıqla nəticələnən yersiz addımların qarşısının alınması mümkün bir haldır. Zülm və fəsada son qoyulması və haqq sahibinin öz haqqını almasında saleh və sağlam bir hakimiyyətin belə imkanlara sahib olması da zəruridir.

Böyük xilaskarın zühur əsrində kütləvi rabitə və informasiya vasitələri ilə əxlaqi təlimlər yayılacaq, əksər insanlar pak və sağlam həyat quracaq və ictimai ədalət həqiqi mənada bərpa olunacaqdır.

Bəşər azad yaradıldığı, əməl və rəftarlarında "cəbr"ə baş əymədiyindən, hər bir sağlam və saleh cəmiyyətdə öz azadlığından çirkin məqsədlərə çatmaq üçün sui-istifadə edənlər də olacaqdır. Odur ki, belə halların qarşısının

*1. "Biharul-ənvar", 52-ci cild, səh. 33.*
*2. "Biharul-ənvar", 53-cü cild, səh. 12.*
*3. "Müntəxəbül-əsər", səh. 472, 473 və 474.*

alınması, camaatın haqqının qorunması və zülmkarın məhkumu üçün mütləq sağlam və mütərəqqi məhkəmə sistemi təşkil olunmalıdır. Cinayətlər, ictimai fəsad və onların qarşısının alınma yolları barədə mütaliə etdikdə, aşağıdakı mətləblər aydın olur:

1. İctimai ədalətin icrası və sərvətin ədalətlə bölgüsü sayəsində bir çox ictimai fəsadlara – yoxsul təbəqələrin istismarı, hiylə, yalan, xəyanət və cinayətlərə – son qoymaq olar. Hər bir cəmiyyətdə baş verən ictimai fəsadların çoxunun bu məsələdən qaynaqlanması mümkündür. Məlumdur ki, ağacın kökü qurusa, budaqları da öz-özünə quruyacaq.

2. Düzgün təhsil və tərbiyənin ictimai və əxlaqi pozğunluq, zülm və təcavüzlə mübarizədə təsiri olduqca böyükdür. Günümüzdə yaranan ictimai fəsadların artmasının ən mühüm amillərindən biri də kütləvi rabitə və informasiya vasitələrinin çirkin və əxlaqsız proqramlara, dünya istismarının məsləhət və mənafeyinə, zülm, fəsad və təcavüzkarlığa xidmətidir. Təəssüflər olsun ki, kütləvi informasiya vasitələrindən yayımlanan əxlaqsız və azdırıcı filmlər və yalan xəbərlərin sayı da günbəgün çoxalmaqdadır. Əlbəttə, bu da səbəbsiz deyil və məqsəd islahatçı təlimlər və fəal qüvvələri məhv etməkdir.

Dünyaya hakim kəsilmiş bu vəziyyət dəyişildiyi zaman qısa müddətdə ictimai fəsadlara da son qoyulacaqdır. Bu isə sülh və ədalətin bərpası, bütün kütlələrin mənafeyi naminə çalışacaq dünyamiqyaslı sağlam və saleh quruluş olmadan mümkün deyil!

3. Sağlam, ədalətli və mütərəqqi məhkəmə sistemi yaradılmalıdır ki, cinayətkarlar onun cəngindən qaça və ədalətdən yayına bilməsinlər. Bu da ictimai fəsadların

azalması istiqamətində təsirli amil sayılır.

* * *

İmam Mehdinin (ə) hakimiyyət dövrü ilə bağlı hədislər məcmusundan o həzrətin hakimiyyəti zamanı qeyd edilən üç mühafizəkar amildən istifadə ediləcəyi anlaşılır. Necə deyərlər, bir zaman gələcək ki, qurdla qoyun bir-birinin kənarında su içəcək. Şübhəsiz, o zaman qurdların mahiyyəti dəyişməyəcək. Onların mahiyyətinin dəyişilməsinə də lüzum yoxdur. Bu ifadə dünyada ədalətin bərpası, əsrlər boyu zəli kimi yoxsul təbəqələrin qanını soran zülmkar hakim dairələrlə sıx rabitə yaradan qurdsifətli insanların yolunun dəyişilməsinə aiddir.

Həmin xislət belə şəxslərin fitri xüsusiyyəti olmadığından, yeni hakimiyyət sayəsində tamamilə dəyişiləcək, ya da başqalarının mənafeyinə toxunmamaq şərtilə zərərsizləşdirilərək başqaları ilə yanaşı ilahi nemətlərdən bərabər şəkildə bəhrələnəcəklər. Əks-təqdirdə, onların cəzası ölüm olacaq.

Diqqəti cəlb edən digər məsələ Peyğəmbərdən (s) nəql olunan "sərvətin düzgün şəkildə bölgüsü"dür. Zühur əsrində insanlar mənəvi baxımdan o qədər tox olacaqlar ki, sərvət artıq qaldıqda, onu istəyən tapılmayacaq. Başqa sözlə, cəmiyyət sağlam və ədalətli hakimiyyət sayəsində elə tərbiyə olunacaq ki, ehtiyacından artıq malı özü üçün "başağrısı" hesab edəcək! Hamının həyatı təmin olunduğundan, heç kim gələcəyi uğrunda "varlanma" müsabiqəsinə girişməyəcək. Həmin dövrdə insanların təfəkkür tərzi və dərrakəsinin artacağı və cəhalətdən yaranan ziddiyyət və qalmaqallara son qoyularaq şəxsiyyətin sərvətlə ölçülməyəcəyi də digər maraqlı məsələlərdəndir.

* * *

Bir daha imam Mehdi (ə) hakimiyyətinin möcüzə ilə idarə olunacağını təsəvvür edənlərin yanıldığını vurğulayır və möcüzənin istisna hallar və peyğəmbər, yaxud imamların dəvətinin haqq olmasının isbatı ilə bağlı olduğunu bildiririk. Peyğəmbər və imamların heç biri gündəlik həyat tərzinin tənzimlənməsi məqsədilə möcüzədən istifadə etməmişdir.

Bir sözlə, o həzrətin rəhbərliyi sayəsində dünyaya əmin-amanlıq hökm sürəcək və rəvayətə əsasən, qadınlar heç bir problemlə üzləşmədən dünyanın şərqindən qərbinə səfər edə biləcəklər.

* * *

İmam Mehdinin (ə) sadə həyat tərzini bildirən rəvayətləri buna əlavə etdikdə, məsələ daha da aydınlaşır. Çünki o həzrətin əməl və rəftarları bütün dünya xalqına örnək və nümunədir. İctimai fəsad və cinayətlərin mühüm bir hissəsini yersiz cah-cəlal, zinətli həyat tərzi və ağır xərclər təşkil etdiyindən, imam Mehdinin (ə) hakimiyyəti zamanı onların aradan qaldırılmasının digər bir səbəbi də aydınlaşır. İmam Rza (ə) buyurmuşdur:

**و ما لباس القائم عليه السلام الّا الغليظ و ماطعامه الّا الجشب؛**

*"Qaimin (ə) libası qalın, yeməyi isə sadədir."*

Buna oxşar bir hədis imam Sadiqdən (ə) də nəql olunmuşdur.[1]

### *UZUNMÜDDƏTLİ HAKİMİYYƏT*

İslam mənbələrində nəql olunan müxtəlif hədislərdə imam Mehdinin (ə) hakimiyyət müddəti 5 və yaxud 7 ildən 309 ilə ("Kəhf" səhabələrinin mağarada yatdıqları

1. *"Müntəxəbül-əsər", səh. 307.*

müddətə) qədər göstərilir və həqiqətdə, bu, hakimiyyətin mərhələ və dövrlərinə (5 və yaxud 7 il ərzində hakimiyyətin təşkil olunması, 40 il inkişaf müddəti, təqribən, üç əsr də son dövrə) işarə ola bilər. Rəvayətlərə nəzər salmadan da, böyük xilaskarın hakimiyyətinə dair bu qədər söz-söhbət və müqəddimələrin qısamüddətli yox, əksinə zəhmət və ağrı-acıların nəticəsi olan islahatlarla uzunmüddətli olacağı anlaşılır.

### *MƏDƏNİ VƏ İDEOLOJİ SAHƏLƏRDƏ YENİLİKLƏR*

Həqiqətdə, səmavi ayinlər göydən yağan yağmura bənzəyir. Yağışın şəffaf və pak damlaları həyatbəxş və susuzları özünə tərəf dəvət edəndir. Hətta, təşnə olmayanlar da su içmək fikrinə düşürlər. Lakin həmin damlalar qeyri-münbit və üfunətli torpaqlara düşdükdə, ilkin səfa və paklığını itirir, bəzən də tamaşaçı onu gördükdə, üzünü turşudaraq pis qoxusundan burnunu da tutur.

Yağmurun səfa və paklığını, günəşin parlaqlığını və baharın təravətini xatırladan ilahi ayinlər də nadanların azğın fikirləri və qərəzli insanların çirkin əllərinə toxunduqda və şəxsi səliqə və adət-ənənələrlə qarışdıqda, təhrifə uğrayaraq ilkin cazibədarlığını tamamilə əldən verir. Ən primitiv və geridə qalmış xalqın inkişaf və tərəqqisinə səbəb olan və təhrif olunmamış Quran və bütün zamanlarda onun əsilliyini qorumaq naminə canlarını verən alimlər sayəsində təhrif və dəyişikliklərinin qarşısı müəyyən qədər alınan İslam dini belə, bu mövzudan kənar deyil. Lakin etiraf etməliyik ki, onun bir sıra məfhumları əksəriyyəti təşkil edən müsəlmanların təhrif əllərindən

uzaq qalmamışdır. Hal-hazırda yaşayan müsəlmanların haradasa çoxunun Peyğəmbəri-Əkrəmin (ə) dövründəki həqiqi İslama biganəliyi insanda təəccüb doğurur. Bəzən, "zöhd", təqva, "səbir", "intizar", "şəfaət" və "ibadət" kimi qurucu məfhumlar elə təhrif olunur ki, həqiqi İslam ondan vəhşətə gəlir!

Bir çox İslam qanunları "şəri don" adı ilə aradan qaldırılmış və "riba" və "sələm" hökmü kimi, onların yalnız adı qalmışdır. "Hicrət", "cihad" və "şəhadət" kimi bəzi məsələlər də yaddaşlardan silinmiş, ən azı tarixi forma almış və İslamın başlanğıc dövrlərinə aid edilmişdir. İslam tövhidi müxtəlif şirklərlə qarışmış, İslam Peyğəmbərinin (s) "Mən sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və Əhli-beytimi..."[1] – deyə "ağır əmanət" adlandırdığı Əhli-beyt məktəbi və onun ehtiva etdiyi həqiqi İslam dini əksər müsəlmanlar arasında tanınmaz qalmış və müxtəlif töhmətlərlə İslam ümməti ondan uzaqlaşdırılmışdır.

İmam Mehdi (ə) məharətli bağban tək həqiqi İslam fidanlarına sarmaşan alaq otlarını İslam gülüstanından təmizləyəcək, əyri və calaq budaqları amansızcasına kəsəcək, çirkin suları saflaşdıracaq, İslam məfhumlarını təhrif edən və onlardan sui-istifadə edənlərin əllərini üzəcək... və bir sözlə, Peyğəmbəri-Əkrəm və imam Əlinin (ə) dövründə yaşanan İslamı dirçəldəcəkdir. Onun vəzifələrindən biri də İslamı uydurmalar və yanlış təfsirlərdən təmizləmək, başqa sözlə, İslam adlı əzəmətli sarayı yenidən qurmaqdır.

Onun hakimiyyəti dövründə tənbəllik və sükut öz

*1. Bir çox əhli-sünnə mənbələrində nəql olunan "Səqəleyn" hədisi haqda əlavə məlumat əldə etmək istəyənlər "Quran və hədis" kitabına müraciət edə bilərlər.*

yerini fəryad və hərəkatla əvəz edəcək, həqiqi İslam tövhidi şirkdən ayrılacaq, unudulmuş və dəyişilmiş məfhumlar düzgün şəkildə təfsir ediləcək, şəxsi düşüncələr İslamdan uzaqlaşdırılacaq, adət-ənənələr zəngi susdurulacaq, İslam irqçilik məhdudiyyətindən çıxarılıb dünyamiqyaslı formada aşkar ediləcək.

Onun hakimiyyəti dövründə o qədər dəyişikliklər ediləcək ki, sanki "yeni din" kimi görünəcək. "İsbatul-huda" kitabında imam Sadiqdən (ə) belə nəql olunur:

**اذا خرج القائم يقوم بامر جديد، و كتاب جديد، و سنّة جديد و قضاء جديد؛**

*"Qaim qiyam etdiyi zaman yeni hakimiyyət, yeni kitab, yeni sünnə və qəzavət gətirəcəkdir."*[1]

Məlum olduğu üzrə, imam Mehdinin (ə) etdiyi dəyişikliklərdə onun yeni din gətirməsi yox, İslamı uydurma, xurafat, təhrif və yanlış təfsirlərdən təmizləməsi nəzərdə tutulur. Həmçinin, "yeni kitab"da da məqsəd o həzrətə səmadan yeni bir kitabın nazil olması deyil! Çünki o, peyğəmbər və yeni kitab sahibi yox, dinin gözətçisidir. O, Quran ayələrini yanlış təfsirlərdən elə ayıracaq ki, ona "yeni kitab" adı qoyulacaq.

Bu mətləb onun İslam Peyğəmbərinin (s) kitabı, sünnəsi və dini üzrə qiyam edəcəyi ilə bağlı nəql olunan müxtəlif hədislərdə öz əksini tapmışdır. İmam Sadiqin (ə) Abdullah ibn Əta adlı səhabəsi deyir: "İmam Sadiqdən: "İmam Mehdinin (ə) sünnəsi necə olacaq?" – deyə soruşduqda, o həzrət bildirdi:

**يصنع ما صنع رسول اللّه صلى الله عليه و آله و سلم يهدم ما كان قبله**

---

*1. "İsbatul-hudat", 7-ci cild, səh. 83.*

كما هدم رسول‌اللّه صلى الله عليه و آله و سلم امر الجاهليّة و يستأنف الاسلام جديدا؛

*“Allahın Rəsulunun gördüyü işləri görəcək və Peyğəmbərin cahiliyyət adətlərini ləğv edib İslamı bərpa etdiyi kimi, o da özündən əvvəlki (yanlış) proqramları ləğv edəcək.”*

İslam Peyğəmbərindən (s) belə bir hədis nəql olunur:

القائم من ولدى؛ اسمه اسمى و كنيته كنيتى و شمائله شمائلى؛ و سنّته سنتى؛ يقيم النّاس على طاعتى و شريعتى و يدعو هم الى الكتاب ربّى؛

*“Qaim mənim övladlarımdandır. Onun adı mənim adımla, künyəsi künyəmlə, siması simamla və sünnəsi sünnəmlə eynidir. İnsanları mən və dinimə itaətə və Rəbbimin kitabına dəvət edəcəkdir.”*

Yenə o həzrətdən belə nəql olunur:

و انّ الثّانى عشر من ولدى يغيب حتّى لايرى، و يأتى على امّتى بزمن لايبقى من الاسلام الّا اسمه، ولايبقى من القرآن الّا رسمه فحينئذ يأذن اللّه له تبارك و تعالى بالخروج فيظهر الاسلام به ويجدّده؛

*“On ikinci övladım qeybə çəkiləcək və gözlərə görünməyəcək. Ümmətim üçün bir zaman gələcək ki, İslamın adı və Quranın xəttindən başqa bir şey qalmayacaq. Bu zaman uca Allah ona qiyam icazəsi verəcək və İslamı onunla aşkar edərək yenidən dirçəldəcək.”*[1]

Bu hədislərdə qeyd olunan mətləb o qədər aydındır ki, bizi şərh və izahdan ehtiyacsız edir.

*DİNİ VƏHDƏT VƏ BİRLİK*

Şübhəsiz, dini-məzhəbi ixtilaf və çəkişmələr cəmiyyətdə vəhdət yarada bilməz və bu, vəhdət və birliyin sarsılması

1. *“Müntəxəbül-əsər”, səh. 98.*

üçün kifayətdir. Bunların əksinə, vəhdət yaradan ən mühüm amillərdən biri bütün ixtilafları geridə qoyan, müxtəlif xalqlar, dil və mədəniyyətləri birləşdirərək vahid cəmiyyət yaradan dini-məzhəbi birlikdir. Bunun sayəsində cəmiyyətin fərdləri bir-birilə mehribancasına yaşayacaq və Qurani-Kərimin "İnnəməl-muminunə ixvətun" (Həqiqətən, möminlər bir-birilə qardaşdırlar!) – ayəsi öz həqiqi mənasını tapacaqdır. Məhz bu səbəbdən, dini tövhid sayəsində vahid teoloji quruluşun təşkili böyük xilaskarın əsas proqramlarındandır və bu proqramın məcburi şəkildə həyata keçəcəyi barədə əsla şəkk etməməliyik. Din və məzhəb insanın qəlb və ruhuna işləməlidir. Bildiyimiz kimi, qəlb və ruh zorakılıq və məcburiyyət dairəsindən kənardır və heç kim ona əl uzada bilməz. Nəzərinizə çatdırırıq ki, İslam Peyğəmbərinin (s) sünnəsi də məcburiyyət və icbardan kənar olmuşdur. Qurani-Kərimdə buyurulur:

لااكراه فى الدّين

***"Dində məcburiyyət (ikrah) yoxdur."***[1]

Odur ki, İslam həmişə kitab əhlini azlıq təşkil edən sağlam qurum kimi qəbul və təhrikedici rəftarlara əl atmadıqları vaxta qədər onları himayə etmişdir.

Zühur əsrində kütləvi informasiya vasitələrinin böyük xilaskar və ardıcıllarının ixtiyarında olması, təhrifdən kənar həqiqi İslamın yüksək cazibədarlığına diqqət yetirməklə İslam dininin məntiqi və mütəmadi təbliğat sayəsində əksəriyyət tərəfindən qəbul olunacağı və mütərəqqi İslam vasitəsilə dinlər arasında vəhdət yaranacağı məlum olur.

Öncə qeyd etdiyimiz əqli dəlillə qəbul olunan bu

*1. "Bəqərə" surəsi, ayə 256.*

həqiqət İslam rəvayətlərində də açıq-aşkar gözə dəyir. İmam Sadiq (ə) uzun bir hədisdə Müfəzzələ belə buyurur:

**...فواللّه يا مفضّل ليرفع عن الملل و الاديان الاختلاف و يكون الدّين كلّه واحداً كما قال اللّه عزّوجلّ انَّ الدّين عنداللّه الاسلام...؛**

*"...Ey Müfəzzəl, Allaha and olsun, dinlər arasında ixtilaf aradan qaldırılacaq və Allah-Taalanın **"Həqiqətən, Allah yanına din, yalnız İslamdır..."**[1] – deyə buyurduğu kimi, onlar bütövlükdə bir din formasını alacaq!"*

Əvvəldə də imam Mehdinin (ə) qiyamına toxunan bəzi ayələrin təfsiri ilə bağlı buna bənzər mətləbləri qeyd etmişdik.

Beləliklə, İslam və tövhid dini bütün evlərə, bütün insanların həyatı və bütün qəlblərə daxil olacaqdır. Bununla belə, azlıq təşkil edən digər səmavi dinlərin ardıcıllarından əsla əsər-əlamətin qalmayacağını da demək olmaz. Çünki onlar da ixtiyar sahibidir və ədalətli cahanşümul hakimiyyətdə məcburiyyətdən söz gedə bilməz. Cahanşümul ədalətli reformasiyada müsəlmanlar əksəriyyəti təşkil etsələr də, bəzilərinin səhvən, yaxud təəssübkeşlikdən keçmiş əqidədə qalması da mümkün və təbiidir.

Ümumiyyətlə, onlar azlıqda olsalar da, sağlam həyat tərzi keçirəcək və "zimmə əhli" şəraiti ilə İslam hakimiyyəti tərəfindən himayə olunacaqlar.

*1. "Biharul-ənvar", 53-cü cild, səh. 4.*

# İDDİAÇILAR



### *MEHDİ (Ə) ZÜHUR EDİBMİ?*

İslam tarixinə nəzər saldıqda, görürük ki, elə birinci əsrdən başlayaraq "vəd edilən Mehdi"nin adı bəzilərinə nisbət verilir. Halbuki onların heç biri dünyada kiçik bir islahat aparmağa müvəffəq olmamış və hətta yaşadıqları mühitdə belə təsirləri görünməzdir. Bəlkə də bu adla tanınan ilk şəxs (onun tərəfdarları tərəfindən) imam Əlinin (ə) oğlu Məhəmməd Hənəfiyyədir. Tərəfdarları onun vəd edilən Mehdi olduğunu, vəfatından sonra da ölməyib, "Rəzəvi" dağında iki şirin vasitəsilə qorunduğunu iddia etmişlər. Halbuki Məhəmməd Hənəfiyyə 80 və yaxud 81-ci hicri-qəməri ilində vəfat etmiş və Mədinənin "Bəqi" adlı məşhur qəbiristanlığında dəfn edilmişdir. Sonralar bu ad zülmkar Abbasilərin xilafətə gəlməsində də mühüm rol oynamışdır. Demək olar, bu proses hər bir əsrdə özünü bir cür büruzə vermişdir. Belə iddiaçıların arasında hər cür adam tapılırdı; ruhi-psixoloji xəstə, ağıldanyüngül, sadəlövh, kələkbaz və s. Bəzən İslamın düşmənləri də bu məsələdə mühüm rol oynamışlar. Məsələn, onlardan biri dövrümüzə yaxın olan Seyid Məhəmmədəli Bab adı ilə tanınan azğın bir şəxsdir. O, əvvəl özünü "Mehdi" adlandırmağa cürət etmirdi və "bab" və yaxud "Mehdinin xüsusi vəkili" iddiası ilə tanınmağa qane idi. Lakin zaman ötdükcə, bəziləri onun ətrafına toplaşdılar və səhnə

arxasında yeni bir proqram cızanların təhrikləri ilə özünü "Mehdi" elan etdi.[1] Onun və ardıcıllarının tərcümeyi-halı ilə bağlı əldəki sənədlərə əsasən, bu işdə kənardan hakim dairənin təhriki və bir neçə amil mühüm rol oynamışdır.[2] Sonralar canişinləri onun özünü kənarlaşdıraraq özləri "Mehdi" iddiası fikrinə düşdülər və zaman ötdükcə müxtəlif firqələrə ayrıldılar.[3] Burada məqsədimiz onları araşdırmaq deyil və yaxşı olar, mövzu ilə əlaqədar yazılan kitablara müraciət edilsin.[4]

Bütün bu saxta şəxslərə rəğmən, imam Mehdi (ə) Allahın izn verdiyi vaxt zühur edəcək və onun vəzifəsi cahanşümuldur:

İnsanların dünyagörüşündə yüksəliş;

elm və sənayedə tərəqqi;

müxtəlif peşə və sahələrdə inqilab;

hər bir din və məzhəb ardıcıllarını bir bayraq altında toplamaq;

dünyada sərvətlərin ədalətli bölgüsü;

iqtisadiyyatda rövnəq (belə ki, dünyada yoxsul belə

*1. Bu firqənin qəbul etdiyi "Zühurul-həqq" kitabında (səh. 173) belə qeyd olunur: "Bab 1265-ci ilin ortalarında Maku zindanında ikən Molla Əbdülxaliqə belə bir məktub yazdı: "Zühuruna vəd etdiyiniz haqq Qaim mənəm." Molla Əbdülxaliq özü onun bu iddiasından möhkəm narahat oldu.*

*2. Onun ruhi-psixoloji anormallığını öz kitabındakı (ruhi-psixoloji xəstələrin sözlərinə oxşayan) söz və ifadələri ilə yanaşı, "Kəşfül-ğita" kitabında bu firqənin rəhbərlərindən sayılan Mirzə Əbülfəzl Gülpayqaninin qeydləri də təsdiqləyir. Belə ki, o deyir: "Təbriz müctəhidləri bir məclisdə Babı sorğu-suala tutduqdan sonra dedilər: "Sənin sözlərin qanını bizə halal edir. Amma edamına hökm verməməyimizin səbəbi ruhi-psixoloji xəstəliyindir."*

*3. İndiyə qədər onların sayı iyirmini keçir.*

*4. "Bəhai nə deyir?", "Mühakimə və araşdırma", "Xoşyar Qulinin sözləri", "Hədiyyətun-Nəmlə" və s.*

tapılmayacaq);

hər bir haqqın bərpası;

yer üzünü abadlaşdırmaq;

əmin-amanlıq;

yerüstü və yeraltı sərvətləri üzə çıxarmaq...

Bütün bunlar tarixdə görünməyən böyük inqilabın əlamətləridir.

Amma dünya hələ də zülm, haqsızlıq, təcavüzkarlıq və ayrı-seçkiliyin qurbanıdır. Birinci və ikinci dünya müharibələrinin vurduğu ziyan və zərərləri hesablamaq qeyri-mümkündür. Hələ də fironluq edənlər az deyil və hər gecə milyonlarla insan ac yatır və zindanlar günahsız insanlarla dolur. Bir sözlə, dünya zülm və haqsızlıqdan partlamaq üzrədir. Məhz o zaman parlaq günəş buludlar arxasından görünəcək! O zaman buludlar tamamilə çəkiləcək! Biz hamımız günün intizarındayıq və deyəsən, sübh yaxındır!

*Mündəricat*

**AYDIN GƏLƏCƏK. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5**
***İCTİMAİ-TARİXİ TƏKAMÜL. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6***
***XİLQƏTDƏ NİZAM VƏ UYĞUNLUQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 8***
***FİTRƏT, SÜLH VƏ DÜNYAMİQYASLI ƏDALƏT . . . . . . . . . . . . . . . . . . 8***

**QƏDİM ETİQAD VƏ AYİNLƏRDƏ BÖYÜK XİLASKAR. . . . . . 10**

*ZƏRDÜŞTLƏRDƏ BÖYÜK XİLASKAR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 11*

*HİNDULAR VƏ BRAHMANLARDA BÖYÜK XİLASKAR . . . . . . . . . . . . . . . . . 11*

*ƏHDİ-QƏDİMDƏ (TÖVRAT) BÖYÜK XİLASKAR . . . . . . . . . . . . . . . . . . . . . . 12*

*ƏHDİ-CƏDİDDƏ (İNCİL) BÖYÜK XİLASKAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13*

*ÇİN, MİSİR VƏ DİGƏR XALQLARDA BÖYÜK XİLASKAR . . . . . . . . . . . . . . . 13*

*QƏRB DÜNYASINDA BÖYÜK XİLASKAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 14*

**CAHANŞÜMUL İNQİLAB . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15**
***İNQİLAB, YAXUD TƏDRİCİ İSLAHAT . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 16***

**DÜNYAMİQYASLI HAKİMİYYƏT ÜÇÜN LAZIMİ**

**HAZIRLIQLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 19**
***ÜMUMİ HAZIRLIQLAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 20***
***“İNTİZAR” MƏFHUMU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21***

*İNTİZAR – FİTRİ HƏQİQƏT . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 22*

*İNTİZARIN FƏLSƏFƏSİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 23*

*YANLIŞ MÜHAKİMƏLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 24*

*İNTİZARIN MÜSBƏT TƏSİRLƏRİ* . . . . . . . . . . 25
*İNTİZAR – TAM HAZIRLIQ* . . . . . . . . . . 28
*1. FƏRDİ İSLAHAT* . . . . . . . . . . 29
*2. İCTİMAİ HAZIRLIQ* . . . . . . . . . . 30
*3. HƏQİQİ İNTİZARÇILAR ÇİRKİNLİKDƏN UZAQDIR!* . . . . . . . . . . 31

**İSLAM MƏNBƏLƏRİNDƏ DÜNYANIN BÖYÜK XİLASKARI . . 34**
*BÖYÜK XİLASKARIN XÜSUSİYYƏTLƏRİ* . . . . . . . . . . 35
*QURANİ-KƏRİMDƏ BÖYÜK XİLASKAR* . . . . . . . . . . 36
*ALLAHIN YER ÜZÜNDƏ NÜMAYƏNDƏSİ* . . . . . . . . . . 39
*ƏHLİ-SÜNNƏNİN HƏDİS MƏNBƏLƏRİNDƏ BÖYÜK XİLASKAR* . . . . . . . . . . 48
*MEHDİ KİMDİR?* . . . . . . . . . . 52
*CANLI BİR SƏNƏD* . . . . . . . . . . 53
*MƏKTUBUN ORİJİNAL MƏTNİ* . . . . . . . . . . 56
*MÜXALİFLƏRİN MƏNTİQİ* . . . . . . . . . . 62
*MÜXALİFLƏRİN MƏNTİQİNİN ZƏİFLİYİ* . . . . . . . . . . 63
*ŞİƏ MƏNBƏLƏRİNDƏ İMAM MEHDİ (Ə)* . . . . . . . . . . 67

**İNQİLABIN ƏLAMƏTLƏRİ . . . . . . . . . . 71**
*ZÜHURUN ƏLAMƏTLƏRİ* . . . . . . . . . . 72
*1. ZÜLM VƏ FƏSADIN GENİŞLƏNMƏSİ* . . . . . . . . . . 72
*2. DƏCCALIN (HİYLƏGƏR ŞƏXS) GƏLİŞİ* . . . . . . . . . . 82
*3. SÜFYANİNİN ZÜHURU* . . . . . . . . . . 87

**ŞİƏNİN İMAM MEHDİ (Ə) İLƏ BAĞLI ƏQİDƏSİ VƏ BU ƏQİDƏDƏN DOĞAN SUALLAR . . . . . . . . . . 92**
*İMAM MEHDİ (Ə) – PEYĞƏMBƏRİN (S) ON İKİNCİ CANİŞİNİ* . . . . 93
*BİRİNCİ SUAL* . . . . . . . . . . 94
*İKİNCİ SUAL* . . . . . . . . . . 94

*ÜÇÜNCÜ SUAL . . . . . 94*

***ÜÇ MÜHÜM SUAL . . . . . 99***

*1. İMAM MEHDİ (Ə) VƏ UZUNÖMÜRLÜLÜK . . . . . 99*

*GÖRƏSƏN, TƏBİİ ÖMRÜN SABİT HƏDDİ VARMI? . . . . . 100*

*MÜSTƏSNA HALLAR . . . . . 103*

*BU ŞÜBHƏNİ İRƏLİ SÜRƏNLƏR KİMLƏRDİR? . . . . . 104*

*2. QEYB DÖVRÜNÜN UZANMASI . . . . . 107*

*3. QEYB DÖVRÜNDƏ İMAMIN VARLIĞI . . . . . 110*

**BÖYÜK XİLASKARIN İNQİLAB YOLU . . . . . 115**

***O, QILINCLA QİYAM EDƏCƏKMİ? . . . . . 116***

***QILINC MƏFHUMU . . . . . 122***

**BÖYÜK XİLASKARIN CAHANŞÜMUL HAKİMİYYƏTİ . . . . . 126**

***ÜÇ DÖVR . . . . . 127***

*ZÜHUR ƏSRİNDƏ SÜRƏTLİ ELMİ İNKİŞAF . . . . . 128*

*ZÜHUR ƏSRİNDƏ SƏNAYEDƏKİ İNKİŞAF . . . . . 129*

*İCTİMAİ ƏDALƏT VƏ İQTİSADİYYATIN GENİŞLƏNMƏSİ . . . . . 131*

*UZUNMÜDDƏTLİ HAKİMİYYƏT . . . . . 139*

*MƏDƏNİ VƏ İDEOLOJİ SAHƏLƏRDƏ YENİLİKLƏR . . . . . 140*

*DİNİ VƏHDƏT VƏ BİRLİK . . . . . 143*

**İDDİAÇILAR . . . . . 146**

***MEHDİ (Ə) ZÜHUR EDİBMİ? . . . . . 147***

***Mündəricat . . . . . 150***